Cabir Novruz

# Özünü qoru, xalqım

## Lirik-ictimai şeirlər

Tanınmış xalq şairi, publisist, tərcüməçi və ictimai xadim, müxtəlif mükafatlar laureatı Cabir Novruz oxucularının görüşünə oxunaqlı şeirlər kitabı ilə gəlib. Şair şeirləri ilə bir daha özünün vətəndaş mövqeyini, yurddaş yanğısını, xalqına, millətinə, soydaş məhəbbətini poetik biçimdə, sözün obrazlı dilində ifadə edir. Cabir Novruzun poetik duyumu, şairliyi xalq ruhundan, milli düşüncə və klassik poetik təfəkküründən qaynaqlandığı üçün bu kitabı da geniş oxucu auditoriyası tərəfindən rəğbət və məhəbbətlə qarşılanıb.

*Yeni Yazarlar və Sənətçilər Qurumu ilə*
*www.kitabxana.net – Milli Virtual Kitabxananın*
*e-nəşri N 69*

**YYSQ**
**2011**

www.kitabxana.net

*Milli Virtual Kitabxanamın Təqdimatında*

Cabir Novruz

# *Özünü qoru, xalqım*

## *(Şeirlər)*

***Elektron kitab***

***YYSQ - Milli Virtual Kitabxanamın e-məşri N69 (2011)***

***Redaktoru və e-məşrə hazırlayan:***

***Aydın Xan (Əbilov) - yazar-kulturoloq***

***YYSQ - Milli Virtual Kitabxana***

***Bakı - 2011***



Cabir Novruz

# *Özünü qoru, xalqım*

## *(Şeirlər)*

Cabir Novruz. Özünü qoru xalqım. Azərbaycan nəşriyyatı, Bakı, 2002.

Tanınmış xalq şairi, publisist, tərcüməçi və ictimai xadim, mğxtəlif mükafatlar laureatı Cabir Novruz oxucularının görüşünə oxunaqlı şeirlər kitabı ilə gəlib. Şair şeirləri ilə bir daha özünün vətəndaş mövqeyini, yurddaş yanğısını, xalqına, millətinə, soydaş məhəbbətini poetik biçimdə, sözün obrazlı dilində ifadə edir. Cabir Novruzun poetik duyumu, şairliyi xalq ruhundan, milli düşüncə və klassik poetik təfəkküründən qaynaqlandığı üçün bu kitabı da geniş oxucu auditoriyası tərəfindən rəğbət və məhəbbətlə qarşılanıb.

# Cabir Novruz: Həyatı və yaradıcılığı

Cabir Novruz 1933-cö il mart ayının 12-də Xızı rayonunun Upa kəndində anadan olmuşdur. O, orta məktəbi bitirdikdən sonra Mirzə Ələkbər Sabir adına pedaqoji Texnikumda təhsil almış və 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olmuşdur. Bir il sonra Azərbaycan Yazıçılar İttifaqının tövsiyəsi ilə təhsilini davam etdirmək üçün Moskvaya, Maksim Qorki adına Ədəbiyyat İnstitutuna göndərilmiş və 1957-ci ildə oranı bitirmişdir.

1958-ci ildə «Bakı» axşam qəzetinin ədəbiyyat şöbəsində ədəbi işçi kimi əmək fəaliyyətinə başlayan Cabir Novruz 1967-1970-ci illərdə «Azərbaycan» ədəbi-bədii jurnalının, 1991-1993-cü illərdə isə «Ədəbiyyat və incəsənət» qəzetinin baş redaktoru vəzifələrində çalışmışdır. O, 1970-1997-ci illərdə Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin katibi olmuşdur.

Cabir Novruzun poeziyası XX əsr Azərbaycan ədəbiyyatının parlaq səhifələrindən birini təşkil edir. Onun əsərlərində Milli irsimizin zəngin ənənələri müasir ədəbi cərəyanların tələbləri ilə üzvi şəkildə birləşir. Ədəbiyyat aləminə gəldiyi ilk illərdən şair yüksək bəşəri-mənəvi dəyərləri tərənnüm edən şerləri ilə oxucuların dərin məhəbbətini qazanmışdır. Onun qələmindən çıxan lirik poeziya nümunələri və epik lövhəli əsərlər bədii səviyyəsi, mövzu rəngarəngliyi ilə seçilir. Şairin yüksək mənəviyyata səsləyən yaradıcılığı və vətəndaş ruhunun hakim olduğu olduğu poeziyası öz dilinin bədii gözəlliyi və rəvanlığı ilə səciyyələnir. Onun sözlərinə bəstələnmiş çoxsaylı mahnılar musiqisevərlər tərəfindən həmişə böyük rəğbət və sevinclə qarşılanmışdır.

Cabir Novruz yaradıcılığı vətənpərvərlik və mübarizlik ruhunun aşılanmasına mühüm xidmətlər göstərmişdir. Vəğənin taleyi üçün narahatlıq hissinin xas olduğu Cabir Novruz poeziyasının başlıca mövzuları azərbaycançalıq ideyaları ilə sıx bağlı olmuşdur. Şairin poetik təfəkkürü onun lirikasının tarixiliyini qüvvətləndirmiş və bu poeziyanı daha həyati etmişdir.

Şairin əsərləri dünyanın müxtəlif xalqlarının dillərinə tərcümə edilərək nəşr olunmuşdur. Onun bədii tərcümələri sayəsində isə Azərbaycan oxucusu dünya poeziyasının bir sıra qiymətli nümunələri ilə tanış olmaq imkanı qazanmışdır.

Cabir Novruzun ictimai fəaliyyəti də zəngin olmuşdur. O, həyatının bütün mərhələlərində ölkəmizdə gedən ictimai-siyasi proseslərin həmişə fəal iştirakçısı olmuş, xalqımızın həyatında baş verən tələyüklü hadisələrə düzgün qiymət verməsində əsl vətəndaşlıq mövqeyi nümayiş etdirmişdir.

Şairin ədəbi və ictimai fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, «Əməkdar incəsənət xadimi», «Xalq şairi» fəxri adlarına, dövlət mükafatına, orden və medallara layiq görülmüşdür. Cabir Növruz 1995-ci ildə Azərbaycan Milli Məclisinin deputatı seçilmişdir.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, əməkdar incəsənət xadimi, Azərbaycan Respublikası prezidentinin fərdi təqaüdçüsü, xalq şairi Cabir Mirzəbəy oğlu Novruzov (Cabir Novruz) 2002-ci il dekabrın 12-də ömrünün 70-ci ilində vəfat etmişdir.

Görkəmli şair, həqiqi vətəndaş və səmimi insan Cabir Novruzun əziz xatirəsi xalqımızın qəlbində həmişə yaşayacaqdır.

**ÖZÜNÜ QORU, XALQIM**

Müqəddəs, ulu xalqım,
Gözümün nuru, xalqım,
Ən qorxulu zamandır,
Özünü qoru, xalqım.
Bir tora ilişmisən,
Çaynaqları dərində.
Bir oyuna düşmüsən,
Oyuncaqlar əlində.
Üzərində əsirlər
Qara yellər görürəm.
Sənə quyu qazırlar,
Mənfur əllər görürəm.
Sənə quyu qazırlar,
Mənfur əllər görürm.
Təklənmisən yenə də,
Əyilməz, ulu xalqım.
Oğul, sözüm sənədir,
Özünü qoru, xalqım.
Kimin bəd əməli var,
Tarix özü söyləsin.
Burda şeytan əli var,
Burda iblis hiyləsi.
Döyür torpaqlarını,
Yenə dəmir çəkmələr.
Müstəmləkə qanunu,
Böl, parçala, hökm elə.
Bölürlər bilə-bilə,
Dağ çəkirlər sinənə,
Beləcə bölə-bölə,
İstəyirlər bu yurdu,
Yer üzündən silələr,
Yalvarıram, amandır,
Allah sözü dilimdə,
Sən belə dar məqamda,
İçəridən bölünmə,
İçəridən talanma.
Bizim, sizin elliyə,
Əqrəbaya, yerliyə,
Amandır, parçalanma.
Ayırmayaq bu yurdu,
Doğma, ögey kəslərə.
Ən betəri odur ki,
Xalq özünə qəsd edə.
Özünün əli ilə
Öz-özünü öldürə.
Yetər, bizim bu eli,
Tayfalara böldülər,

Mahallara böldülər,
Ostanlara böldülər,
Küçələrə böldülər,
Dalanlara böldülər…
Bu yağıya köməkdir,
Özümüzə xəyanət.
Bizə birlik gərəkdir,
Ay el-oba, camaat.
Qüdrətimsən, gücümsən,
Çağlayırsan qanımda.
Amma sayca kiçiksən
Böyüklərin yanında.
İllərlə səni, xalqım,
Söküb talan ediblər.
Balaca səsin qalxıb,
Gülləbaran ediblər.
Yüz cür fərman yazıblar,
Min cür fəndlər gəziblər.
O sahildə kəsiblər…
Amma ki, iradəni,
Sındıra bilməyiblər.
Heç ölümlə də səni.
Öldürə bilməyiblər.
Yenə göylər dumandır,
Qəhrəman, ulu xalqım.
Ən dəhşətli zamandır,
Özünü qoru, xalqım!

**Daha dəhşət…**

Millətimiz öz yurdunda əsir-yesir,
Anaların, bacıların ahı-dəhşət…
Bu torpağı yada vermək dəhşətdirsə,
Vərdiş etmək bu dəhşətə daha-dəhşət…

Şuşasızlıq ağrısına hamı dözür,
İtirilmiş mahalların sayə-dəhşət,
Minlər ilə şəhid görmək dəhşətdirsə,
Şəhidliyə vərdiş etmək daha dəhşət…

Ölənləri ağlamayır artıq kimsə,
Saymır Allah, çoxu qonşu vayın – dəhşət…
Çöl düşmənim qorxuncdursa, dəhşətdirsə,
İç düşmənim daha qorxunc, daha dəhşət…

Nə ki, Laçın, Ağdamda da yadlar gəzir,
Kəlbəcərdə oldu düşmən payı-dəhşət…
Cəbrayılı satmaq əsl dəhşətdirsə,
Xocalının soyqırımı daha – dəhşət…

Geri torpaq almayacaq heç kim bizə,
Biz də olduq Fələstinin tayı-dəhşət…
Özümüzə güvənməmək dəhşətdirsə,
Özgələrə arxalanmaq daha-dəhşət…

Yağılara yalvarırıq durub bəzən,
Dünya bizi gücsüz, yazıq sayır-dəhşət.
Vəhşi olmaq, cəllad olmaq dəhşətdirsə,
Miskin olmaq, naçar olmaq daha dəhşət…

Yastıq verin, yorğan çəkin üçtümüzə,
Yuxudayıq ilin on bir ayı-dəhşət…
Qəflətlərdə yatmağımız dəhşətdirsə,
Durmağımız daha müşkül, daha dəhşət!

Azərbaycan yarı yadda, yarı bizdə,
Eşidən yox bu harayı – hayı – dəhşət…
Bu günümüz ağırdırsa, dəhşətdirsə,
Sabahımız kaş olmaya daha dəhşət…

## Qana-qan

Millətin beli bükülü,
Hamının gözü kölgəli…
Vətənin qanı tökülüb
Hamı bu qanda çimməli.

O qan acidə qan deyil,
Nalədir, ağıdır o qan…
İntiqam, intiqam deyir,
Qisasa çağırır o qan…

Ya dözüd, sağ qalıb, ya da
Ölüb həlak olaq gərək:
Girib çıxaq bu dəryadan,
Yuyunub pak olaq gərək…

O qan şəhidlərin qanı,
Yanın torpaqların qanı.
Başsız meyidlərin qanı,
Sönən ocaqların qanı.

Sinəmizə dağ çəkilib,
Yad əllər ana, gəlin…
Qeyrət qanımız tökülüb,
Hamı bu qanda çimməli…

Odur ümid, odur xilas,
Bilir Allah, bilir fələk…
O qan yerdə qala bilməz,
O qana qan alaq, gərək.

Bu qurtarar eli qandan,
Haray çəkir Vətən qanı,
Öz qanına edib qəltan,
Tökməliyik itin qanın…

Çoxunda insan qanı yox,
Zəhərli yadların qanı.
Halaldır, gəl, tökəni yox;
O qan soranların qanın.

Bir hüceyrəsi saf deyil,
Cövhəri şər, ziya, kələk.
Allah özü savab deyib,
O qanı biz tökək gərək…

Ən sonuncu qətrəyəcən,
Ən sonuncu damlayacan…
Yalnız azca götürəsən,
Tarix üçün saxlayasan…

Haydı, vətən oğulları,
Sən də xalqım, eşit məni…
Öz qanında boğulmalı,
Soyumuzun qan düşməni…

Bircə mikrobu saf deyil,
Cövhəri şər, riya, kələk…
Allah özü savab deyib,
O qanı biz tökək gərək…

Ən sonuncu qətrəyəcən,
Ən sonuncu damlayacan…
Yalnız azca götürəsən,
Tarix üçün saxlayasan…

## Birdən-birə

Zaman-zaman yığdığımız
Talan oldu birdən-birə,
Nəyimiz var
Yalan oldu birdən-birə…
Tama döndü sifətimiz

Birdən-birə,
Kütlə oldu millətimiz
Birdən-birə…
Gecə yatdıq səhər
Ayrı-adam olduq,
Heç bilmirəm necə oldu,
Nədən oldu…
Allahdanmı,bəndədənmi,
Fələkdənmi,
Zirvədəydik dərələrə
Sürükləndik…
Elə bil ki, birdən bizi
Basdı qara,
Bir barmağın hökmü ilə tökülmüşdük
Meydanlara…
Sehirlədi gözümüzü onun
Bircə işarəsi,
Düşdü dəbə millət ilə alver etmək,
Ticarəti…
Birdən-birə neçə dəllal
Zühur etdi,
Peydə oldu,
Əqidələr elə bil ki,
Edam oldu…
Kəlmə başı aldatldılar
Bu milləti,
Anasını ağlatdılar
Bu millətin…
Çox təmizlər murdar oldu
Birdən-birə…
Çox dinsizlər dindar oldu
Birdən-birə…
Çox şairlər tacir oldu
Birdən-birə…
Çox tacirlər şair oldu
Birdən-birə…
Gədə-güdə birdən bizə
Ata çıxdı,
Cörəyimiz qıta çıxdı…
Qurutdular suyumuzu,
Yas qatdılar toyumuza,
Bərəkətli torpağımız
Birdən düşdü
Bərəkətdən.
Bircə tikə hey qalmadı
Məmləkətdə.ı
Nağıllarda olan kimi,
Bu yalançı hürriyyəti
Sarıdılar

Boynumuza ilan kimi…
O da möhkəm çaldı bizi,
Özümüzdən aldı bizi,
Durdu bizim qəsdimizə
Birdən-birə…
Qeyrətsizlik basdı bizi
Birdən-birə…
Cənnətimiz Qarabağı satdıq yada,
Satqınlıqda ad çıxartdıq bu dünyada.
Şuşa getdi, tükümüz də dəbərmədi,
Birimiz də ölüb, itib, gəbərmədik…
Heç üfürən olmadı da gözümüzə,
Ondan sonra papaq qoyduq,
Kişi dedik
Özümüzə…
Bu tay yandı, o tay batdı,
Qanlar axdı xan Arazın
Sellərindən
Birdən-birə…
Sayca qırx milyonluq xalqıq,
Aciz qaldıq üçcə milyon dələduzun
Əllərində
birdən-birə…
Adımızla nə ki bağlı əfsanə var,
Beca oldu,
Cavanşirlər, Koroğlular necə oldu?..
Harda qaldı Qorqud babam, Həcər anam,
Girov qaldı yad əllərdə
Neçə bacım,
Neçə anam…
Gecəımiz gündüzə döndü,
Gündüzümüz gecə oldu
Birdən-birə…ı
Birdən-birə itirilən şöhrətimiz
Fəqət geri dönməyəcək
Birdən-birə…
Heç neçəyə satdığımız
O qiymətsiz torpaqları,
O çayları, meşələri,
O dağları,
Biz canini susdurmasaq,
Verməyəcək
Qəbirləri belə asan
Verməyəcək…
Zəngilanı onlar biz tək
Sakit qoyub qaçmayacaq
Birdən-birə,
Füzulinin qapıların üzümüzə
Açmayacaq

Birdən-birə…
Dərman üçün bizə Cıdır düzümüzdən
Bir qara daş,
Bircə kəsək
Verməyəcək…
O meydanda can verməsək,
Qan verməsək
Verməyəcək…
Düşmən bizə heç bir şeyi
Rahat, asan
Verməyəcək,
Bir yumruq tək birləşməsə,
Azərbaycan-
Verməyəcək.
Gəlin, nağıl danışmayaq özümüzlə,
Bilə-bilə
Birdən-birə…
Verdiyimiz dönməyəcək
Özümüzə
Birdən-birə…

1993

## Öz Doğma Yurdunda Qaçqınlar

Yurd-yuva həsrəti çəkirlər
Öz ana yurdunda qaçqınlar.
Nə qədər cəfalar çəkirlər,
Bu evi dağılmış Məcnunlar.

Köçürlər bu yerdən o yerə,
Köçləri nədir ki, bir həsir.
Baxıram o ağlar gözlərə,
Bir kasa qan olub hərəsi.

Əynində bircə dəst paltarı,
Əzilib-üzülüb, daralıb.
Özünə sığınacaq axtarır
Qocalar, uşaqlar, qarılar.

Adamın kəsilir əlacə,
Öz adı da çıxır yadından,
Vətəndə olublar qaraçı,
Vətənsiz qalıblar vətəndə.

Yurdları düşmən əlində,
Özləri həsrətin, kədərin.
Dəhşətə baxın ki, gün-gündən

Hey artır sayları, qədəri.

Hey artır, qış ötür, yaz gəlirn
Bu evi dağılmış məcnunlar,
Ölkəni bürüyüb az qala,
Bürüyüb doğmaca qaçqınlar.

Qaçqınlar yad yerə qaçalar,
Bizimki Vətəndən, Ya Rəsul…
Fağırlar, yazıqlar, naçarlar
Gəzirlər ümidsiz, çarəsiz.

Tökülüb gəlirlər şəhərə,
Bakı da az qala üzülür.
Bəzisi ev tapır bir təhər,
Bəzisi qohuma qısılır.

Bəzisi məktəbdə, bəzisi
Yaşayır tələbə yerində…
Hamı da acıqlı, əsəbi,
Pərişan, narahat, deyingən.

Neyləsin, dərdlidir fağırlar,
Yurdları çıxıb əllərindən.
Qaçqınlar nə zaman axırda,
Görəsən, dönəcək yerinə?!

Vətənsiz qalıblar Vətəndə
Elə bil olublar qaraçı.
Əlləri yurduna yetəndə
Sağalar hamının yarası…

1992

**Həkim dostum, elə demə…**

Qan təzyiqim qalxır hər gün,
Qan təzyiqim…
Elə bil ki, çatışmayır
Suyum, havam…
Baxıb mənə neçə-neçə
Loğman, həkim
Kömək etmir neçə cürə
Dərman, dava…
Hər bir şeyi unut deyir
Təbiblərim,
Deyirlər ki, fikir çəkmə,
Qəm eləmə…

Həkim dostum, çoxdur bunun
Səbəbləri,
Axı, necə dərd etməyim,
Elə demə…
Vətən yanır, necə dözüm
Bu dəhşətə,
Bilirsənmi, el dərdidir
Dərdim mənim?..
O dərd artıq hopub qana,
Keçib ətə.
Sən o dərdə dərman tapdır,
Verdir mənə…
Yaddan çıxmır Şuşa qalam,
Məğrur, əziz.
Fikrim daim elə onun
Yanındadır…
Varlığında qövr eləyir
Gecə-gündüz,
O ruhumda, əsəbimdə,
Qanımdadır…
Heçs olarmı o qalasız
Yaşayım mən,
O mənimçün hava, nəfəs
Candır, həkim…
Bircə kərə qalxa bilsəm
Şuşaya mən,
Qan təzyiqim enəcəkdir
Onda, həkim…
Xocalını mən unudum,
Axı, necə.
Minlər ilə şəhidimi,
Qurbanımı…
Qalxdı qanım o gün
Ərşi – fələyəcən…
O torpaqda siz arayın
Dərmanımı…
Hər gün neçə ər itirir
Azərbaycan,
Allah özü yağılara
Olsun qənim…
Bu şəhidim qalxsa əgər
Məzarından,
Əsəblərim sakitləşər
Onda mənim…
Yazma, mənə o iynəni,
O nüsxəni,
Özümdədir öz xilasım,
Öz düşmənim…
Yad güllərdən daha artıq

Kəsir məni,
Öz içimdə gedən qanlı
Çəkişmələr…
Analarım, bacılarım
Batıb yasa,
Bax, onların sevincidir
Dərman mənə…
Bu dar gündə qalxıb,
Coşub çağlamasa…
Gərək deyil o qan mənə,
O can mənə…
Yetər, daha dərman yazma,
Təbib, yetər,
Bilmirsənmi, el dərdidir
Dərdim mənim…
O dərd artıq hopub qana,
Keçib ətə,
Sən o dərdə dərman tapdır,
Verdir mənə…

1992

**Hərbin əsil faciəli qəhrəmanı analardır…**

Ən birinci anaları didir, yeyir müharibə,
Ən birinci analara dəyir onun güllələri…
Ən birinci anaların belin əyir müharibə,
Ən birinci anaların arzusunu kür eyləyir…

Nə zamanki, oğulları cəbhələrə yola düşür,
Anaların bircə gündə qara telə ağa çalır…
Balaların sinəsini hədəf edən qarı düşmən,
Əvvəl, əvvəl anaların ürəyini nişan alır…

Anaların həddən böyük qəmi yoxdur, dərdi yoxdur,
Güllə dinsə, ilkin onlar şəhid olub yananlardır…
Davalarda kimlər udub, uduzurlar fərqi yoxdur,
Davalarda hamıdan çox uduzan analardır…

Bütün qanlı çarpışmalar məhz onları hədəf edir,
- Oğul, oğul nalələri sinələrə dağlar qoyur…
Eh, nəyinki məğlubiyyət, ən müqəddəs qələbə də,
Anaları gözü yaşlı, anaları ağlar qoyur…

Nə edəsən, heyiflər ki, yağını da yaradan var,
Canavarın anası da çox istəyir balasını.
Lap cəllada süd verən də olub ası, olub naçar,
Yəqin o da söyür hərbin ünvanına, qarasına…

Lap Hitleri doğan kəs də, yəqin qanın düşməniymiş,
İnanmıram, yer üzündə cəng istəyən ana ola…
Dava başsız başçıların fitnəsiymiş, işləriymiş,
Davalarda hamıdan çox analardır talan olan…

Ər oğullar döyüş üçün, vuruş üçün doğulsa da,
Bu mərdliyin ilk beşiyi, son ünvanı analardır…
Davalarda ad çıxaran qəhrəmanlar çox olsa da,
Onun əsl faciəli qəhrəmanı analardır…

1994

**Ölüm-olüm vaxtı gəlib…**

Vətənimiz, millətimiz ağğrı çəkir,
Günlərimiz ağır ötür, ağır keçir…
Varlığımız niskin doldu, sual dolu,
Hər sualın özündən də sual doğur…
Qəlb dolusu bir sevinən, gülən yoxdur…
Dumandayıq, irəlini görən yoxdur…
Ey quşbazlar, bir quş seçin əlasından,
Uça bəlkə bizim Şuşa qalasından…
Lələyinə bir namə də götürsün o,
Dərdimizi xan qızına yetirsin o…
Qonsuz Cıdır meydanına çatan kimi,
Görsün İsa bulağımız yerindəmi?..
Qarabağın göylərində dönə-dönə,
Cövlan etsin hamımızın əvəzinə…
Əli qanlı, dişi qanlı düşmən yəni.
Heç qoyarmı ora bizim göyərçini?..
Heç qoyarmı cəllad ola, Şuşa ola?..
Kölgəmizi qılınclayar düşə ora…
Dünənimiz, bü günümüz ağrı çəkir,
Aylarımız ağır ötür, ağır keçir…
Torpağımız, ürəyimiz dəlmə-deşik,
Üzdən sağıq, içdən isə çürümüşük…
Gör nə qədər açılmayan düyün qalır,
Hər cavabın özü belə müəmmalı…
Bir milyondan artığımız dərbədərdir,
Bu millətin ölümünə bərabərdir…
Dörd yanımız düşmən dolu, satqın dolu,
Qeyrətsizlik çox adicə bir hal olub…
Qardaş durub qardaşına güllə atır.
Bu qardaşın qardaşına «pay sovqatı»,
Başçı Ana torpağını pula satır,
Bu başçının öz xalqına «pay sovqatı»…
Çox-çox cənnət məkanımız əldən gedib,

Nə gedibsə xalqdan gedib, eldən gedib…
Neçə-neçə şəhərimiz talan olub,
Təbriz dərdi, Dərbənd dərdi yalan olub…
İnamımız, imanımız ağrı çəkir,
Həyatımız ağır ötür, ağır keçir…
Hamı alqı-satqı ilə zəhərlənib,
İtirmişik çox mənəvi dəyərləri…
Alver edir uşaq, böyük, cavan, qoca,
Başdan-başa bazar olub Azərbaycan.
Almaq olur, satmaq olur hər nə desən,
O, əvvəlki məmləkətdən yoxdur əsər.
O, əvvəlki adamların boş səsi var,
Batini yox, zahiri var, kölgəsi var…
Hara baxsan, hara getsən dükan-dükan,
İtib nizam, itib zaman, itib məkan,
Təmiz kəslər ac-yalavac, miskin, naçar,
Tale nə vaxt üzlərinə qapı açar?..
Hər görəndə alt-üst olur gümanların,
Tursik satan, lifçik satan cavanların…
Yeyən yeyir, çalan çalır, alan alır,
Millətimiz gör, nə yaman günə qalır…
Belə getsə xilasına güman yoxdur,
Özümüzdən özümüzə aman yoxdur…
Ulu xalqım, gəl şairin sözünə bax,
Aç gözünü, yaxşı-yaxşı özünə bax,
Yetər, qəflət yuxusundan dur, qalx daha,
Düz sümüyə dirənibdir bıçaq daha,
Qalx, dostunu düşmənindən ayır, xalqım,
Ölüm-olum vaxtı gəlib, ayıl, xalqım…

1993

## Hərb bitəcək

Vaxt keçəcək, dövr ötəcək,
Qan-qadalı hərb bitəcək,
Yağıları qovacağıq
Bu torpaqdan,
Mütləq geri alacağıq
Kəlbəcəri,
Laçınıdı da,
Qarabağa bütün yollar
Açılacaq.
Çəkiləcək ulu İsa bulağından
Bulud,duman,
Hərb bitəcək, aman onun ağrıları
Göynədəcək
Zaman-zaman…

Hamımızı incidəcək, izləyəcək…
Övladları həlak olan
Analarsa bu dəhşətə
Dözməyəcək,
Daim elə olacaqlar
Yalqız, ağdar,
Edə, oğul deyə-deyə
Gözlərini
Yumacaqlar…
Hərb ötəcək…amma onun
Üstümüzdən
Getməyəcək
Kölgələri…
Görən necə böyüyəcək illər ilə,
Məmləkətin yüzlər ilə, minlər ilə,
Yetim-yetim
Körpələri…
Hərb bitəcək…bunu təlcə
Allah bilər,
Neyləyəcək sevdiyini
Qurban verən
Sevgililər?!.
Qəlblərində həsrət, qubar,
Nə vaxtacan qfrf geyib ağlayacaq
Nişanlılar?!.
Hamısıda nakam-nakam qocalacaq
Qarıyacaq…
Hərb bitəcək… çox-çox qanlı
Yaraları
Sarıyacaq…
Tənzif, dərman götürəcək
Zaman özü,
Hərb bitəcək ağrıları
Odlayacaq
Sinəmizi…
Hərb bitəcək… amma heç vaxt
Şəhidlərin
Köynəkləri
Kəsməyəcək…
O ğəzarlar hər gün bizi intiqama
Səsləyəcək,
Onlar bizi and verəcək bir
Allaha…
Aldanmasın millət daha…
Aldanmayaq ta gözümüz görə-görə,
Nə daxili, nə xarici
Düşmənlərə…
Yetər, bu xalq çox inanıb,
Çox allanıb,

Hərb bitəcək... amma onun
Bitməyəcək
Sualları…
Vaxt keçəcək, dövr ötəcək,
Qan-qadalı hərb bitəcək…
İnamım var bizim böyük qələbənin
Gəlişinə…
Onda necə çıxacaqlar
Çox xainlər
El içinə…
Soruşuram dönə-dönə, təkrar-təkrar,
Hansı üzlə onlar, axı,
Hansı üzlə tıxacaqlar,
Çörəyini bu torpağın?..
Soruşuram, təkrar-təkrar, dönə-dönə,
Eşidirəm ürəyimin qərarını,
Hansı üzlə qayıdacaq
Öz kəndinə,
Öz kəndini qoyub qaçan
Fərarilər…
Soruşuram, təkrar-təkrar, dönə-dönə,
Nə hüquqla, hansı üzlə,
Yenə Vətən deyəcəklər
Bu Vətənə,
Vətən satan vətənsizlər?..
Soruşuram dönə-dönə, təkrar-təkrar,
Hansı üzlə üzümüzə baxacaqlar,
Suyumuzdan içəcəklər,
Qapımızdan keçəcəklər
Şuşa, Ağdam alınanda
Bakıda öz dükanında,
Oğurluq saqqız satanlar,
Fındıq, püstə, qoz satanlar,
Bığı burma dələduzlar,
Alverçilər,
Mən onları bizim soydan
Saymaram
Bundan belə…
Hərb ötəcək... Bilməm ancaq
Hansı qəbrə qoyulacaq,
Xalq acından saralanda,
Topdağıtmaz sarayından
Hər gün öpüb əndamını,
Göz-qaşını,
Öz erməni oynaşını,
Yeddi qapı arxasında
Yağ içində
Saxlayanlar…
Amma üzdə millət deyib

Ağlayanlar…

**Altmış illiyimə**

Kaş bu yaşa girməyəydim,
Öz xalqımı belə naçar,
Belə miskin
Görməyəydim…
Çəkməyəydim bu çəkilməz
Əzabları,
Ağrıları…
Görməyəydim yüzlər ilə
Həlak olan
Oğulları…
Belə müdhiş aylar, illər
Görməyəydim,
Öz yurdunda didərginlər
Görməyəydim…
Yerim, yurdum gor olaydı,
Görməyəydim, kaş gözlərim
Kor olaydı…
Kaş bu yaşqa girməyəydim,
Qanlı yanvar dəhşətini
Görməyəydim…
Bu nə qada, bu nə qandı
Görməyəydim.
Şuşam necə yağılara bağışlandı
Görməyəydim.
O qalasız yaşamağa
Haqqım yoxdur…
O qalasız özüm heçəm,
Xalqım yoxdur…
O qalasız haqqım yoxdur
Nə ölməyə, nə qalmağa…
Görməyəydim Laçın necə
Süqut etdi
Gözlərimiz
Baxa-baxa…
Bakı, Təbriz baxa-baxa
Göylər, yerlər baxa-baxa…
Allah aman,
Həm bu taydan, həm o taydan
Koroğlular, Cavanşirlər baxa-baxa…

II

Kaş bu yaşa girməyəydim,
Xocalının ölümünü

Görməyəydim…
Kəlbəcərin bu gününü
Görməyəydim.
Allah aman, Allah aman,
Görməyəydim heç bir zamaz,
Ağdam kimi məmləkətim
Necə çıxdı
Əlimizdən,
Ağdam getdi, millət olmaz
Daha bizdən.
Ağdam getdi, qeyrət umma
Daha bizdən,
Ağdam getdi sinəmizdən
Bir saplanmış
Xəncər qaldı,
Ağdam getdi ta nə qaldı,
Bakı qaldı,
Gəncə qaldı…
Ağdam getdi, ta nə qaldı,
Təbriz qaldı,
Zəncan qaldı…
Allah aman, Allah aman,
Əsr-əsr, zaman-zaman
Neçə yerə parçalanmış
Vətən qaldı…
Ağdam getdi, ta nə qaldı
Bir mən qaldım,
Bir sən qaldın…

III

Kaş bu yaşa girməyəydim,
Gəncədəki soyqırımı
Görməyəydim.
Özüm əsir olmayaydım
Öz əlimdə…
Allah aman, Allah aman,
Bilməyəydim heç bir zaman,
Qardaş tankla necə keçir
Qardaşının cəsədinin
Üzərindən…
O cür azğın rəqibimiz
Ola-ola,
Yerevan tək qan çanağı
Dura-dura,
Ibizim soydan olan kəsin,
Birdən-birə səsi gəlsin,
ƏMR versin,
-Bomba tökün Gəncəbasar

torpağına,
Böyük, ulu Nizaminin
Ocağına…
Nə deyəsən beləsinə,
Tutub gərək diri-diri
Boğazından çıxarasan
Dərisini…
Dilini də dağlayasan,
Dondurasan,
Ətini də tonqallarda
Yandırasan…
Qoymasan nə külündən
Əsər qala,
Nə cismindən məzar qala…

IV

Kaş bu yaşa girməyəydim,
İçimizdə necə qorxunc
Satqınlar var
Görməyəydim…
Ulu xalqım qala idi xəyalımda
Qəhrəmanlıq
Rəmzi kimi…
Ərənlərin ərəni kimi,
Əzizlərin
Əzizi kimi…
Həyata da göz yumaydım
Bu inamla,
Bir əbədi ehtiramla…
Görməyəydim
Vətən satan,
Torpaq satan,
Millət satan,
Bayraq
Satan,
Cəsəd satan,
Meyid satan,
Tabut satan,
Şəhid satan,
Silah satan,
Ordu satan,
Vəzifəyə
Məmləkəti
Yurdu satan,
Ana torpaq
Od tutanda,
Alışanda,
Bu sathasat yarışında,

Belimizi sındırmaqçın,
Bu torpağı yandırmaqçın
Cəlladlara benzin satan,
Mərmi satan,
Neçə-neçə qəhrəmanı,
Mərdi satan,
Ana torpaq od tutanda,
Alışanda,
Bu sathasat yarışında,
Şəhidlərin məzarına
Qoyulan gülləri
Satan…
Mebel satan, ev satan,
Zirzəmi satan,
Balkon satan, qaraj satan,
Kitab satan, tiraj satan,
Cirə satan, şirə satan,
Şəkər satan,
Kəmər satan,
Duxu satan,
güzgü satan,
daraq satan,
Dükan edib mənzilinin
Yarısını,
Satıcı qoyub arvadını,
Baldızını,
Tursik satan, lifçik satan,
Ya nimdaş
Darbalaq
Satan…
Bu qeyrətsiz murdarları
Görməyəydim,
Kaş bu yaşa girməyəydim…
Qəlbimdəki ən müqəddəs
İnamlarım ölməyəydi…

## Qanlı xəlbir

Dava gedir neçə ildir,
Kəsilib elin kələyi…
Dava qanlı bir xəlbirdir,
Bütün milləti ələyir…
Ələyir bir-bir ədəyir,
Ədində xəlbir ələyi…
Ayırır bədəndən qolu,
Baş bir yana, leş bir yana,

Məmləkət şəhidlə dolu,
Məmləkət satqınla dolu,
On bir yana, beş bir yana,
Yüz bir yana, min bir yana…
Torpaqlar boyanıb qana,
Yanan yurd-yuvalar küldür…
Toplar,mərmilər mələyir,
Dava nəhəng bir xəlbirdir,
Hər nə var seçir, ələyir…
Ayırır o tükü tükdən,
Dava hünər imtahanı…
Seçir xırdanı böyükdən
Seçir yaxşını yamanı…
Əlində xəlbir ədəyi,
Bütün hər nə var ədəyir…
O çox üzü vönükdəri,
Çox kədəkləri ayırır…
O safları, çürükdəri,
O kənəkləri ayırır…
Keçirir xəlbir gözündən,
Heç nə qaçmayır gözündən.
Həsrətin,dərdin əlindən,
Qocalır cavan gədindər,
Analar tabut bələyir…
Davanın xəlbir ələyi,
Mərdi qorxaqdan ayırır,
Kütləni xalqdan ayırır…
Vurhavur, öldürə-öldür,
Dava gedir neçə ildir…
İlkin igid oğullara,
Dəyir onun zərbələri…
Namərdlərə, oğrulara,
Satqınlara sərf eləyir…
Davanın zərəri saysız,
Dəhşəti, kədəri saysız…
Amma bir xeyri var bizə,
Çoxsa da dərdi, mələlı…
Pisləri çıxarır üzə,
Xalqın ancan safı qalır…
Dava gedir neçə ildir,
Kəsilib elin kələyi…
Dava qanlı bir xəlbirdir,
Bütün milləti ələyir…

**Haray, məmləkətim**

Nə toya,nə yasa gedə bilirəm,
Axı,necə gedim,yas içinjəyəm…

Çoxları inciyirmənjən bilirəm
Axı,necə edim-yas içindəyəm…

Meydan yarışında yordular məni,
Milli məclislərdə qırdılar məni,
Öz satqınlarımız vurdular məni,
Əyildi qamətim-yas içindəyəm…

Bu ana torpağın yarı tapdanıb,
Ayaqlar altında qalır, tapdanır,
Analar namusu, arı tapdanır,
Tapdanır qeyrətim-yas içindəyəm…

Nə vaxt ki,qəhrəman Şuşa satıldı,
Laçının torpağı, daşı satıldı,
Füzuli, Cəbrayıl qoşa satıldı,
Xar oldu millətim-yas içindəyəm…

Bütün hədəflərə nişan olmuşam,
Bütün qradlara nişan olmuşam,
Bütün şəhidlərlə bir vurulmuşam,
Sınıb qol-qanadım-yas içindəyəm…

Çoxdan tükənmişəm, bir görənimyox,
Məni son mənzilə ötürənim yox,
Ölmüşəm heç yerdən götürənim yox,
Kəsilib taqətim-yas içindəyəm…

Ta eli-obası talan şairəm,
Evinə vəhşilər dolan şairəm,
Ulu Qarabağsız yalan şairəm,
Haray, məmləkəeim-yas içindəyəm…

1994

**Alım Qadanı**

Yırtıldı bütüt pərdələr,
Hamının üzü açıldı…
Göründü mərdlər,namərdlər,
Qəlblərin pası açıldı.

Bir sürü satqın, avara,
Torpağı qoydu qumara,
Qaldıq naəlac, biçarə,
Bünövrə, özül uçuldu…

Hardadır ərlər-ərənlər,

Namusumuz yad əlində,
Şuşanın adı gələndə,
Yaramın közü açıldı…

Evimə cəlladlar doldu,
Külüm göylərə sovruldu,
Tikanın pisi açıldı…

Millətim, alım qadanı,
Yetər dost-düşməni tanı,
Nəhayət töküldü qanın,
Nəhayət gözün açıldı…

1994

**Bir Nisgilli Elim Qalır**

Ömrün günün cəfasından,
Odum keçib,külüm qalıb…
Ləzzətindən, səfasından,
Mənə ancaq zülm qalıb…

Zəmanənin əskiyiyəm,
İtib-batan səs kimiyəm,
Boşalmış qəfəs kimiyəm,
Tək zahirəm, çölüm qalıb…

Yığılıb, yoldadır köçüm,
Sızlayıram için-için,
Tükənib qüvvətim, gücüm,
Ruhum uçub,dilim qalıb…

Fələk hey başımdan dönür,
Ümidlərim düyün-düyün.
Hər şey gördüm,görmədiyim,
Bircə elə ölüm qalıb…

Dolaşır arxamca əsəl,
Səhər, axşam, gündüz,gecə.
Dünyadan bəs gedim necə,
Bir nisgilli elim qalır.

1993.

**Ağılar…**

Nə evdə dözürəm yalqız,
Nə çölə çıxa bilirəm…
Nə də xəcalətdən xalqın,
Üzünə baxa bilirəm…

Başım köksümdə gəzirəm,
Özüm özümü danıram.
Nə düşmən qırıb əzirəm,
Nə şəhid olub yanıram…

Əlim kəsir öz əlimi,
Gör nə nankoram, düşüyəm…
Say-hesabsız qız-gəlini,
Yad əldə qalan kişiyəm…

Sökürlər harınlar məni,
Bütün aləm baxa-baxa…
Güclə aparırlar məni,
Öz özümü qorumağa…

Ocağı keçən kösövəm,
Cəsədi yanan bədənəm…
Nə millət kimi bütövəm,
Nə vətən kimi vətənəm…

Ayırın, ətdən ətimi,
Bəlkə bu yurda yarıyam…
Xalqın bu fəlakətinin,
Məndə bir günahkarıyam…

Tez silah verin? Götürün,
Yatan baxtım oyan görək…
Bu qeyrətsizlik kirini,
Qanım ilə yuyam gərək…

1993.

**Nədir Bu Millətin Günahı, Allah…**

Göyləri odlayır analar ahı…
Allahda götürməz bu ahı, Allah…
Nə pis işimiz var dərgahında ki,
Nədir bu millətin günahı, Allah?

Kimin toyuğuna daş atıb görən,
Kimin arzusunun əksinə gedib?
Nə yaxşılıq edib özgələrinə,
Nə yamanlıq edib özünə edib…

Heç vaxt yumayeb o qanı qanla,
Hətta bağışdayıb düşməni, yadı…
O hətta dil tapıb qonşu ilanla,
Qonşu canavarla yan-yana yatıb…

Nə qədər zərbələr dəyib bu xalqa,
Daim göylərini tutub duman, çən…
Ona, gör, nə cüzi dost,kömək,arxa,
Ona,gör,nə qədər düşmən vermisən…

Sən, axı,ədalət rəmzisən ulu,
Niyə dinməmisən,ey pərvərdigar?
Gözün baxa-baxa qırıblar onu,
Gözün baxa-baxa parçalayıblar…

Elə laqeyid-laquyid durub baxmısan,
Bütün dərdlərinə, bəlalarına…
Niyə tökməmisən göydən od, boran,
Əmr verməmisən dolularına?!

Cəzə verməmisən günahkarlara,-
Onların yurdunu kor qoymamısan?!
O qan içənləri çəkdirib dara,
Ya da diri-diri soydurmamısan?!.

Hər şeyi görənsən sən,axı,allah,
Göstər gz gücünü,ədalətini…
Nədir bu millətin günahı allah,
Onun insanlığı qəbahətimi?

Sən gzün bu cürə yaratdın onu,
Sadədil,xeyirxah,nəcib,mülayim…
Kim dəyişə bilər xasiyyətini,
Bircə səndən özgə, səndən savayı…

Ona nə vermisən özün vermisən,
Bir yandan alınmaz dağlar,qalalar,
Bir yandan sən ona dözüm vermisən,
Bir yandan dözülməz dərdlər,bəlalar…

Sən həm Nizamilər vermisən ona,
Peyğəmbər əvəzi,Allah əvəzi…
Həmdə ki, canilər vermisən ona,
Doğma millətinin başını kəsib…

Sən qoç Koroğlular vermisən ona,
Babəklər,Nəbilər-neçə igid ər.
Bir yandan oğrular vermisən ona,

Satqınlar mermisən düşməndən betər…

Qanına ğəlkə də yad qan qatılıb,
Bəlkə kimin isə kələyi varmış…
Bu doğma analı,doğma atalı,
Millətin nə qədər ögeyi varmış…

Sənsən xəlq eləyən bu göyü,yeri,
Bəşəri sən doğub, əkmisən, Allah…
Yoxsa içimizə şərəfsizləri,
Göydən paraşütlə tökmüsən, allah…

Sənin ki,ürəüin,axı,dar deyil,
Barı dar məqamda dadımıza çat…
Düşmən gülləsindən ölmək ar deyil,
Ən çox gülləmizdən ölürük heyhat…

Ta,sənə qalıbdır son ümid, güman,
Ödürük,batırıq,yanırıq,allah…
Bizə bu gündə də arxa durmasan,
Daha allahı da danarıq, allah…

## Azərbaycan Dərdi

Bu gün bircə dərdimiz var-Vətən dərdi…
Hamımızı oda yaxar-Vətən dərdi…
Dava gedir torpağımda,
Şəhid olur yurdumuzun yüz-yüz mərdi,
Vətən dərdi qabağında
Əfsanədi çörək dərdi,yemək dərdi,gödən dərdi…
Bu gün bircə dərdimiz var- Vətən dərdi…
Qarı düşmən dizimizi qatlayıbdır,
Bütün namus-arımızı tapdayıbdır,
Yurdumuzun yarısını bərbad edib,
Əsir qalmış el-obalar fəryad edir…
Anaların ahı tutub yeri-göyü,
Dərd adamı birləşdirir amma niyə,
Niyə bizi ayrı salıb Vətən vərdi?...
Vətən dərdi olan vaxtı
Parçalanmaq çətin dərddi…
Özümüzdən özgə bizə kömək yoxdur…
Birləşməsək,millətimiz demək yoxdur…
Demək,onda tayfalarıq,dəstələrik,
Bununçun yağı bizi üstələyir,
Belimizi qırıb,əyib
Dərd adamı birləşdirir, amma niyə
Vəlimiz bir yanqa çəkir,
Əlimiz bir yana çəkir,

Başımız bir yana çəkir,
Əlimiz bir yana çəkir,
Dirimiz bir yana çəkir,
Ölümüz bir yana çəkir…
Yurdumuzda dava gedir,
Məmləkətin çevrilibdir altı üstə,
Bu ki, milli faciədir,
Bizsə dava-dalaşdayıq rütbə üstə,
Stol üstə, altun üstə…
Ən müqəddəs yerlərimiz
Çıxıb bu gün əlimizdən,
Bizsə dava-dalaşdayıq
Cılız yerlibazlıq üstə…
Qurumlar var,dəstələr var neçə adda,
Hərənin də öz cəbhəsi,əsl cəbhə çıxıb yaddan…
Allah, özün xilas elə, millətimi
Belə şərdən….
Kim olsaydı, vallah, çoxdan birləhərdi…
Birləşdi qanlı – bıçaq olanlar da,
Lap ağlarda, qaralar da birləşərdi,
Birləşməyən yaralarda birdəşərdi…
Ola bilməz ana yurdum yad əllərdə
Zindan,qəfəs…
Vətən dərdi qabağında qalan dərdlər,
Cəfəng,əbəs…
Vətən dərdi-yaman dərddir,
Vətən dərdi qabağında qalan dərdlər
Yalan dərddir…
Vətən dərdi qabağında nə ev dərdi,
Nə mal dərdi,
Nə can dərdi…
Bu gün bircə dərdimiz var-
O da AZƏRBAYCAN
DƏRDİ…

## Yarış Var Ha, Yarış Var…

Çimir məmləkətimiz,
Bir amansız yarışda…
Yarışdır gecə-gündüz
Xalq adından danışmaq…
Qalxıb bütün pərdələr,
Ayılıbdır yatanlar…
Ən birinci yerdədir,
Vicdan, məslək satanlar…
Şuşa, bizi bağışla,
Qiymətin nə ucuzmuş…
Səni qanlı yarışda,

Necə asan uduzduq…
Nə bir güllə atıldı,
Getdin dava-şavasız…
Beş qəpiyə satıldı,
Qəhrəmanlar yuvası…
Laçın, Ağdam düşmənə,
Bağışlandı heç nədən…
Gəlginən ay müştəri,
Vətən satmaq müftədir…
Tez gəl, o da tükənir,
Ta onda can qalmayıb…
O əvvəlki Vətənim
Azərbaycan qalmayıb…
Hamı yeyib sökəndi,
Hamı dəllal, müştəri…
Zirzəmilər dükandır,
Gəlginən, ay müştəri…
Qeyrət satır oğullar,
Yolda, küçədə , tində…
At oynadır yağılar
Evimizin içində…
Meydanlar da bu nəhəng
Yarışın baş meydanı…
Orda gedir böyük cəng,
Orda dəllal mədəni…
Hamı döyür döşünə,
Hamı mələk donunda…
Can qoyurlar «kişilər»,
Mənsəb, şöhrət yolunda…
Millət deyib özünə
Xidmət edir vəkillər…
Millət qulluq, vəzifə…
Millət dərdi çəkənlər.
Tapmayır paltar, çörək,
Yurdunda əsir, yesir…
Millət yolunda ölmək,
Kasıbın vəzifəsi…
Millətin əri, mərdi,
Torpaqlara qarışıb,
Şəhidlər gündə artır,
Qəbiristanlar yarışır…
Evimizə girdilər,
Top-tüfəngsiz, a kişi,
Başlandı öz yurdunu,
Qoyub qaçmaq yürüşü…
Qızını, arvadını,
Yada qoydu kişilər…
Namusunu, adını,
Karta qoydu kişilər…

Namərd durub acığa,
Namərd ilə yarışır…
Faciəylə faciə,
Dərd dərd ilə yarışır…
Yarışır anaların,
Naləsi gecə-gündüz.
Ağlamaqdır onların,
Çarəsi gecə-gündüz.
Bir də Məkkə yarışı,
Dəbə düşübdür yaman,
Dinli-dinsiz danışır
Peyğəmbərdən, Qurandan.
Ölüm-ölüm sözüdür,
Sualların ən başı.
Sualların özü də,
Bir-biriylə yarışır.
Doğacaq üzümüzə,
Günəş haçan görəsən?!
Allah, sabah bizimlə,
Nə olacaq, görəsən?
İanə gəlir bizə,
Dünyanın çox yerindən,
Millətin fikri, gözü,
Onun-bunun əlində…
Təyyarələr, maşınlar,
Ərzaq, dərman gətirir.
Əl açmaq yarışında,
Ön sırada gedirik…
Dağda, daşda qalanlar
Məhv olacaq, qoymayın?
Yaşayırlar ilanla,
Əqrəb ilə qol-boyun.
Azar-bezar qudurub,
Xilas yalnız ölümdə.
Kim tez getsə qurtulur
İşgəncədən, zülümdən.
Yayda su, qışda şaxta,
Çivin, milçək, qarışqa…
Nəinki yaşamaqda,
Ölməkdə də yarış var…
Həyat qalıb kölgədə,
Yaxşı, yaman bilinmir…
Yarış gedir ölkədə,
Hələ sonu görünmür…

1993

Vətəni qorudun, sənindir,
Qorumadın,özgənindir…
Qorumadın,yağınındır,
Qorumadın, axırındır…

Vətəni qorudun,sənindir,
O bayraq tutan əlindir,
O qılınc tutan qolundur,
Ömrün,əqidən yolundur…

Vətəni qorudun, sənindir,
Yoxsa gədə-güdənindir,
Yoxsa başsız sürünündür,
Bir ovuc sağ ölünündür…
Vətəni qorudun,sənindir,
Allahın,peyğəmbərindir,
Anan,arvadın,balandır,
O indi talan-talandır…

Vətəni qorudun,sənindir,
O tay-bu tay ünüdür,
İki ağlayan gözündür,
Dərbəndindir,Təbrizindir…

Vətəni qorudun,sənindir,
O sənin ölün-dirindir,
Qorumadın,yada ovdur,
Yarısı indi girovdur…

Vətəni qorudun,sənindir,
Qorumadın,kəfənindir,
Qorumadın,qubarındır,
Murdarlaşmış məzarındır…

1995.

**Arasında**

Ta nə ömrün ləzzəti, nə ölümün xofu var,
Ta nə səbrin taqəti, nə ürəyin tabı var,
Çırpınırıq bu iki bəlanın arasında,
Fərq qalmayıb gedənlə qalanın arasında…
Gündüzlər çıraq götür hər yanı ara, axtar,
Bir-birindən seçilmiş daha ölülər, sağlar…
Biri elə ölüdür, biri belə ölüdür,
Canı oldu-olmadı, ölü elə ölüdür.
Birisi ön cəbhədə qeyrət uğrunda ölür,
Biri arxa cəbhədə rüşvət uğrunda ölür…

Birisinin ölümü satqınlıqdan başlanır,
Birinə laqeydliyin gülləri tuşlanır…
Bu rayonlu ölüsü, o şəhərli ölüsü,
Biri rütbə ölüsü, biri yerli ölüsü…
Şuşa sarın əlində, Laçın sarın əlində,
Qarabağ gəlinləri yağıların əlində,
Bizim xanəndələrin toy-mağarda çoxusu,
Sövq ilə «Qarabağın mahalı»nı oxuyur…
Nə qadını əriyir, nə kişisi ar edir,
Yasda oxusaydılar yenə də dərd yarıydı…
Radiomuz oxuyur, mavi ekran oxuyur…
Sanki yad toxum bitib soyumuz arasında,
Fərq yoxdu yasımızla toyumuz arasında…
Yaşamaq ümidimiz hər günü-gündən çətin,
Dünən bu gündən betər, bu gün dünəndən çətin…
Hər açan sabahımız daha miskin, pərişan,
Dərdlərimiz elə bil bir-biriylə yarışır…
Çarpışırıq inamla şübhənin arasında,
Vuruşuruq bu iki cəbhənin arasında…
Hər nə bəla gəlirsə, dözürük, tab edirik,
Düşmən toxunmayanı özümüz məhv edirik…
Çöl də düşməndi, Allah, içdə düşməndi, Allah,
Sən dostu düşmənindən seç, ayır indi, Allah…
Namərdlər hər gün artır, igidlər, ərlər itir,
Bütün meyarlar itir, bütün dəyərlər itir…
Qalmışıq qorxaqlıqla cəsarət arasında,
Fərq yoxdu hürriyyətlə əsarət arasında…
Xalqın altında biri çöllərin sakinidir,
Bir də nə bayır, nə ev, ev də bayır kimidir…
İtmişik vətən ilə qürbətin arasında,
Fərq qalmayıb kütləyə millətin arasında…
Fərq qalmayıb insanla sürünün arasında,
Can çəkirik həyatla ölümün arasında…

1995

## Gördüm…

Yaxşı ki, yırtıldı bütün pərdələr,
Yaxşı ki, çoxunun içini gördüm…
Bilindi büsbütün namərdlər, mərdlər,
Dostların düzünü, bicini gördüm…

Zəmanə sınağa çəkdi adamı,
Pulla dəyərləri oğul atanı.
Dollar hüzurunda diz çökdü hamı,
Mən o əjdahanın gücünü gördüm…

Tamam əqidədən, inamdan dönən,
Amaldan, məsləkdən, məramdan dönən.
Bir gündə çoxillik imandan dönən,
Yüz cür tülkisifət hacını gördüm…

Aldı üstümüzü qəfildən yağı,
Yandı, külə döndü vətən torpağı,
Qadınlar başında kişi papağı,
Kişilər başında ləçəyi gördüm.

Əyrinin də «düzü» var imiş, demə,
Bir üzün min üzü var imiş, demə,
Pisin də ən pisi var imiş demə,
Hətta ən puçun da puçunu gördüm…

Necə ucuzlaşdı sevgi, məhəbbət,
Düşdü ayaqlara o boyda sərvət,
Aradım cavanlar içində heyhat,
Nə Leyli, nə də ki, Məcnunu gördüm…

Əsl vuruş gedir yaşamaq üçün,
Ölüyə ağlama, ağla sağ üçün,
Həyata gəlirik yox olmaq üçün,
Nə qədər ömürün köçünü gördüm…

Sanki yuxudaydım, birdən ayıldım,
Yaxşını yamandan seçdim, ayırdım.
İnsanı hamıdan uca sayırdım,
İnsanmış hamıdan kiçiyi gördüm…

1995

## Yurduna ağlayan ana

Soyuq çadıra sığınıb,
Dizin qucaqlayan ana…
Unudub şəhid oğlunu,
Vətənə ağlayan ana…

Bilirəm yadlar əlində
Əsirdir elin, mahalın…
Deyirsən:-məni öləndə
Qəbiristanımıza aparın…

O yerdədir, ağrın alım,
Köküm, əqrəbam, nəslim.
Qovun qanlı yağıları
Məni o yerdə basdırın…

O yerlərsiz mən nəçiyəm,
O yerlərsiz nə qiymətim…
Ölməsəydi bircəciyim,
Çin olardı vəsiyyətim…

El dərdidir mənim dərdim,
Vətənsizəm, ağrın alım…
Kişim ölüb o yerlərdə
Gedim qəbrini axtarım…

Tale bizə gör nə yazıb,
Taleyə asısan ana…
Vətən analar anası,
Ana balasısan, ana…

Hamımız məhkum ölümə,
Vətən sağ olmayan yerdə…
Biz kimə gərəyik, kimə,
Bu torpaq olmayan yerdə…

Elə həsrətlə danışdın,
Allahlaşdın nəzərimdə…
Sən ətəyimdən yapışdın,
Mən əyildim hüzurunda…

Dünyada mənə hələ sən,
Vətənsiz bir insan göstər…
Oğul dərdinə dözərlər,
Vətən dərdinə dözməzlər…

1995

**Dəli kimi bayılmağım gəlir hərdən…**

Dava gedir məmləkətdə, qanlı dava,
Dava ilə nəfəs alır bu el, oba.
Dava ilə ötürürük ili, ayı,
Şəhidlərin yüzmü sayı, minmi sayı,
İtkinlərin itirmişik hesabını,
İtirmişik ömrümüzün nizamını,
Azərbaycan neçə yerdən alıb yara,
Torpaqları tikə-tikə, para-para…
Neçə oba, neçə oymaq çıxıb əldən
Dəli kimi bayılmağım gəlir hərdən…
Qan qardaşım, dözmək daha olmaz buna,
Gərəkdir ki, canımızın bahasına,
Vəhşilərdən təmizləyək bu vətəni,

Düşmən quldur, düşmən alçaq, düşmən dəli,
O susuyub xalqımıza nəsil-nəsil,
Uşaqların başlarını daldan kəsir,
Qız-gəlini dirigözlü oda atır.
Cavanların cəsədindən ocaq satır
Qisas alır bacımızdan, anamızdan,
Kasa-kasa içsə, doymaz qanımızdan…
Dava gedir məmləkətdə, qanlıə dava,
Dava gedir, buna ürək dözmür daha.
Hamımızın tarımdadır əsəbləri.
İki yaşlı Təbriz nəvəm qəzəblənir,
«Əsgər marşı» deyə-deyə fəğan edir,
Neçə ildir ana yurdum tuğyan edir,
Belə qorunc, belə ağır, çətin gündə,
Dava gedir evimizin içində də,
Vəzi kəslər yurdu yağlı tikə sayır,
Bilə-bilə neçə yerə parçalayır…
Ayırırlar küçələrə, dalanlara,
Ləbbey deyir, urra deyir qalanları…
Ən dəhşətli dava budur, zülm budur,
Bu, erməni fitnəsindən qorxuludur…
Hər biri də öz-özünə yığır dəstə,
Didişirlər mənsəb üstə, stol üstə,
Neçə-neçə xain, xəbis ifşa olur,
Təzələri zühür edir, peyda olur…
Boşboğazlar kürsülərdə döyür döşə,
Yerlibazlıq, mənəmbazlıq düşüb işə…
Gör nə qədər vəkili var bir millətin,
İçimizdə gedən dava daha çətin,
Əsr-əsr geri qoyub bizi heyhat…
Öz gülləmiz daha iti , daha sərrast,
Daha güclü, daha yönlü, daha dəqiq,
Nə bir dərman, nə bir loğman, nə bir həkim,
Sağaltmayıb bu güllənin yarasını,
Bu gülləylə ata vurub balasını,
Bu gülləni satqın atıb millətinə,
Nə deyəsən beləsinin qeyrətinə…
Ta az qalıb, qələbənin havasını,
Hiss edirik çətin yollar keçə-keçə…
«Bizimkilər» barı ara davasını,
Saxlasınlar əsl dava bitənəcən…

**Nə gündəydi, indi qalıb nə günə…**

Nə gündəydi, indi qalıb nə günə,
Gözdən düşüb gözdə olan-bu millət.
Yas günündə toy eyləyir özünə,
Toy günündə yasda olur-bu millət.

Vətən yanır heç pozmayır keyfini,
Xidmət edir öz nəfsinə, cibinə,
Düşüb zülmət bir quyunun dibinə,
Zaman-zaman üzdə olan-bu millət.

Başlanıbdır soy qırımı, ölümü,
Nə biləsən, bəlkə məhşər günüdür,
Neçə yerə parçalanıb, bölünüb,
Neçə-neçə dəstə olub-bu millət…

Top-tüfəngsiz yada verdi Şuşanı,
Bir hay ilə yurdun yarı boşalıb.
Niyə belə laqeyd olub korlaşıb,
Dönməz olan, həssas olan-bu millət…

Elə bil ki, buxovlanıb əlləri,
Sökür onu beş-on quduz erməni,
Savaşda da asta-asta tərpənir,
Hər bir işdə asta olan-bu millət…

Fərsizləşib fərsizlərin əlində,
Yaraları dərindədir, dərində.
Nə zamandır bu dünyanın dilində,
Biq kədərli dastan olub-bu millət…

Atam oğlu,tulla qara eynəyi,
Bax,gör,al qan içindədir köynəyin.
Düşmən ilə dava-dava oynayır,
Nəslən şiri-aslan olan-bu millət…

1993

**Gedir**

Tək QARABAĞ getmir əldən,
Xalq,millət də əldən gedir…
Tək yurd-ocaq getmir əldən,
Şan-şöhrət də əldən gedir…

Çapa-çapdı, sökə-sökdü,
Bata-batdı,çökə-çökdü,
İgidlik də, kişilik də,
Ləyaqət də əldən gedir…

Bir vaxt qüdrətimiz vardı,
Öz şərafətimiz vardı,
Namus, qeyrətimiz vardı,

Ta qeyrətdə əldən gedir.

Məsləklər düşüb talana,
Doğru oxşayır yalana,
Ta nə yazan, nə yaradan,
Söz,sənətdə əldən gedir…

Gör kim gəzir oylağında,
Sinəm odlar qaynağında,
Şuşam yadlar caynağında,
Nə müddətdir əldən gedib…

Bu sahibsiz vilayətdə,
Bütün əllər cinayətdə,
Həqiqət də, təriqət də,
Məhəbbət də əldən gedir…

1993.

## Sən Ey Millət Qəhrəmanı

Millətin ağır günündə
A millətin nankor oğlu,
Ad gününü keçirirsən yalan, doğru…
İllər ilə vətən, millət deyə-deyə,
Bərk sinənə döyə-döyə,
And içirdin dözərəm hər zülmə mən,
Xalq yolunda gedərəm lap ölümə mən…
Dar günüdür elin indi,
Hələ söylə görüm indi,
Bəs nədəndir ayrı dona bürünürsən?
Bəs nədəndir xalq öldükcə dirilirsən?
Bəs görmürsən bu məmləkət oda girir,
Oddan çıxır,
Lap az qala öz adımız üaddan çıxıb
Qara günlü bu milləti bəs görmürsən?
Bu cür qanlı fəlakəti bəs görmürsən?
Ər oğullar keçir alov, od içindən,
Yaşayırıq yüz-yüz itmiş ad içində…
Fəryadımız düzdən keçir, dağa çıxır,
Hətta bizə yad adamlar arxa çıxır,
Dünyanın çox ölkəsindən hayımıza
Hay verirlər,
Ac-yalavac Afrikadan hətta bizə
Pay verirlər.
Belə gündə hansı üzlə, hansı haqla,
Ad gününü keçirirsən təm-təraqla?
Əsl oğul yaşayacaq adlı, adsız,

Belə yerdə deyirlər ki, adın batsın…

**Üç Yaşlı Əsgər…**

Yuxudan qalxdı o dəm,
Tüfənginin doldurur…
Hər gün balaca nəvəm,
Düşmən qırır, öldürür…

Geyir əsgər libası,
Qoyur əsgər papağı…
Durur farağat, hazır,
Əsl əsgər sayağı…

Girir qanlı döyüşə,
Səngərlələ atılır…
Salır silahı işə,
Parta-partla atır o…

Yığır nə gülləsi var
Beşiyinin başına…
Elə tez-tez, dalbadal
Yağı vurur, aşırır…

Yaşlı görsə yat deyir,
Tüfəngini əyləyir…
Analara atmayır,
Uşaqlara dəyməyir…

Birdən var səsi ilə,-
Ura… deyir ucadan…
Keçir qələbə ilə
Şuşadan, Xocalıdan…

Keçir bu körpə əsgər,
Keçir Murov dağından…
Azad olub kəlbəcər
Faşistlər tapdağından…

Gedir yuxuya azmaz
Gecənin bir çağında…
Yatır əynində libas
Avtomat qucağında…

Vuruşur balaca ər
Yaşlıların yerinə…
Vuruş, bəlkə böyüklər
Baxıb sənə ərinə…

Sənə baxıb utana,
Xiffət edib ölənlər…
Vəzifəyə, altuna
Qulluq edən kölələr…

Vuruş, körpə qoçağım,
Əvvəl-axır balası,
Nəinki Qarabağı,
Gərəkdir qan yuvası
Yerevanı alasan…

**Vəzifə bu xalqa qənim kəsilib…**

Bu millət vəzifə dəlisi imiş,
Şan-şöhrət «ölüsü», «rütbə» düşgünü.
Vəzifə çoxunun mərəzi imiş,
Həmi «qara» günü, həmi «xoş» günü…

Çoxunun «ilk eşqi», «ilk məhəbbəti»,
«İlk əhdi», «ilqarı» imişsən, demə.
Həmi «səadət», həmi «möhnəti»,
Həyat edalı imişsən, demə.

Müdir stolundan tutur ölüncə,
Ayrı şey gözündə puçmuş, yalanmış…
Nə vətən, nə torpaq bu millət öncə
Vəzifə uğrunda həlak olanmış…

Hamı uşaqlıqdan keçir bu dərsi,
Tək ona bağlayır arzularını.
Sən ona rütbə ver, o sənə versin,
Hətta qeyrətini, namusunu, arını…

Nə vicdan, nə məslək, nə zəka, əməl
Tək ona qul olur, rəğbət bəsləyir.
Sən ona rütbə ver, satsın əlbəəl,
Bütün ululları, müqəddəsləri…

Hamı candan keçir vəzifə tutsun,
Rütbə stolları yamaq-yamaqdır…
O kütlə gözündə Allahdan üstün,
İmandan qabaqdır, dindən qabaqdır…

Cavan da, qoca da sevir tacı-taxt,
Gəda da istəyir şah ola hətta…
Dava da qurtarar-qurtarmaz heç vaxt,
Vəzifə davası bu məmləkətdə…

Dostunu vəzifə başında tanı,
O açır hamının əsl üzünü…
Bu yolda çox qırıb insan-insanı,
Qanlar axıdılır, başlar kəsilir…

Hamının qarnının ağrısı birdir,
Vəzifə bu xalqa qənim kəsilib…
Onunçün yerinə yetirə bilmir,
Bu millət millətlik vəzifəsini…

**Yaşayır…**

Vüsalda hicran yaşayır,
Qocada cavan yaşayır…
Heyvanda insan yaşayır,
İnsanda heyvan yaşayır…

Qarışıbdır dama-dama,
Qəm sevincə, sevinc qəmə.
İlan zəhərində demə,
Ən nadir dərman yaşayır…

Ağ var telin qarasında,
Bal var dilin arasında,
Dirilərin arasında
Yüz-yüz ölü can yaşayır…

Haçan ki, yaxşını daddım,
Pisi ürəyimdən atdım.
Çox-çox sirlər, çox-çox adda
Sinəmdə pünhan yaşayır…

Sevgisiz ömür dumanda,
Eşqədir bütün imanlar.
Məhəbbətlə göz yumanlar
Allah ilə tən yaşayır…

Bəşər yaranandan bəri,
Nəsil gedir, nəsil gəlir,
Oğlumda atam göyərir,
Nəvəmdə babam yaşayır…

Xatırlanırlar daima
El yolunda fədailər.
Özü gedib Xətainin
Qılıncında qan yaşayır…

Yoruldum yalan yeməkdən,
Baş açmadım çox kələkdən,
Bu dünyada hər məsləkdə,
Hər dində adam yaşayır.

Nələr etməyir insanlar,
Uçur başlar, axır qanlar.
Görürsən bir cılız canda
Yekə aziman yaşayır…

Ağlım bir şey kəsən gündən,
Dərd daşıdım kürəyimdə.
Yumruq boyda ürəyimdə
Sonsuz asiman yaşayır…

1995

**Dəbə düşüb…**

Xalqı sevmək indi yaman
Dəbə düşüb,
Xalqım deyir təhə lotu,
Köhnə, düşük…
Ağızları köpüklənir
Danışanda,
Timsah kimi yaş tökürlər
Gildir, gildir,
Ən çox xalqı satanlardır ən çox
Xalqdan danışanlar,
Yazıq xalq da sadəlövhdür,
Sadədildir,
Yazıq xalq da inanandır,
Yazıq xalq da taleyilə
Əl-amanda…
Yazıq xalq da olub rəzil,
Batıb qana…
Heç oğul da anasına yaltaqlanar?..
Əsl oğul öz xalqına
Fəda olar,
Belələri danışanda qəzəb,
Nifrət boğur məni…
Yaltaq adam satqın olur,
Gəda olur…
Belə milli həpəndlərə
Məsləhətim
Budur mənim…
Əvvəl onlar öz qanını
Təmizləsin,

Vicdanları varsa əgər
Vicdanını
Təmizləsin…
Əsl xidmət budur xalqa,
Məmləkətə,
Başı min bir bəla çəkən
Bu millətə…

1994

**Danışarsan**

Təbrizim, ömrüm, adım,
Sən məni yaşadırsan…
Mən çoxdan susmalıydım,
Əgərçi yaşa dursa…

Sən dadına çatansan,
Sən əlimdən tutansan,
Sən anamsan, atamsan,
Bacımsan, qardaşımsan…

Biz əl-ələ gəzəndə,
Biz səninlə gəzəndə,
Mən sənə, Təbriz, sən də
Babana yaraşırsan…

Sən mənim özüm, eynim,
Əsl möcüzəm, sehrim,
Mənim körpəlik dövrüm,
Mənim gənclik yaşımsan…

Mən susanda bir günü,
Yaşayarsan ömrümü,
Babanın kimliyini,
Xalqına danışarsan…

1994

**Xalq**

Taci-taxt axtaranlar kəslər əlində,
Daim bir hədəfdi, bir nişandı- XALQ…
Yurdun dar günündə, ağır inində
Çarpışan da xalqdır, əlləşən də –XALQ…

Özgə heç onu saya alan yox,

Nə bir itirən, yox, nə axtaran yox,
Heç böyük balası şəhid olar, yox,
Şəhid olan da XALQ, döyüşəndə-XALQ…

Düşmən qabağında o sədə dönər,
Vicdana, namusa, qeyrətə dönər,
Əlüstü sayılar, hörmətə minər,
Bir savaş düşəndə, qan düşəndə-XALQ…

Yalançı başçılar, vəkillər onu,
İlan tək çox dəmə çəkiblər onu,
Xalqım deyə-deyə söküblər onu,
Aldanan da XALQDIR, xam düşən də-XALQ…

Əsrlər dəyişir, o durur yenə,
O öz kimliyini qoruyur yenə,
Uca ola-ola aşağı yerə,
Layiq olan da-XALQ, əyləşən də-XALQ…

Bütün ulların odur ulusu,
İgid Babəki var, qoç Koroğlusu,
XALQ kimdir, millətin dilsin yavrusu,
Əl-ayaqsız da XALQ, möhtəşəm də XALQ…

Nə şöhrət tanıyar, nə ad, nə mənsəb,
Məhv olar, o qara kütləyə dönsə,
Pərən-pərən olmuş sürüyə bənzər,
Özü ilə çəkişib-didişəndə-XALQ…

Nifrəti üzdədir, eşqi dərində,
Zəhər bir əlində, bal bir əlində,
Mərdlik hifs eyləyir qəm-kədərində,
Faciə yaşadır gülüşündə-XALQ…

Ona bu dünyada tay ola bilməz,
Qılıncı olmasa sayıla bilməz,
Önündə bir qüvvə dayana bilməz,
Əl-ələ verəndə, bğirləşəndə-XALQ…

## Hərə özünü düşünür…

Xalqını düşünən hanı,
Hərə özünü düşünür,
Arvadını, uşağını,
Oğul-qızını düşünür…

Hərə qalır öz gününə,
İşıq salır öz gününə,

Hər öz toy-düyününü,
Hərə yasını düşünür…

Allah dadımıza yetsin.
Məhv olarıq belə getsə,
Kim kimə yaxşılıq etsə,
Tez əvəzini düşünür…

O nadanın bax içinə,
Adam olub pul gücünə,
Aləm batsa nə vecinə,
O özgəsini düşünər?..

Tayfalara bölünürük,
Ayaqlarda sürünürük,
Niyə miskin görünürük,
Bir yol siz bunu düşünün…

Yad vaya vay verən kimdir,
Kasıba pay verən kimdir,
Qonşuya hay verən kimdir,
Hamı tərsini düşünür…

Hərə öz-özünə darğa,
Hərə öz-özünə «arxa»,
Bununçün yarımçıq xalqıq,
Gəlin düzünü düşünək…

1993

**Aman Allah, mənə qiymət verənə bax…**

Aman Allah, aman Allah,
Mənə qiymət verənə bax…
Saxla, cəfəng sözlərini
Yetər, bəsdir.
Mən bilirəm nəyim yaxşı,
Nəyim pisdir…
Düşmənimdir boşboğazlar,
Gəvəzələr…
Mən özümə özüm mizan, tərəziyəm…
Mən bilirəm öz yaxşımı, yamanımı,
Tərifimi, nöqsanımı…
Anam haqla bələyibdir bələyimi,
Məhəbbətlə doldurubdu …
Ağlım bir şey kəsən gündən,
Öz-özümü zərrəbindən keçirirəm
Gündə-gündə…

Çörəyimə haram tikə qatmamışam…
Bir günaha batmamışam…
Hey qaçmışam xeyrimdən,
Bir yad nəfəs görməzsiniz
Şerimdə…
Əlim heç vaxt batmayıbdır
Nahaq qana,
Bir insana, bir heyvana
Bir yamanlıq etməmişəm…
Əyri yola getməmişəm,
Bircə qəlbə dəyməmişəm
Beca yerə,
Mən həqiqi peyğəmbərəm…
Aman Allah, aman Allah,
Səhvlərimi görənə bax…
Bəsdir yetər, kiri, dayan,
Dayan özxüm səhvlərimi sadalayım…
Ən birinci bəlam budur
Şair doğub məni anam,
Hər bir şeyə inananam…
İnananam kim nə desə,
Təmiz sözə, kirli sözə…
Daim elə inanmışam,
Yalançılar tərəfindən talanmışam…
Aldadıbdır ən sevdiyim dostlar maəni,
İynə boyda səmimiyyət ovsunlayıb
Dərhal məni…
Dağlar boyda ümid verib mənə
Xırda bir yaxşılıq…
Bir xoş niyət, bir xoş qılıq…
Nanəciblər ürəyimə bəzən yara vursalarda,
Yenə, yenə, bir nəciblik
Aramışam insanlarda…
Oğrularda bir doğruluq,
Gədalarda bir ululuq,
Yoxsullarda bir zənginlik,
Qorxaqlarda döyüşgənlik,
Dinsizlərdə dindən nişan,
Məzlumlarda bir ehtişam,
Laqeydlərdə sevgi, nifrət,
Vəhşilərdə mədəniyyət,
Zülmətlərdə şölə, işıq,
Kifirlərdə bir yaraşıq,
Gözəllərdə ağıl, kamal,
Məhəbbətdə bir ideal,
Bir kədərə min-min şərik,
Bir baxışda bəşərlik,
İlahilik hər cür dildə,
Bəşərilik hər ölümdə,

Bir qətrədə bütöv ümman,
Aramışam, axtarmışam…
Ürəyimdə zərrə boyda bir qara yox,
Gələrdimmi bu dünyaya dübarə-yox?..
Qədəmimə gül-çiçəklər düzəldilər,
Mənim üçün gecə-gündüz gəzəydilər,
Bütün dünya yığışaydı görüşümə,
Lap heyvanlar sevinəydi gəlişimə,
Aylar boyu, illər boyu,
Pişvazıma çıxaydılar yollar boyu,
Cərgə-cərgə, dəstə-dəstə,
Bir də, bir də dünyaya üz çevirməzdim…
Mənə qiymət verənə bax,
Mənə qiymət verə bilər zaman, Allah…

1994

**Kütləyə dönmə, millətim**

Kütlənin adı kütlədi,
Kütlə xar edir milləti;
Kütlə qanmayır dost nədir,
Kütlə qanmayır yad nədir;
Kütlə çoxdankı kütlədir,
Kütləyə dönmə, millətim.
Çıxdı alimi söz deyə,
Çıxdı şairi söz deyə,
Kütlə şairi pislədi,
Kütlə onları fitlədi.
İmadəddini qətl edib,
Hadı ölümünə cəhd edib,
Böyük Sabiri rədd edib,
Kütlə çoxdankı kütlədi.
Kütləyə dönmə, millətim.
Nə beyni, nə ürəyi var,
Elə ləbbey deməyi var;
Bağırır niyə bilməyir,
Fikrini deyə bilməyir…
Yalnız kor hisslərin qulu,
Məqsədi, yolu qorxulu
Boş yerə yorur özünü,
Yoxdur məhvəri, özülü,
Çalxanır, qabarır, batır,
Büs-bütün köpükdü qatı…
İşi zorladı, güclədi,
Kütlə çoxdankı kütlədi.
Məskəni çöl, bayır, küçə,
Haqqı ayaqlayıb keçər.

Dost ola, ya ki, yad ola,
Qoyar ayağı altına.
Gözləri qandı kütlənin,
Beyni dumandı kütlənin.
Hərc-mərcliyə müttəfiq,
Kütlə çoxdankı kütlədi.
Qanmaz yaxşı, yaman oldu.
Vəhşiləşir axırda o…
Yox ağlı, gücü, qüdrəti…
Kütlələrin zamanıdır,
Yalvarıram, ağıllı ol,
Kütləyəı dönmə, millətim!

**Xilası ancaq…**

Yalnız inanıram ağlın gücünə,
Hər işdə irəli o düşə gərək..
Quruluş dəyişməklə dəyişməz heç nə,
Əvvəl təfəkkürlər dəyişə gərək…

Onsuz bütün ərzin gücünü topla,
Nə əsl ədalət, nə də haqq olmaz…
Heç bir ordu ilə, tüfənglə, topla,
Vətəni hifz edib, saxlamaq olmaz.

Amma kalımız bol, nadanımız bol,
Vicdan əzabından azadıq hələ…
Varımız, malımız, imkanımız bol,
Ağlın sərvətindən kasadıq hələ…

Hələ millət kimi yetişməmişik,
Hələ çox şeyimiz ala-yarımçıq…
İçdən bir-biriylə, bitişməmişik,
Üzdən birliyimiz ala-yarımçıq…

Etiraf edəlim olsa da çətin,
Azdı ruhumuzun ziyası hələ…
Hadi doğru deyib yox bu millətin,
Millətlər içində imzası hələ…

Güya Koroğlunun övladlarıyıq,
Amma ki, qeyrətdən yarınmamışıq…
Neçə əsrdir ki, xalq adlanırıq,
Çox-çox ölkələrdə tanınmamışıq.

Böyük zəkaları qurban edirik,
Şəxsi xeyrimizə, nəfsimizə biz…
Öz qızıl qanına qəltən edirik,

Kim yaxşıya yaxşı deyir, pisə pis…

Qurban payı kimi bölüblər bizi,
Öz kal ağlımızın qurbanlarıyıq…
Heç vaxt görməyirik öz səhvimizi,
Dünyanın talesiz insanlarıyıq…

Elə özümüzü tərifləyirik,
Özünü bəyənən ağama vay, vay?..
Tərif eşitdikcə xərifləyirik,
Təriflə evini yıxana vay, vay…

Ura dəlisiyik, şüar ustası,
Sürüylə məddahlar yazanımız var…
Elə qovruluruq yağımızdaca,
Elə qaynayırıq qazanımızda…

Daim böyüklərin kirayəsində,
Dünən onda idik, bu gün bundayıq…
Elə onun-bunun himayəsində,
Elə onun-bunun qoltuğundayıq…

İmkanım olsaydı daş qafaları,
Lap yumurta kimi döyüşdürərdim…
Yarımçıq başları, boş qafaları,
Doluları ilə dəyişdirərdim…

Zəka, kamal payıla bizlərə, Allah,
Qalan söz-söhbətlər nağıldır ancaq,
Bu xalqın ümidi, xilası vallah,
Ağıldır, Ağıldır, Ağıldır ancaq…

1992

**Dözmək olmur daha**

Bu gəlir aldadır xalqı,
O gəlir aldadır xalqı…
Gör nə yaman günə qalıb,
Gör ki, nə haldadır xalqım…

İlanla da dolanandı,
Əqrəblə də dil tapandı,
İblisə də inanandı,
Bu sadəlövh, fağır xalqım…

Gəmisi var, sükanı yox,
Quranı var, imanı yox,

Vətəni var, baxanı yox,
Kim belə qarğıyıb xalqı…

Binayi-qədimdən qardaş,
Ərzi idarə edir baş,
Biz hisslər əsiriyik-kaş,
Kaş olaydıq ağıl xalqı…

Çox-çox xanı, çox-çox bəyi,
O qaldırıb mərtəbəyə,
Onlar da xalq deyə-deyə,
Gecə-gündüz satıb xalqı…

Mərddən artıqdır namərdi,
Dərdi çox, yoxdur həmdərdi,
Hər gün başına göylərdən,
Öz daşındır yağır, xalqım…

Nə qədər qanlı dişlər var,
Nə qədər çirkin işlər var,
Dünyada dost var, düşmən var,
Bizə durub baxır xalqım…

Nə qədər biqeyrət olar,
Nə qədər xəyanət olar.
Nə qədər müsibət olar,
Dözmək olmur daha, xalqım…

Düşmənimiz özümüzdən,
Ya rəbb, qoru bizi bizdən,
Bu ləkəni üstümüzdən,
Kim siləcək, axır, xalqım?..

1992

**Allah**

Sən demə xəbərimiz yox,
Bu ölkə satılıb, Allah…
Deməyə təpərimiz yox,
Bu ölkə satılıb, Allah…

Yetər, ta qoydunuz bəsdi,
Başımız altına yastıq,
Şuşa boyda qalamızda,
Yağılar oturub, Allah,
Bu ölkə satılıb, Allah…

Rütbə üçün alçalmalar,
Əmmaməli, ağ çalmalar,
Bu hay-küylər, əl çalmalar,
Naləmi batırır, Allah,
Bu ölkə satılıb, Allah…
Eşitsin Təbriz, Marağa,
Xətai qalxsın ayağa,
Necə dözürük, Qarabağ
Artsaxa qatılır, Allah,
Bu ölkə satılıb, Allah…

Nə zamandı, nə müddətdi,
Vətən seçilmir qürbətdən,
Ayılıb bütün millətlər,
Biz hələ yatırıq, Allah,
Bü ölkə satılıb, Allah…

Çox nahaq, havayı yerə,
Qoymuşuq silahı yerə,
Bəzən də havaya elə,
Boş güllə atırıq, Allah,
Bu ölkə satılıb, Allah…

Söz ilə həmlə qururuq,
Sülh ilə düşmən qırırıq,
Səbr ilə doyuzdururuq,
Xalqı aldadırıq, Allah,
Bü ölkə satılıb, Allah…

Baxan yox haqqa, divana,
Olmuşuq dəli-divanə,
Gəmimiz düşüb tufana,
Kömək et, batırıq, Allah,
Bu ölkə satılıb, Allah…

1992

## Yarı-yarı, bütöv-bütöv

Çox şeyimiz bütöv deyil,
Çox şeyimiz yarı-yarı…
Yarı şərik, yarı xeyir,
Sevməyimiz yarı-yarı…
Yarıürək, yarı başıq,
Tamam yarıvətəndaşıq,
Yarı gülləatanlarıq,
Yarı haqqı tutanlarıq,
Yarı qorxaq, yarı igid,

Yarı imam, yarı seyid,
Yarı nəcib, yarı kinli,
Yarı şiə, yarı sünnü,
Vicdanımız yarı-yarı,
İmanımız yarı-yarı…
Yarı ağa, yarı kölə,
Yarı ağlar, yarı gülər.
Yarı bizli, yarı sizli,
Yarı gözsüz, yarı gözlü,
Yuxumuz, bəllimiz yarı,
Səxavət əlimiz yarı…
Yarı ondan, yarı bundan,
Yarıyacan bəni-insan.
Nağıllarda olduğutək,
Yarı balıq, yarımələk…
Hüsnü-cəmalımız yarı,
Ağıl-kamalımız yarı…
Yarı qurduq, yarı sürü,
Yarı sağıq, yarı ölü…
Suyumuz, dənimiz yarı,
Hətta vətənimiz yarı…
Hətta süslüyümüz bütöv,
Nadürüstlümüz bütöv,
Milli korluğumuz bütöv,
Rüşvətxorluğumuz bütöv…
Rütbə savaşımız bütöv,
Əlimiz, başımız bütöv…
Burun-qulağımız bütöv,
İtmiş papağımız bütöv,
Çərənçiliyimiz bütöv,
Mənəmçiliyimiz bütöv,
Yuxu yastığımız bütöv,
Qohumbazlığımız bütöv,
Bölmək ənənəmiz bütöv,
Yerliçi genimiz bütöv,
Bü dərd-mərəzimiz bütöv,
Tayfa-ərazimiz bütöv.
Çox bəd işlərimiz bütöv,
Keçməkeçlərimiz bütöv…
Yarı bütöv, bütöv yarı,
Xəmirimiz belə bişib…
Bu millətin, bu diyarın
Ta Allaha qalıb işi…
Bizə özün çarə elə,
Xilas elə, Tanrı, bizi…
Tamımızı yarı elə,
Tama çatdır yarımızı…

1993

**Ölmək hüququndan qeyri…**

Ölülər sağ, sağlar ölü,
Bu nə cürə zəmanədir…
Fitrətindən yerin, göyün
Pozulubdur müvazinət…
Dünənimiz sabahımızdır,
Bu günümüz binəsibdir.
Müqəssirlər günahsızdır,
Günahsızlar müqəssirdir.
Heyf, qalanlara, heyf,
Ey yatanlar, ayıq olun.
Bir ləkəsiz bəşər deyin,
Heykəlini qoyaq onun…
Hamı laqeyd biganədir,
Bu nə cürə zəmanədir…
Natəmizlər salıb şərə,
Təmizləri sürdürürlər,
Ölüləri dirildirlər,
Diriləri öldürürlər,-
Xilasımız ağlamaqdır,
Himnimiz də mərsiyədir…
Bütün işlər baş-ayaqdır,
Bütün sözlər tərsinədir…
Biz hürriyyət deyə-deyə
Qayıdırıq köləliyə.
Gələcəyi döyə-döyə
Keçmiş çıxır irəliyə…
Dərd əlindən dağa cumub,
Nə qədər bəlalı qaçır.
Əyrilər qabağa cumur,
Düzlər dalı-dalı qaçır…
Bütün üzlər olub astar,
Bəylik, xanlıq, qoçuluqdur…
Mənəviyyat dünyamızda
Kasıblıq, yolçuluqdur…
Dağılıbdır bütün sədlər,
Qalanıb dərdlər üst-üstə…
Fəlakət də, müsibət də
Bir-biriylə bəhsəbəhsdə…
Qeyrəti, namusu atıb,
Qarabağı verdik yada.
Kişilərə ləçək, yaylıq,
Papaq verin arvadlara…
Tüpürüblər məhəbbətə,
İndi hamı pul axtarır…
Qızlar düşüb məzəndədən,

Bəylər varlı dul axtarır…
Dovşana qaç, ovçuya vur,
Tazıya hür öyrədirlər…
Dilsizləri dilsiz qoyur,
Lallara dil öyrədirlər…
Düz danışan yazarları
Ehtiyacla şərlədirlər.
Bala-bala azarladıb
Bala-bala çərlədirlər…
Millət quruca söz olub,
Ölmək hüququndan qeyri,
Bütün hüquqlar pozulub…

1992

**Vətən**

Vətən hər kəsə nəfisdir,
O hər uludan uludur.
Vətənə tərif deməzlər,
Tərifdən ucada durur o…

Cavanlar sevişər, vurular,
Düşərlər məhəbbət oduna..
Vətənçün ömürlər kül olar,
Yanarlar çövrünə, oduna…

Üstündə gəzməkdən doymazlar,
Qoynunda yatmaqdan heç zaman…
Heç nəyi ona tay qoymazlar,
Onu tək yaradıb Yaradan…

Ananın südü ilə süzülər,
Bir başa iliyə, qana o…
Kim qulaq asmasa sözünə,
Cəhənnəm odunda yanar o…

Kök atıb qəlbinə hər kəsin,
Bu eşq dərindən dərinə…
Onun milyardla zərrəsi,
Ətimdə, qanımda, dərimdə…

Hamının gözünün odudur o,
Hamının bircəyidir…
Quran tək müqəddəs tutulur,
Hər bir nəsihəti, öyüdü…

Gülün də Vətəndir Allahı,

Quşun da dilində əzbərdir.
Vətəni az sevən, Vallahı,
Bu eşqi car edən kəslərdir…

Bu yarış deyil ki, deyəsən,
Ona kim daha çox vurğundur…
Onun Babəkdir əsl yiyəsi,
Sabirdir, Həcərdir, Qorquddur…

Kim necə istəyir bircəsin,
Bu cavab çox adi, çox asan…
Bununçün gərəkdir hər kəsin,
Yarasan, köksünə baxasan…

**Silahı qısa çıxıb…**

Vicdanlar cibə çöküb,
Yeni möcüzə çıxıb…
Təmizlər dibə çöküb,
Murdarlar üzə çıxıb…
Yamanlar öz keyfində,
Yaxşılar pisə çıxıb…
Kimin ki, ürəyində
Nə qurd var, üzə çıxıb…
Bir vaxt yalan deyənlər,
Büsbütün düzə çıxıb…
Hələ çox-çox ağsaqqal
Sifətdən kosa çıxıb…
Qaçqınlarla qurd, çaqqal,
Bir qış da yaza çıxıb…
Xalq daha doyub cana,
Astarı üzə çıxıb…
Əvəzində ekrana
Hər cür gəvəzə çıxıb…
Dollar yığır varlılar,
Bu dəb də təzə çıxıb…
Atamızın malına
Yadlar vərəsə çıxır…
Harda qaldı o tayım,
Burda qan dizə çıxıb…
İndi-indi harayım,
Gedib Təbrizə çıxır…
Üzüqara hürriyyət
Nəqd ikən nisyə çıxıb…
Çoxları meydanlara
Sən, demə səs çıxıb…
Haqqı basdalayıblar,
Altından gürzə çıxıb…

Halalları sayıblar,
Siyahı qısa çıxıb…

1995

**Davalar… Davalar…**

Yer üzündə od qalayan
Davaların çoxdur sayı,
Çoxömürlü müharibə
Çörək, qarın davasıdır…
Çox davalar qalxıb, yatıb
Bu hətta onların tayı,
Əsl dava varlılarla
Kasıbların davasıdır.
Ehtiyacla vuruşdadır,
Döyüşdədir, daim bəşər,
İmkansızlar qarşısında
Baş əyirlər qiblə kimi.
Bir Domakl qılıncı tək
Asılmada o həmişə,
İnsanlığın başı üstdən
Ta beşikdən qəbirə kimi…
Ən əyilməz oğulları
O sındırır, əsir edir,
Savaşların pis savaşı
Toxun, acın davasıdır…
O nə qədər ölkələri,
Millətləri, rəzil edib,
Tükənməyən dava-qırğın
Ehtiyacın davasıdır…
Çəkişmələr, keçməkeşlər
Pul üstündə, var üstündə,
Ata, oğul olur düşmən,
Pul üstündə, var üstündə;
Çox həmlələr, təhlükələr
Pul üstündə, var üstündə;
Dilə gəlib ilk güllələr,
Pul üstündə, var üstündə;
Milyonlarla baş vurulub
Nəfsə görə, xeyrə görə;
Tamahkarın işi-gücü
Gümüş, qızıl davasıdır.
Siz söyləyin, kim o qızıl, gümüşlərdən
Xeyir görüb?
Fəqət qızıl-zər davası
Bəşərin zor davasıdır…
Davanın da adam kimi

Yaşı olur, günü olur,
Bir doğulan günü olur,
Bir yox olan günü olur…
Xalqlar qövlü-qal istəməz,
Dağ yerinə lap dağ üstdə
Başçılardır qanlar tökən
Mənsəb üstdə, maraq üstdə…
Başsızların əmri ilə
Milyonla baş qurban gedib.
Bu davalar nə istiqlal,
Nə hürriyyət davasıdır…
Say-hesabsız həyat sönüb
Dəryalarca al-qan gedib,
Davaların ən qanlısı
Hakimiyyət davasıdır…
Bir səngərdə qədim «İncil»,
Bir səngərdə ulu «Quran»,
Bir səngərdə haqq-ədalət,
Bir səngərdə zülm, talan.
Bir tərəfdən məkr, zülmət,
Bir yandan nur daşıyanlar.
Bir cəbhədə öldürənlər,
Bir cəbhədə yaşadanlar…
Bir qütbdə şeytan durur,
Bir qütbdə Allah, Kəbə,
Bir büsbütün dövrlərin,
Əsrlərin davasıdır…
Dünya qərar tutan gündən,
Ən kəsilməz müharibə,
Vicdanların, məsləklərin,
Xeyrin-şərin davasıdır…

1995

## Mərdlik getdi, şərəf getdi, dönməz geri

Quru, yavan çörəklə də
Dolanaram,
Təki heç vaxt söz çörəyim
Tükənməsin…
Köhnə, nimdaş köynəklə də
Dolanaram,
Təki, təki gələcəyim,
Tükənməsin…
Cibimdəki bir manatı
Xəyalımda yüz edərəm.
Paltomun astarını
Çevirərəm üz edərəm…

Təki, təki düşmən dosta
Çevrilməsin,
Ümidlərim böyrü üstə
Çevrilməsin…
Qənd olmasa çay içərəm
Şor-duz ilə,
İllər ilə gündüz, gecə
Çırağım, işığım keçə
Dolanaram günəş ilə, hilal ilə,
Ulduz ilə,
Təki, təki
Millətimiz üzündəki
Nur olmasın
Əsr, yesir…
Təki təmiz vicdanları
Ziyaları əksilməsin…
Lap əbədi zindan hökmü
Kəsdir mənə,
Məzardan da gələcəkdi
Məğrur səsim…
Yaşamaqçün quru hava
Bəsdir mənə,
Təki, təki Təbriz havam
Tükənməsin…
Ömrüm, günüm yalan üstdə
Qurulunca,
Qoy ölümün doğru olsun…
Bu torpaqda min-min bivec
Doğulunca
Yetər elə beş qeyrətli
Oğlu olsun…
Çox dinsizlər indi qatı dindar olub,
Çox lotular hacılaşıb, kəbleyləşir…
Birdən-birə dönüb möminbəndə olur,
Namaz qılır, oruc tutur, əbləhləşir…
Mənəm təkcə bir Allaha kafir bəndə,
Eh, onsuz da bilir bunu xudavəndə,
Neçə ildir mənim üçün orucluqdur,
Çox vaxt iftar tapmayıram,
Dəxli yoxdur,
Şerim olur yağım, ətim,
Südüm, çayım,
Sübh yeməyim, iftar
Payım…
Axı, bəşər tək yeməklə
Dolanmayır,
Siz o qarnı yoğunlara
İnanmayın…
Elələri içdən boşdur,

Ruhdan rəzil,
Amal, məsləkdə üzərində qərar tutur
Yer kürəsi…
Tablaşaram bundan betər
Korluq olsun,
Təki qeyrət meydanında
Bolluq olsun,
Millət üçün belə ağır,
Dar məqamda,
Bir də sərdar axtarmayaq
Əl- amanda…
Lap jımıx dadıb yeyərik,
Sümük qaynadıb, yeyərik,
Təki körpə dövlətimin
Sümükləri
Möhkəm olsun..
Bu diyarda haqq-ədalət
Qanun olsun,
Ehkam olsun…
Təki namus, ar sarıdan
Ac qalmayaq,
Mənəviyyat dünyamızı
Çaş salmayaq…
Alacağıq itirsək də
Çox yerləri,
Namus getdi, şərəf getdi
Dönməz geri…

1995

**Rədd edirəm mən bu cürə azadlığı…**

Azadlıqdan dən vururlar neçə ildir,
Aldadırıq özümüzü, özgələri…
Bu nə cürə suverenlik, müstəqillik,
Əsarətdə boğuluruq, göz görəni…

Təzə millət dəllalları peyda olub,
İp salıblar kütlələrin boğazına…
Güvəncləri mitinq olub, meydan olub,
Güc veriblər səslərinə, ağzına…

Heç belə də müstəqillik olar yəni,
Rədd edirəm mən bu cürə azadlığı…
Su yerinə axıb gedir insan qanı,
Gərək deyil bizə kölə azadlığı…

Gərək deyil, bu millətə gərək deyil,

Qardaşına güllə atmaq azadlığı…
Heç bir kəsə şöhrət deyil, şərəf deyil,
Yurdu satmaq, evi satmaq azadlığı…

Külli-məxluq dönüb aca, yalavaca,
Bu mərəzin dərmanı nə, əlacı nə?..
Milyonları qova-qova, qaça-qaça,
Çeviriblər köçəriyə, qaraçıya…

Sığınıblar dağa-daşa yetim-yetim,
Qan ağlayır torpaq, səma, uzaq, yaxın…
Bir tərəfdən düşmən qırır bu milləti,
Bir tərəfdən əli qanlı azadlığı…

Ana yurdum yola salıb əsrləri,
Heç bir vaxtı bu qədər xar olmayıbdır…
Azərbaycan yarandığı gündən bəri,
Bu cür miskin, bu cür naçar olmayıbdır…

Şərəf gedib, namus gedib, inam gedib,
Ədəb gedib, ədəbsizlik başa çıxıb…
Nəyim var hürriyyətə qurban gedib,
Hürriyyət də yalan olub, boşa çıxıb…

Həsəd ilə baxardılar bir vaxt bizə,
Yoxdu Odlar diyarının bərabəri…
İndi onu aşırdıblar böyrü üstdə,
Qarabağı başdan-başa xərabədir…

Məni belə günə salan istiqlaldır,
Öz-özümə kəfən oldu azadlığım …
Sathasatdır, çaphaçapdır, alhaaldır,
Rədd edirəm belə quldur azadlığı…

Əsarətdə yaşadığım o illərim,
Bu gün səsləyirəm dönə-dönə…
O əvvəlki vətənimi mənə verin,
O əvvəlki millətimi verin mənə…

1990-1993

**Dəyərsiz təkcə insandır indi**

Qiymət görəndə başım hərlənir,
Qəribə vaxtdır, zamandır indi…
Duz dəyərlənir, mıx dəyərlənir,
Dəyərsiz təkcə insandır indi…

Qanın havayı axır su kimi,

Hər gün üstünə od ələyirlər.
Tutub qurbanlıq bir quzu kimi,
Başını kəsib, güllələyirlər.

Kimsə yanmayır əsla halına;
Məhəl qoyan yox ülviyyətinə.
Yağ, şəkər çıxıb ceyran dalına,
Əti satırlar qan qiymətinə…

Tək başına oğlu düşübdü gözdən,
Yoxsa axır zamandı indi.
Kütlə baş yarır yumurta üstə,
Dəyərsiz təkcə insandır indi…

Əl boyda balıq ömürdən baha,
Dərman yox, xəstə can verir, Allah.
Belə həyata nə deyim daha,
Cəhənnəm ondan yaxşıdır, vallah…

Qulda imkan yox, ağada kərəm…
Hamı da dildə millət bağırır…
Amal, əqidə dönüb nökərə,
İnsan unudub insanlığını…

Hava korlanıb, su zəhərlənib,
Çox evlər, yurdlar virandır indi.
Peyin nədir ki, o dəyərlənib,
Dəyərsiz təkcə insandır indi…

Məhzun gözlərə baxmaq olmayır,
Ehtiyac bizi necə sıxıbdır.
Alışqan nədir, tapmaq olmayır,
Əsgi parçası yoxa çıxıbdır.

Kasıb müəllim sürü hərləyir,
Abırlı olmaq nöqsandır indi…
Mis dəyərlənir, daş dəyərlənir,
Dəyərsiz təkcə insandır indi …

Dollar hakimi-ixtiyar olub,
Canımız onun ta əlindədir.
Güllə qızıla bərabər olub,
Tüfəng zər-ziynət dəyərindədir…

Ümid göydəki bir Allahadır,
O, ən sonuncu gümandır indi.
Kəfən bahadır, qəbir bahadır,
Ən ucuz olan insandır indi…

1993

**Görəsən, hara gedirik…**

Sular elə bulanıb ki,
Çirkin, təmiz bilinməyir…
Aylar elə dolanır ki,
Gecə-gündüz bilinməyir…

Nə bir pərdə, örtük qalıb,
Nə dərddə bir dərdlik qalıb,
Nə mərddə bir mərdlik qalıb,
Nə oğlan-qız bilinməyir…

Qəlblərdə qübar bitibdir,
Namus, qeyrət, ar itibdir,
Bütün meyarlar itibdir,
Yaxsıyla pis bilinməyir…

Ömrümüz qorxulu, gərgin,
Başlayıb bir hərki-hərki…
Özbaşnalıq, hərc-mərclik,
Əyriylə düz bilinməyir…

Hamı böhtan dağarcığı,
Ləkələnib xalqın çoxu,
Ayıran yox kimdir, axı,
Haqlı-haqsız bilinməyir…

Çəkişmələr yorub bizi,
Öz gülləmiz vurur bizi,
Düşmən çoxmu qırır bizi,
Ya özümüz bilinməyir…

Bütün vicdanlar xəstədir,
Bütün satqınlar səsdədir,
Qardaş qardaşa qəsd edir,
Ögey-əziz bilinməyir…

Millət çox bala itirib,
Şuşa tək qala itirib.
Görəsən, hara gedirik,
Bu yolla biz, bilinməyir?

1993

**Qoymayın, amandı gəldi…**

Bu nə zaman idi gəldi,
Bu nə əyyam idi gəldi…
Düzlər vuruldu gözündən,
İnsanlar qaçdı özündən.
Dirildi bütün həpəndlər,
Yırtıldı bütün kəfənlər,
Artdı cibinə təpənlər,
Biclik toxumu səpənlər…
Bu nə əyyam idi gəldi,
Bu nə dövran idi gəldi…
Doğma məmləkət bölündü,
Oldu məhəllə-məhəllə…
Cəhənnəm cənnətə döndü,
Cənnətə döndü cəhənnəm…
Ağalar, bəylər dəyişdi,
Köhnə işlərləri dəyişdi,
Xəlbir, ələklər dəyişdi,
Hətta müdriklər dəyişdi…
Qaynadı bütün qazanlar,
Səsləndi köhnə azanlar…
Dirildilər rozaxanlar,
Gəldilər imana, dinə,
Bir vaxt imamı asanlar,
Allaha söz qoşdu dünən,
Lenin vəsf edən ozanlar…
Partiyamızdır yazanlar…
Bu nə əyam idi gəldi,
Bu nə haram idi, gəldi…
Gündüzün günorta vaxtı,
Əyrilər çıxdılar taxta,
Canilər meydan suladı,
Evimizi qan suladı…
Fitnələr mindi atına,
Çıxıb millətin adına,
Yetən and içdi yalandan,
Nəyimiz vardı, talandı…
Yad yurdda meydan suladı,
Qarabağı qan suladı…
Məmləkət məzarla doldu,
Şəhidlər bürüdü yurdu…
Qəbristanlıqlar çoxaldı,
Bir də xanlıqlar çoxaldı…
Orda o xan dedi bizik,
Burda bu xan dedi mənəm…
Başladı bir özümsüzlük,
Başlandı bir mənəm-mənəm,
Neçə xain ad çıxartdı,

Hərəmxanalar çoxaldı,
Elmxanələr azaldı,
Mənəviyyatlar sozaldı…
Analar birdən qocaldı…
Heyf bu millət, heyf,
Bu necə əyyamdı gəldi?
Ulu Sabir yaxşı deyib,
Qoymayın, amandı, gəldi,
Axırazamandı gəldi…

1992

**Cılızlar nağılı**

Böyümək istədi cılızlar birdən,
İştaha gəldilər ağa olalar…
Gözə görünməyən bir kəslər birdən
Lap böyük Allaha yaxın olalar…

Biri də demədi cılızdı kökü,
Nərdivan tapdılar nataraz, uzun…
Xalqın tez boynunda oturdular ki,
Boyları hamıdan uca görünsün…

Uzun tikdirdilər papağı hətta,
Çatdı geyimləri neçə arşına…
Qalxdılar Məşədibad sayağı hətta
Hamballar belində hasar başına…

Cırtdan babasını unudub artıq,
Koroğlu nəsliyəm deyən tapıldı…
Əlini, başını uzadıb, dartıb
Sapaşki, dikdaban geyən tapıldı…

Zamanın ən qorxunc azarı kimi
Cılızlıq mərəzi tutdu hər yanı.
Cılızlar istədi özləri kimi
Cılızlaşdıralar Azərbaycanı…

Göyün ətəyindən tutdu cılızlar,
Yenə də boyları yerdə süründü.
Nə qədər nəhəngi uddu cılızlar,
Cılızlar yenə də cılız göründü…

Quran götürdülər möminlər təki,
Girdilər şəriət oyunlarına.
Bu xırdacığazlar qanmadılar ki,
Cılızlıq biçilib boyunlarına…

Lap ən zırpıları irəli qaçdı,
Məhəl qoymadılar yenə onlara.
Taxtda oturdular əməlli-başlı,
Görüb saymadılar yenə onları…

Hərənin həyatda olur öz yeri,
Mənim sözlərimi ariflər anlar…
Böyüklük eşqinə tdüşəndən bəri,
Cılızlığı da itirdi onlar…

1995

**Əl tutmaq Əlidən qalıb**

Ay qapımı döyən yolçu,
Mən də sənin günündəyəm.
Durub boyun əyən yolçu,
Mən də sənin günündəyəm.

Mən də sənin kimi acam,
Amma ki, nədi bilmirəm?
Sən əl açmaq bacarırsan,
Mən onu edə bilmirəm.

Haldan hala salır məni
O bom-boş yalın əllərin.
İlan olub çalır məni,
Mənə uzalı əllərin.

-Boş qaytarma,-deyib Tanrı-
Nagah qapına kim gələ:
Əl tutmaq Əlidən qalıb,
Əl tutmaq üçün cib gərək…

Mən də ta ələ baxıram,
Əməlli-başlı, can bacım…
Yarıb qarnımı baxalar,
Qarnın tək boşdu, can bacım…

Gör, millət nə günə qalıb,
Olubdu qaçqın, dərbədər…
Üzülüb bəstəkar, alim,
Yazarlar hamıdan betər…

Dəllallar qəbirdən qalxıb,
Lotular bazarı tutub…
Lap az qala bütün xalqı,

Yolçuluq azarı tutub…

Nə böyüyə hörmət edən,
Nə kiçiyə baxan yoxdur.
Bir sürü gədə-güdədən,
Daha bizə aman yoxdur…

Yanında fitil balalar,
Qapımı açdın, can bacım…
Mədəmə rentgen salaraq,
Mədən tək boşdu, can bacım…

1994

**Ehtiyac**

Vətəni qürbətə çevirər,
Sevgini nifrətə çevirər,
Ehtiyac üzündən daima,
Dağılar minlərlə ailə,
Ölkələr sarsıdar-ehtiyac!
Həyatın tərsidir-ehtiyac!

Ananı ayırar baladan,
Ürəyi tən bölər yarıdan,
Qoparıb sinədən aparar,
Ölümün əbədi çəpəri,
Yoxsulun kölgəsi-ehtiyac!
Ev yıxır, yol kəsir-ehtiyac!

Ehtiyac toruna düşəndə,
Satılır gözəllər, qəşənglər.
Aslanı, pələngi sındırır,
Cılızı, nəhəngi sındırır,
Ağ üzü qaraldır-ehtiyac!
Ümidi saraldır-ehtiyac…

Əyir ən əyilməz vicdanı,
Aclıqla sınayır insanı,
Qurd kimi bədəni gəmirir,
Çürüdür poladı, dəmiri,
Cismini əridir-ehtiyac!
Bəşərin şəridir-ehtiyac!

Milyonlar göz dikib çörəyə,
Çörəkdir hər evin dirəyi,
Çörəksiz hamımız dilənçi,
Odur ki, ən əvvəl, birinci,

Çörəyə qənimdir-ehtiyac!
İndiki günümdür-ehtiyac…

Tanıyıb nə vaxtdır qapımı,
Alıbdır əlimdən tabımı,
Çəkibdir qılıncı üstümə,
Durubdur xalqımın qəsdinə,
Əyibdir qəddimi-ehtiyac!
Ermənisifətdir-ehtiyac…

1995

**Get, özün ol özün üçün…**

Nəvəm oldu, görüşünə aparmağa gül olmadı,
Gül var idi, gül bol idi, pul olmadı…
Sinəmdə sıxıldı ürək,
Bir nisgillə, bir həsrətlə,
Pul yox idi məmləkətdə?
Pul çox idi məmləkətdə,
Torba-torba, ətək-ətək,
O mənə mümkün olmadı…

Xəstələndim, həkim bal məsləhət gördü,
Həkimin də başına söz qəhət oldu?..
Gecə-gündüz o dərmanı mən gözlədim,
Bir anasız cücə kimi dən gözlədim,
Ha bal dedim, bal gəlmədi,
Yenə mənim nisgillərim düzəlmədi,
Neyləyim, cibim deşik idi,
Pulum vardı, bir iyirmibeşlik idi…

Nəinki bal, ona zəhər verməzdilər,
Nə ki salam, o pula əl verməzdilər…
Bal dediyim gün olmadı,
Bir kimsəyə kar etmədi iltimasım, yalvarışım,
Sinəmdə sıxıldı ürək,
Məmləkətdə bal var imiş,
Çələk-çələk, pətək-pətək,
O mənə mümkün olmadı…

Boğaza yığıldım axır,
Dedim, daha mənası yox yaşamağın…
Ha ölümü harayladım, o gəlmədi,
Əzrayıla ha dil tökdüm düzəlmədi…
Dedilər ki, havayıdır ölüm məgər?
Pul lazımdır filan qədər,
Ölənlər də dollar ilə ölür indi,

Hələ, söylə, görüm indi,
Varmı səndə qüsul pulu, yasin pulu,
Molla pulu, qazı pulu…
Fitrə haqqı, zəkat haqqı,
Qırxa kimi xeyrat haqqı,
Birdən-birə neçə milyon
Pul istəyir meyidyuyan…
O üstəlik mükafat da tələb edir,
Ölmək elə səninlədir?!.
Ölmək qabaq pulsuz idi,
Eh, o vaxtlar pul pul idi…
Heç bilirsən tabut qalxıb nə qiymətə?..
Lap əlli gün döy mollanı, pulsuz qalxmaz münacətə…
Eh, o qədər ölən varki, tabut çatmır bu millətə…
Bir də ölmək yarış olub, bilsən nə boydadır növbə?..
Köhnə qəbirstanlıqda açaq gərək təzə şöbə…
Ucuz bilmə ölümü sən,
Birdə bütün bu xərcləri ölməmişdən verməlisən…
Yox, sayma asan ölməyi,
Nə qədər ki, gec deyildir tövbə elə sən ölməyi…
Molla etiraz elədi, axund etiraz elədi,
Hətta mənə İnkir-Minkir naz elədi…
Dedilər ki, pulsuz ölüm sərfa deyil bizim üçün,
Bacarırsan get özün öl özün üçün…
Boğdu məni qüssə-qəhər,
Gör nə cürə zəmanədir, ölüm olub gülməşəkər?..
Bir arzum da çin olmadı,
Ölmək də mümkün olmadı…

1995

## Bu dərdi dağlar götürər

Bu dərdi dağlar götürər, gedək dağlara,
Bu ahı dağlar itirər, gedək dağlara…

Mən özümə dərd etmədim hər yetən dərdi
Bu nə canın ağrısıdır, nə bədən dərdi,
Mənim dərdim el dərdidir, yurd, Vətən dərdi.
Varlığımda bir yanıqlı həsrət ağlayır,
Bu dərdi dağlar götürər, gedək dağlara…

Ta binayi qədim gündən işim zülümdür,
Bir zamanlar Dərbənd getdi, Təbriz bölündü,
Qarabağım qoyulubdur hərraca indi,
Yad tapdayır o yurdları, o ocaqları,
Bu dərdi dağlar götürər, gedək dağlara…

Mən o İsa bulağının qədim səsiyəm,
O yerlərdən əl götürsəm, əlim kəsilər,
Mənə bütün əcdadlarım qənim kəsilər,
Bu dərddən hər gün sinəmdə dərd pardaqlayır,
Bu dərdi dağlar götürər, gedək dağlara…

Şuşa qeyrət papağıdır bizim millətin,
Şuşasızlıq düz üç ildir üzür milləti,
Bu üç ildə qocalıbdır yüz il millətim,
Şuşa adı dilimizdən qaysaq bağlayır,
Bu dərdi dağlar götürər, gedək dağlara…

1995

**Kaş millətdə ruh yaşasın…**

Millət əzər, əzilər də,
Kaş millətdə ruh yaşasın.
Əyri qəddi düzələr də,
Kaş millətdə ruh yaşasın…

Zaman-zaman, nəsil-nəsil,
Babəklərin gəlir səsi.
Nəsimilərin tükənməsin,
Kaş millətdə ruh yaşasın…

Sabirlərə xəbər olsun,
Qız-gəlinlər Həcər olsun.
Kişilərdə təpər olsun,
Kaş millətdə ruh yaşasın…

Qeyrət ruhun gücündədir,
Qüdrət ruhun gücündədir.
Millət ruhun gücündədir,
Kaş millətdə ruh yaşasın…

Düşməni qul etmək olar,
Min əsr yol getmək olar.
Dünyanı titrətmək olar,
Kaş millətdə ruh yaşasın…

**Atamdır əqidəm**

**Çətindir, asandır…**

Nə bir ürək işlədərək, nə beyin,
Laqeyid-laqeyid yaşamağa nə var ki?!

Boş qafanı, boş kəlləni siz deyin,
Çiyin üstə daşımağa nə var ki?!

Həssas olub ömr eləmək çətindir,
Dayaz yerə baş vurmağa nə var ki,
Qəvvas olub ömr eləmək çətindir.
Yeyib yağlı vozbaşını, aşını
Keyf üstündə mızıldamaq asandır.

Gecə-gündüz üerə soxub başını,
Qoyun kimi fısıldamaq asandır.
Tamam atıb vicdanının daşını
Gəzmək, içmək, nəşə, dadmaq asandıq.
Layla ilə uyumağa nə var ki,
Süngü altda gecələmək çətindiq.

Yad ürəyə burulmağa nə var ki,
Öz qəlbinə güc eləmək çətindir.
Mən-mən deyib bağırmağa n6ə var ki,
Əsl məni biz eləmək çətindir.
Oğulunu, gəlinini, qızını,geüindirmək son dəb ilə asandır.
Ömrü boyu, elə ömrü uzunu.

Sürünmək bu mətləb ilə vsvndır,
Çalıö köhnə zurnasını, sazını,
Pul qazanmaq bir dəf ilə asandır.
Xanım ilə dolanmağa nə var ki,
El-obaya dayaq olmaq çətindir.
Hər gün səhər oyan6mağa nə var ki,
Əqidəcə oyaq olmaq çətindir.
Köpək kimi yalmanmağa nə var ki,
Pələnglərin tayı olmaq çətindir.
Vətən deyib, millət deyib hər günü,
Baş aldatmaq, göz külləmək asandır.

Qəbul edib hər ğühiti, iqlimi,
Bir təhərlə baş girləmək asandır.
Özgələrin kəlamını, fikrini
Yeyib, söküb məngirləmək asandır.

«Can, ay qardaş!» çagırmağa nə var ki,
bax, o canın özü olmaq çətindir.
Kişilikdən dəm vurmağa nə var ki,
Çətin gündə kişi olmaq çətindir,
Böyük yerdə oturmağa nə var ki,
Laz0ım gəlsə kiçik olmaq çətindir.
Yalan ilə ömr etməyə nə var ki,
Həqiqətlə ömr eləmək çətindir.
Namərdləri öyrətməyə nə var ki,

İgidləri öyrət görək, çətindir.
Uşaq boğub törətməyə nə var ki,
Əsl övlvad yetişdirmək çətindir.
Bir formada, bir ölçüdə, biçimdə,
Qənfet kimi fikir yemək asandır.

Asta gəzib dırnabının ucunda,
Böyüyünə «bəli» demək asandır.
Nəvazişli yaltaqlığın içində,
Xumarlanmaq, mürgüləmək asandır.
Ayı-günü ötürməyə nə var ki,
Vaxt üstündə hökmranlıq çətindir.
Şair adı götürməyə nə var ki,
El qəlbinə tərcümanlıq çətindir.
Doğulmağa, ya ölməyə nə var ki,
İnsan kimi qəhrəmanlıq çətindir.

1978.

**Gözləmə**

Dünya bir sınaqdır hər addım başı,
Havayı fallardan ümid gözləmə.
Ürəyi korlardan, qəlbi karlrdan,
Məsləki hallardan ymid gözləmə.
Ata hesabına, dayı gücünə
Mənsəb alanlardan ymid gözləmə…
Myasir bəylərdən,bəyzadələrdən,
Təzə marallardan ümid gözləmə…
Çörəyi dizinin üstündə olan,
Vicdanı çallardan ümid gözləmə.
Dünyanı bir kağız diploma satan,
Savadlı mallardan ümid gözləmə.
Özünün öz şəxsi səadətini
Rüşvət alanlardan ümid gözləmə.
Neçə mərtəbəli tərifçilərdən
Zurna-qavallardan ymid gözləmə.
Hər gündə bir cildə, bir rəngə girən,
Buqələmulardan ümid gözləmə.
Ancaq xeyri üçün çalışanlardan
Belə fəallardan ümid gözləmə.
Həyat bir gözləmə zalı deyildir,
Gözləmə zallarda ümid gözləmə.
Ey ürək,
Özünə arxalan, güvən,
Boş-boş xəyallardan ümid gözləmə.

**Aldadır**

Elə zamanadır indi,
Bəndə xudanı aldadır.
Bilmək olmur ki, kim kimdir,
Oğul atanı aldadır.

Bütün ümidlər hasarda,
Bütün vicdanlar məzarda,
Ölkə aldatma bazardı,
Çatan çatanı aldadır…

Nə təhər yaşasın adam,
O möhtəkir, bu şər atan,
Görürsən ki, bu şarlatan,
O şarlatanı aldadır…

Sızlayır yaram içimdə,
Torpağım talan içində,
Batırıq yalan içində,
Yalan yalanı aldadır…

Dəli başlara keyf gəlib,
Sözləri gündə çəp gəlir,
Diri ölüyə kəf gəlir,
Oyaq yatanı aldadır…

Məmləkət gözündən batıb,
Hamı harama əl qatıb,
Sevən sevənə şər atır,
Kişi qadını aldadır…

Nə abır, nə də həya,
Satqınlar qalxıb səhnəyə,
Onlar xalqım deyə-deyə,
Xalqı, vətəni aldadır.

1993.

**Oğullar yaxşı oğuldu…**

Oğullar yaxşı oğuldu,
Pis zamanaya düşdülər.
Hamısı təmiz doğuldu,
Biclər araya düşdülər…

Bəxt onlara düşmən oldu,
Ümidləri həşəm oldu,
Zərləri sürüşkən oldu,

Əyri xanəyə düşdülər…

Yağı yolu kəsdi yenə,
Ellər qanda üzlü yenə,
Kasıblar uduzdu yenə,
Min bir bəlaya düşdülər…

Çox köpüklər üzə çıxdı,
Çox məsləklər toza çıxdı,
Əyrilər təmizə çıxdı,
Düzlər kələyə düşdülər…

Yuxarılar didişdilər,
El malına girişdilər,
Dar məqamda sürüşdülər,
Gedib haraya düşdülər?!

1993.

**İnam öldü, insan öldü**

İnam öldü, insan öldü,
Dönüb oldu bir yığın ət,
Cismi qaldı, ya qalmadı,
Zərrə xeyri yoxdu fəqət…
İnam öldü, insan öldü
Daha dərman-dəvası yox…
Ondan sonra yaşamağın
Mənası yox…
Ondan sonra ta əzrayıl
Nə karədir,
İnamsızlıq dövrümüzün
Ən qorxulu azarıdır.
İnsanlardan öncə indi
İnamları öldürürlər,
İnamları öldürməklə
İnsanları öldürürlər…
Yamanları əfv edirlər,
Yaxşıları məhv edirlər…
Bütün ölən inamların
Taleyinə ağlayıram,
Bütün şəhid inamların
Matəmini saxlayıram,
Gündə yüz yol qollarıma
Qara lentlər bağlayıram…
Dayanıram sanki fəxri
Qarovulda…
İnam, inam, qoyma məni,
Yarı yolda…

İnamsızlıq sökür bizi
Neçə ildir,
İnam öldü, insan öldü,
İnsan öldü
İnam öldü…

**Suallar… Suallar**

Hansı havadan udasan?
Hansı ətəkdən tutasan?...
Hansı pulla dolanasan,
Hansı haqqa inanasan?...
Hansı dərdə tablaşasan,
Hansı yasa toplaşasan?..
Düz deyəsən hansı sözə,
Dik baxasan hansı gözə?..
Hansı qapını döyəsən,
Hansı dosta dost deyəsən?..
Hansı havanı çalasan,
Necə öləsən, qalasan,
Hansı tamahı kəsəsən,
Hansı ilanı əzəsən?..
Hansı düşməni yıxasan,
Hansı dağlara çıxasan.
Ora dərd çıxa bilməsin,
Bir namərd çıxa bilməsin?..
Hansı gününə güləsən,
Necə yaşayıb öləsən?..
Cavab çətin, sual asan,
Hansı xalqa tapınasan?..
Sənə qatil kəsilməsin?
Hansı şəxsə, hansı kəsə,
İnsan deyib çağırasan?...
Cavab çətin, sual asan?...
Deyin xoşbəxt sayaq kimi,
Varlınımı, zənginimi?
Zalımımı, fağırımı?!
Dünya qorxunc nağıl imiş,
Sual imiş başdan-başa,
Basın bu dünyanı daşa,
Başdan-başa o bir oyun,
Özülünə bomba qoyun,
Boğun onu bələyində
Bəlkə onda əl götürdü
Fitnəsindən, kələyindən…

**Bəs, o sən deyildin**

Bu gün bir ayrı cür hava çalırsan,
Bəs, o sən deyildin, o sən deyildin?
Dünən özgə ruhda nəfəs alırdın,
Bəs, o sən deyildin,o sən deyildin?

Nə yerə sığırdın,nə də ki, göyə,
Bəs, o sən deyildin, o sən deyildin?
Döyürdün döşünə azadıq deyə,
-Əhsən, bu dövrana, əhsən-deyirdin…

bəs, o sən deyildin, o sən deyildin,
əlində olmuşdu sözlər oyuncaq?
Dünən btr böyüyə ləbbey deyirdin,
Bu gün başqasına deyirsən ancaq…

Nəzərə gələrsən özünü gözlə,
O zaman başqaydı, bu zaman başqa…
O vaxt da üzdəydin, indi də üzdə,
Dünəndə başdaydın, bu gün də başda…

Bu gün ayrı cürə hava çalırsan,
Nə qədər sözünə toy tutacaqsan?..
Sabah bir balaca dəyişsə dövran
Onda bir ayrı cür züy tutacaqsan…

1992.

**Bir məndən başqa**

Guya dəyişir aləm deyirlər,
Təzə dövr gəlir qanla-qadayla…
Bizə «Azadlıq» bəxş eləyirlər,
Elin adıyla, xalqın adıyla…
Adam adamın didir ətini,
Nə var ki, dərddən-ələmdən başqa?!
Hamı dəyişir öz sifətini
Hamı dəyişir, bir məndən başqa…

Dəyişər quruluş, dəyişər ölkə,
İnsan dəyişməz bu sürət ilə,
Həyatdan geri qalmışam bəlkə,
Mən bu dəyişməz təbiətimlə…
Həmin adamam, həminəm həmin,
İllər keçsə də ömürdən, yaşdan,
Hamı dəyişir, dəyişir hamı,
Hamı dəyişir bir məndən başqa…

Zəmanə yırtdı bütün üzləri,
Nə qədər məxluq sifətsiz qaldı…
Vətən tutmadı vətənsizləri,
Vətənlilərin səfi sozaldı…
Mənim ki, yoxdur ayrı inamım,
Bu ulu yurddan, vətəndən başqa,
Hamı dəyişir, dəyişir hamı,
Hamı dəyişir, bir məndən başqa…

Gördüyüm xəyal, yuxudur, Allah,
Dünənki şair tacirdir bu gün.
Tanımaq olmur çoxunu, vallah,
Nə qədər lotu hacıdır bu gün…
Alış-verişdir kütlənin işi,
Amalları yox gödəndən başqa…
Dəyişir hamı, hamı dəyişir,
Hamı dəyişir bir məndən başqa…

Möhtəkirlərin bəxti gətirir,
Yeyib dağıdıb, çapıb, çalırlar…
Çoxları danır millətini
İndi bir ayrı hava çalırlar…
Ayrı bəy, ağa, cəllad, mürdəşir,
İndi əyləşir yuxarı başda…
Dəyişir hamı, hamı dəyişir,
Hamı dəyişir, bir məndən başqa…

Dəyişib gözlər, dəyişib sözlər,
Çoxu özündən ayrılıb bu gün…
Əyriləşdilər dünənki düzlər,
Düzlükdən deyir əyrilər bu gün…
Bu dəyiş-düyüş, oyun.ö məsxərə,
Həyat oyundu binadan, başdan…
Çoxu dəyişib dönəcək hələ,
Çoxu dönəcək bir məndən başqa…

Yaxşı olmağın özü demə günahmış

Mənə günah tutdular insanlığımı,
Dedilər çox həlimsən, çox humanistsən…
«Üzümə oxudular nöqsanlarımı»
Məndə cavab verdim ki;-razıyam sizdən…

Doğru söz deyirsiniz, alqış doğruya,
Sizə təşəkkür edim necə bilmirəm…
Ya yaxşı, ya yamanmı, neyləyim, buyam,
Əsla təbiətimdən qaça bmlmirəm…

Sözüm qəribə gəldi nəsə onlara,
Mən öz nəcibliyimingülüncü oldum…
Dedilər:rütbə hara, nəciblik hara,
Gərək rütbə oldun qılıncın olsun…

Gərək əzazil ola başçı olan kəs,
İndi bir ayrı vaxtdır, bir ayrı gündür.
Don-Kixotluq bir qara qəriyə dəyməz,
Xeyirxahlar balta ilə baş kəsir indi…

Vəzifə tuta bilməz mülayim insan,
Sən insansan, amma ki, rəhbər deyilsən…
Sən bəzi pisləri də bağışlayırsan,
Heç kəsə güldən ağır əöz deməyirsən…

Niyə işdən qovmursan bu tənbəlləri,
Əlində nə qədər fakt, nə qədər əsas…
Sən bizim kollektivə gələndən bəri,
Hələ bircə nəfərdə almayıb cəza…

Biri kinayə ilə acıdı mənə,
Dedi-sənə yazığım gəlir vallahı…
Bir iblis də dişini qıcadı mənə;
Bağışla, bu humanizim olmadı daha…

-Xasiyyətim belədir, neyləyim-dedim,
Bu da yəqin xudadan mənim cəzamdır…
Özgəyə pislik etmək mənə çox çətin,
Özümə pislik etmək min yol asandır…
Mənə günah tutdular insanlığımı,
Dedilər çox nəcib, çox humanistsən…
Üzümə oxudular nöqsanlarımı,
Mən də cavab verdim ki;-razıyam sizdən…

Neyləyim, anam belə büküb əskimi,
Pislikdə, murdarlıqda yoxdu sərişтəm…
…Bütün nanəciblərə etiraz kimi,
axır ərizə verib çıxdım o işdən…

1993.

**Mən bəşərdə çox sifətlər görmüşəm…**

Ta inamım qalmayıbdır
Bir kəsə…
İstəmərəm yüz il insan
Görməsəm.
Tablaşaram hər əzaba,

Dəhşətə,
Sığınaram yırtıcıya,
Vəhşiyə,
İlanlarla qol-boyuna
Girərəm,
Tülkülərlə hər oyuna
Girərəm,
İnsan ilə istəmərəm
Kim desə,
Darıxmaram yüz il
Adam görməsəm…
Pələnglərlə baş qoyaram
Balınca,
Canavarla gedərəm ov
Dalınca.ö
Kərgədanla dil taparam
Bir təhər,
Dəyməz mənə ən qorxulu
Vəhşilər,
Ərdovlarla dayanaram
Üz-üzə,
Uf demərəm yüz il
İnsan görməsəm.
Mən bəşərdə çox sifətlər
Görmüşəm,
Bir xislətdə yüz cürə şər
Görmüşəm,
Bir ürəkdə min-min
Qara fikirlər,
Ömürləri zəhərləyən məkrlər…
Qan içənlər görmüşəm ki,
Xudaya,
Körpələri keçiriblər
Cidaya,
Qarıların yandırıblar
Nəşini,
Vəhşilərdə olmaz belə
Vəhşilik,
Köçürəm yer kürəsindən
Mən daha,
Ta üzmüşəm insanlıqdan
Əlimi.
Bacarsaydım dəyişərdim
Vallahı,
Çox adamla çox heyvanın
Yerini…
Mən bəşərdə nə sifətlər
Görmüşəm,
Kəmqeyrətlər, kəmfürsətlər

Görmüşəm…
Anasının əmcəyini
Kəsənlər,
Atasının boğazını
Üzənlər,
Böyüklərə hər gün quyruq
Bulayan,
Qonşusunun xoş günündə
Ulayan,
Var-dövlətə, zər-zibaya
Qul, əsir,
Paxıl, qorxaq, dəni, satqın,
Biəsil,
Vicdanlar görmüşəm ki,
Dad, həzər,
Bədniyabət, bədxasiyyət,
Bədnəzər…
Aləm uçsa heç dəbərməz
Bir tükü,
Ona baxsan cin-şeytana
Min şükür.
Min-min şükür əcinnəyə,
İblisə,
Uf demərəm yüz il insan
Görməsəm.
Mən bəşərdə çox sifətlər
Görmüşəm,
Əli qanlı neçə rəhbər
Görmüşəm.
Dişi qanlı neçə bahçı
Görmüşəm,
Hamını da başı daşlı
Görmüşəm.
Öz xalqının əzazili,
Düşməni,
Vətən satmaq olub ancaq
İşləri
Soyumuzu,dilimizi
Satıblar,
Dirimizi, ölümüzü
Satıblar,
Bu torpağın əllərini
Satıblar,
Hər nə keçib əllərinə satıblar…
Nə onlarda qeürət olub,
Nə vicdan,
Hamımızı keçiriblər
Qılıncdan,
Başımıza gətiriblər

Yüz oyun,
Belələri başa keçə
Qoymayın…
İnsan yerdə bir allahın
Kölgəsi,
O həm loğman, o həm cəllad
Yarandı.
İstəmərəm onu yüz il
Görməsəm,
Yaşamaram amma onsuz
Bir anda…

1992.

**İndi hamı həccə gedir**

İndi Məkkə dəbə düşüb,
İndi çoxu Həccə gedir…
Yüzlər ilə lotu, düşük,
Dəllal, oğru Həccə gedir…
Jükandarlar say-hesabsız,
Bazardarlar birmi,onmu?
İçlərində bir düz tapmaz,
Vurun mənim boynumu…
Gedir köhnə kommunistlər,
Gedir tazə dinpərəstlər
Ateistlər, populistlər,
Həccə gedir dəstə-dəstə.
Gedir dünən var səsilə
Allah, yoxdur ulayanlar
Bircə tikə, bircə gilə
Əqidəsi olmayanlar.
Dünən sağı döyən kəslər,
Tamam sola əyir bu gün…
Dünən Lenin deyən kəslər,
Ya Məhəmməd deyir bu gün…
Xirtdəyəcən dünahkar,
Lövbər salıb o yerlərə,
Amma min-min təmiz, naçar,
Həsrət qalıb o yerlərə…
Su yoluna dönüb Məkkə,
Can qalmayıb Məfdinədə…
Pulları da ətək-ətək,
Axıb gedir xəzinəmiz…
Bu keçmişdən bizə miras,
Babalardan bizə qalıb…
Həccə getmək təzə deyil,
O vaxtlar da gedərdilər,

Gedərdilər tək-tək, az-az,
Mömin, allah adamları…
Gedərdilər axşam-səhər…
Gedərdilər gündüz-gecə…
Pay-piyada gedərdilər,
Mədinəyə, Məkkəyəcən,
Canlarını üzə-üzə.
İndi isə, indi isə,
Üç saata yetişirlər,
Məhəmmədin hüzuruna…
«Boinq»lərdə ötüşürlər,
Məst olurlar «Limuzin»də
Sür papaqlar tikdirirlər,
Uzun saqqal buraxırlar…
Videolara çəkdirirlər,
Özlərini bu cahillər…
İbadət eyləyən yerdə…
Bir yol da çəkdirəydilər
Ticarət eyləyən yerdə…
Ömrü boyu kələk ilə
Yahayan bu fırıldaqlar…
Bir Məkkəyə getmək ilə,
Guya ki, saf olacaqlar…
Keyflərini xoş edirlər,
Bu nə iman, bu nə dindi?..
Dünən araq nuş edənlər,
Abu-zəmzəm vurur indi…
Guya bol-bol içirlər ki,
Cənnət düşə paylarına…
Bir günahsız mələk təki,
Qayıdırlar evlərinə…
Bunlar hardan göyəriblər,
Bunlar necə həccə gedir…
Soruşan yox bu həriflər,
Hansı pula, xərcə gedir?...
Bu nə oyun, nə mərəkə,
Bu nə küfr, nə ənənə…
Qoyma, qoyma ulu Məkkə,
Murdar əllər deyə sənə…

1993

**Daha kimə inanasan**

İnamların çıxdı puça,
Daha kimə inanasan?..
İnam yoxsa, axı, necə,
Yaşayasan, dolanasan?..

O hər kəsin ruhu, qanı,
İnamdadır insan canı…
Bundan belə bu dünyanı,
Gəl, qoy görüm yoluna sən…

Onsuz ömür boran imiş,
Bir gül kimi solan imiş…
Onsuz hər şey yalan imiş…
İnciləcən, Quranacan…

Qurğu imiş Allah özü,
Çaşdırıblar, vallah, bizi,
Əfsanəymiş həyat sözü,
Əvvəlindən sonunacan…

Bəzək vurub sözümüzə,
Toxdaq verib özümüzə…
Aldanırıq kökümüzə,
Qara torpaq dolanacaq?..

Şair Cabir, yaxşı düşün,
Getdi yazın, gəldi qışın,
İnamın ki, öldü, qoşul,
İtə, qurda, ilana sən…

1994

## Özüm özümə cəbhəyəm

Qəlbimlə eynidir üzüm,
Eyni imanda, dindəyəm.
Həm Allahımam, həm özüm,
Həm öz-özümə bəndəyəm…

Özümdən kiçiyəm hələ,
Özümdən üstün özüməm…
Əsl rəqibim də elə,
Əsl dostum da özüməm…

Əlimdə küllü ixtiyar,
Mən öz-özümdə hər şeyəm.
Özüm özümə partiya,
Özüm özümə cəbhəyəm…

Həm özüm özümə dövlət,
Özüm özümə qurğuşam.
Əlimdədir hakimiyyət,

Özüm başında durmuşam…

Hökmdaram o dövlətə,
O alınmaz polad qalam
Kimsə durmaz mənimlə tən,
Bir qeyri şəxsi saymaram…

Onu qurmuşam güc ilə,
Hər şeyin kökü özüməm…
Həm seçənəm, həm seçilən,
Həm vəzir-vəkil özüməm…

O yoğrulub məhəbbətdən,
Özünün himni, gerbi var.
O mərkəzdən, o dövlətdən
Bütün qəlblərə körpü var…

Bəli, onu mən yaratdım,
Ordusu şerdir, sözdür…
O dövlətin yeri, adı,
Ünvanı Cabir Novruzdur…

1991

**Deyə bilmərəm…**

Məni də belə yaratdın, tanrım,
Dözümlü, kövrək, sakit, sadədil…
Özümdən başqa hamıya yandım,
Yaxşılıq oldu peşəm, adətim…

Bəşər gözümdə bir Allah oldu,
Ona baş əydim gündə min kərə…
Hətta pisə də xeyirxah oldum,
Nəciblik etdim nanəciblərə…

Məni də yaratdın, tanrım,
Həssas, dərd duyan, həlim, abırlı…
Hətta dil tapıb bədlə dolandım,
Hətta düşmənə açdım qapımı…

Od verdin mənə, təb verdin mənə,
Nə qədər nəğmə ötdüm həyatda…
Şair nəfəsli qəlb verdin mənə,
Riyakara da inandım hətta…

Haram yemədim ömrüm boyunca,
Süfrəmdə halal çörəyim oldu…

Yaşlandım, saçım ağardı, ancaq,
Ürəyim uşaq ürəyi oldu…

Məni də belə yaratdın, tanrım,
Heç zaman umu-küsü olmadı.
Sadə yaşadım, sadə dolandım,
Dünya malında gözüm olmadı…

Çoxu pul yığıb çin-çin düzdülər,
Mən dövlət dedim şerlərimə…
Sətir çinlədim sətir üstünə,
Qızıl yerinə, altun yerinə…

Məni də belə yaratdın, tanrım,
Biclik, xəbislik nədir bilmədim…
Kimə əl tutdum, kimə inandım,
Axırda gördüm qədir bilmədi…

Uca zirvədən baxdım aləmə
Çox təmiz olmaq özü ağ imiş.
Faciə imiş adamlıq, demə,
Düz olmaq, demə, pis olmaq imiş…

Məni də yaratdın tanrım,
Belə yaratdın niyə bilmirəm…
Binadan bu cür yoğruldu xəmirim,
Yaxşıdır, pisdir deyə bilmərəm…

1993

**İnsanlar, ilanlar**

Min illərdir qərar tutub insan, bəşər,
Dünya sonsuz, aləm, qədim…
Min illərdir ilanlar öz qabığını dəyişirlər,
İnsanlar öz sifətini…
Böyüyürük hər gün bunu görə-görə…
Görür Allah, görür fələk…
Təbiətin qanunudur, ilan gərək qabıq verə,
İnsanlığın qanunudur sifətini dəyişməyə
İnsan gərək…
Bu qanuna baxan kimdir,
Bilmək olmur insan kimdir, ilan kimdir…
Elə bil ki, yarışırlar, yürüşürlər,
Saxlayan yox bu yürüşün qabağını…
Min illərdir insanlar öz sifətini dəyişirlər,
İlanlar öz qabığını…
İnsan sanki ilan kimi qabıq verir,

Bəs o buna necə dözür?..
Birisinin bütün cismi qabıq verir,
Birisinin üzü-gözü…
Bu dəyişdə, bu düyüşdə ilan bəzən yalan
Olur…
İnsan elə qabıq verir gürzədən də
Yaman olur…
İnsan çalar, insan insan dirildərdər də,
İlan çaldı, ilan vurdu xilas çətin…
İlanlar öz qabığını dəyişirlər
Min illərdir,
İnsanlar öz sifətini…
Min illərdir çox-çox canlı, çox-çox bəşər,
Qərar tutub göy altında…
Yer üstündə
İlanlar öz qabığını ildə bir yol
Dəyişirlər.
İnsanlar öz sifətlərini dəyişirlər,
Gündə-gündə…
Fərq odur ki, qabığını dəyişəndə
İlan əsl
İlan olur,
Fərq odur ki, sifətini dəyişəndə,
İnsan ölür…

1992

**Bəs mən hara gedim, babam…**

*Qızılgül anam əsl Allah adamı idi. Doxsan dörd yaşında belə məscidə gedər, heç vaxt namazını buraxmazdı. Nəql eləyirdi ki, atası Hüseyn kişi əsrimizin əvvəllərində Kərbəla ziyarətinə gedirmiş. Yola düşən günün sübh çağı yuxudan durub kəndimizin ən görümlü, ən hündür yerində tikilən evimizin qabağına çıxıb üzünü qibləyə döndərib Allaha yalvarmağa başlayıbmış… - Xudaya - deyirmiş – mənim bu səfərimi ən əvvəl uğurlu elə… gedim Kərbəlaya. Şahi – Nəcəf arzuma yetişim… Bir də səndən umacağım odur ki, məni elə oradaca peyğəmbərlərin hüzurunda o dünyaya yolla… Həm behiştlik olum, həm də qayıdıb bu kənddə olan bəzi murdarların bir də sifətlərini görməyim… anam deyirdi ki, allah elə bil kihinin sözünü eşitdi… Həm onun ziyarətini uğurlu elədi, həm düz İmam Hüseynin türbəsi qabağında namaz qılarkən ruhunu canından uçurtdu, kəndimizdə olan bəzi bədniyabətlərlə bir daha üz-üzə gəlmədi… İllər arxasından mən də babamın həmişəyaşar ruhuna üz tutub deyirəm ki, baba, sənin üçün o vaxt pislərin əlindən baş götürüb getməyə Kərbəla, Nəcəf vardı…*

Bəs mən hara gedim, babam,
Ulu babam, qədim babam,
Əziz babam, Hüseyn babam,
Pislərdən gen gəzən babam…
Dünyanın ən ağır dərdi,

Hansı dərddir-insan dərdi?..
Gündə rast gəlmək namərdə,
Çətin dərddi, yaman dərddi…
Murdarlar çox dönük olur,
Bəli, dərdin böyük olub…
Böyük olub, ulu babam,
Yaxşıların qulu, babam…
Qəlp götürməyib təbiətin,
Baş əyirəm xislətinə…
Kəndimizdən o vaxt yəqin,
Pislər olub dənə-dənə,
Misqal-misqal, dinar-dinar…
İndi sayı-hesabı yox,
Nə bi r qeydə alanı var,
Nə bir dəftər kitabı yox…
Vicdanları çürük, axsaq,
Nə oyunlar çıxarırlar,
Yamanlardır hara baxsan,
Hey artırlar çoxalırlar…
Veclərinə deyil aləm,
Ev yıxırlar gülə-gülə…
Mən də baxa bilməyirəm
O riyakar sifətlərə…
Dünya mənə necə dardı,
Çağlayır nifrətim, babam…
Sənin gedən yerin vardı,
Bəs mən hara gedim, babam?..
Həyanım ol, yetiş dada,
Məsləhət ver, kömək elə…
Getmək olur Təbrizə ta,
Orda qalmaq olur hələ…
Ora hələ dərdli yerdir,
Özü doğma, sahibi yad…
Millətimin azdır mərdi,
Qorxaqları boldur heyhat…
Hərəsi də öz hayında,
Bunlar yüzmü, minmi babam,
Tək-tük imiş pislər onda,
Sürüdülər indi, babam…
Hamı olub dəllal, kələk,
İnsanlığın ağı çıxıb…
Baş götürüb Füzuli tək,
Mən də yoxsa dağa çıxım…
Sən getdiyin yollar ilə,
Ay babam, mən də getmişəm…
Kərbəlaya iki kərə,
Bir yol Məşhədə getmişəm…
O yerlərdə olmaq, babam,
Ta özü də bir şərt deyil,

Nə Kərbəla, o Kərbəla,
Nə Məşhəd o Məşhəd deyil…
Məkkəni də korlayıblar,
Döndəriblər su yoluna…
Dinsizləri yollayırlar,
Peyğəmbərin hüzuruna…
Mərddə gərək bir üz olsun,
Bütöv babam, mətin babam…
Bir kəs göstər təmiz olsun,
Bir yer göstər gedim, babam…
Ana gərək, bacı gərək,
Dərdlərimə edə çarə…
Yer olmasa qaçım gərək,
Meşələrə, səhralara…
Mürvət yoxdur insanlarda,
Qiyamətdir, nədir, babam?..
Sənin gedən yerin vardı,
Bəs mən hara gedim, babam,
Bəs mən necə edim, babam?..

1993

**Atamdır əqidəm- Atamın oğluyam…**

Heç zaman ağlıma gəlməzdi, heç zaman,
Əqidə dəyişmək bu qədər asanmış…
Bir anda özünü danarmış insan,
Özünün əliylə özünü asarmış…

Çökərmiş üstünə fəlakət buludu,
Enərmiş zirvədən dərəyə, təpəyə,
Vücudu qaralmış, qup-quru vücudu,
O da ki, dəyməzmiş bir qara qəpiyə…

Yalanmış bu qədər vuruşmaq, döyüşmək,
Bu qədər and-aman eyləmək yalanmış…
Nə qədər asanmış əqidə dəyişmək,
Lap corab dəyişmək qədər asanmış…

Varmıdır de, bundan dəhşətli cinayət,
Ən qatı qatildir, əqidə qatili…
Əxlaqa xəyanət, inama xəyanət,
Ən böyük satqınlıq, ən böyük cahillik…

Nədir ki, bu xalqın görəsən hünahı,
Ki, içi bu qədər manqurtla dolubdur,
Bu necə dövrdür, özün de, ilahi,
Ki, əqidəsizlik əqidə olubdur…

Milləti üzübdür çəkişmək, didişmək,
Bu da qanımızda lap köhnə azarmış…
Nə qədər asanmış əqidə dəyişmək,
Bir qurtum su içmək qədər asanmış…

Hirsimdən sıxıram dişimi dişimə,
Axı, heu yazıblar binayi-qədimdən,
Amalı yolunda can verib kişilər,
Amalı yolunda ölümə gediblər…

Əqidə idarə eləyir cahanı…
O nəhəng ağacdır soy-kbkü dəyişməz…
Babalar deyiblər: həqiqi insanın,
Dünyası dəyişər,məsləki dəyişməz…

Nə qədər çox imiş kölgədə yatanlar,
Əyilməz vicdanlar nə qədər az imiş…
Nə qədər çox imiş məsləksiz nadanlar,
Məsləki olanlar nə qədər az imiş…

Əqidə doğrusa, zaval yox, doğruya,
Mayası poladdır o sınar əyilməz…
Atamdır əqidəm-atamın oğluyam,
Dəyişməz əqidəm, heç zaman dəyişməz…

## İşli, işsiz günlərim…

I

İşli günlərimin dostları boldu,
Hətta yadların da yadında idim…
Hərə də özünə bir pay umurdu,
Şöhrətin vəzifə atında idim…

Hamı stolumu gəlib sayardı,
Yaltaqlar gğrürdüm gündə bir qoşun.
Amma ki, özümü qərib sayardım,
İçində bu qədər cəfəngin, boşun…

Telefon gecə də ötərdi dil-dil,
Evdə də, işdə də qapardı məni…
Eləsi vardı ki, öləydim qəfil,
Gəlib qəbirdə də tapardı məni…

Cumardı gündə bir məddah üstümə,
Daim ətəyimdə idi əlləri…
Elə şığıyardı yadlar üstümə,

Deyərdim çoxdakı can-ciyərlərik…

İşli günlərimin zəhimi vardı,
Möhürü, maşını, hökümü, hikkəsi.
Xalqımız rütbəyə əyilən xalqdı,
Hamı vəzifəyə kölə, qul, əsir…

Kənardan baxardım bəzən özümə,
Mən özüm-özümdən şəkə düşərdim.
Hər gün ürəyimə, hər gün sözümə,
İşli günlərimdən ləkə düşərdi…

Nə qədər qohumum varmış sən allah,
Bəlkə pünhan-pünhan nəslimiz artıb?
Gələnlər əlindən qapımı vallah,
Az qala gecə də açıq qoyardım…

II

İşsiz günlərimin dostları tək-tük,
Amma ki, heyrəti, sehiri bol-bol…
İşsiz günlərimin mənası böyük,
Qiyməti, dəyəri,xeyiri bol-bol…

İşsiz günlərimin qohumu az-az,
Sayını barmaqla sanamaq olar…
Gedənim, gələnim, qəyyumum az-az,
İndi doğmaları tanımaq olur…

Yadlar nə gəlirlər, nə də gedirlər,
Ta qalıb gözləri özgələrində.
İşsiz günlərimdə mənimlədilər
İşsiz günlərimdə az gbrünənlər…

Daha qapımızı tez-tez açan yox,
Füzuli demişkən küləkdən özgə…
Salamda vermirlər mənə haçandır,
Bir vaxtlar kandarımı dağıdan kəslər…

İşsiz günlərimin telefonu laldır,
İtib ünvanımız, itib nömrəmiz…
İşsiz günlərimin suyu halaldır,
Çörəyi tər-təmiz, duzu tər-təmiz…

İşsiz günlərimin işdir hər günü,
Açılıb sözlərimin bağlı dilləri…
İşli günlərimin yuyur çirkini,
Gecəli-gündüzlü işsiz günlərim…

İşsiz günlərimin həmdəmi yanmaq,
Məşələ dönübdür qələm əlimdə…
İşli günlərimə sahibdim, amma,
İşsiz günlərimin qulam əlində…

Onlar qurtardılar ruhumu dardan,
Elə bir açdılar bağlı gözümü…
Özümə baxıram durub kənardan,
Daha tanıyıram özüm-özümü…

Bərk-bərk yapışmışam daha qələmdən,
Gecə də, gündüz də işdədir əlim.
İşsiz günlərimdə işsiz idim mən,
İşli günlərimdir işsiz günlərim…

1993.

Ay qızıim

Sevdiyin aldadıb səni, gözündə yaşdı,
Ay qızım,
Bahar ömründə bu sənin ilk aldanışdı,
Ay qızım…
Sənin kimi zərif kəsin, ürəyi çox tünlük olar,
İlk eşqinin özülləri dönük çıxıb,çürük olub.
Bu aldanış gərək sənə bir dərs ola, bir görk ola,
Bir qəlbdə yazdı, ay qızım,bir qəlbdə qışdı,
Ay qızım,
Həyata gəlməyin özü bir aldanışdı,
Ay qızım…
Tutulma çox, səbr elə, igidlər, ərlər aldanır,
Ağıllı başlar aldanır, böyük hünərlər aldanır,
Amma ki, hamıdan çox yazıq şairlər aldanır.
Bu aldanışların çoxu mənə tanış,
Ay qızım,
Həyata gəlməyin özü bir aldanışdı,
Ay qızım…
Sevən ürəklərin çoxu bir şirin dilə aldanır,
Amma əsl ağıllılarbir yol, bir kərə aldanır.
Yaxşı ğir cürə aldanır, yaman bir cürə aldanır,
Yalan satanların, inan, ürəyi daşdı,
Ay qızım…
Həyata gəlməyin özü bir aldanışdı,
Ay qızım…
Yalançılıq bu dünyanı başdan-başa tutub gedir,
Çoxlarının ürəyində ümid, inam itib gedir,
İnamsızda yer kürəsi gözlərindən batıb gedir,
Bu aldadır, o aldadır, sanki yarışdır,

Ay qızım,
Həyata gəlməyin özü bir aldanışdı,
Ay qızım…
Zaman-zaman çox aldanıb bizim məmləkətin özü,
Bu boyda ölkənin özü, bu boyda millətin özü,
İblis donunda çox gəlib bizə hürriyyətin özü,
Onunçun da sənin yurdun bu günə düşdü,
Ay qızım,
Həyata gəlməyin özü bir aldanışdı,
Ay qızım…
Təbiət yalan bilməyir,heyvanlar yalpn bilməyir,
Allahlar yalan bilməyir, quranlar yalan bilməyir,
Hətta dilləri zəhərli ilanlar yalan bilməyir,
Harda insan, harda bəşər, orda yalan başdı,
Ay qızım,
Həyata gəlməyin özü bir aldanışdı,
Ay qızım…

1996.

**Məni tonqalda yandırın…**

Nəyimiz var alt-üst oldu,
Bu boyda millət xar oldu.
Bütün yaxşılar pis oldu,
Ümidlər tarı-mar oldu.

Həyat baha, ölüm ucuz,
Qarı düşmən vəhşi, quduz,
Qeyrətimiz, namusumuz,
Tapdandı, payimal oldu…

Bu torpağı addım-addım,
Öz satqınlarımız satdı,
Çoxu da «ağ günə» çatdı,
Sahibi-iqtidar oldu…

Xalqım yurd-yuvasəz qaçaq,
Şuşam yad əllərdə dustaq,
Ondan sonra papaq qoümaq,
Hər bir erkəyə ar olsun…

Qəddim əyri, üzüm qara,
Məmləkətim para-para
Bu davadan bizə qalan,
Min-min nakam məzar olduööö

Əqidədən6 döndü hamı,

Baş girləyir indi hamı,
İçəridən sındı hamı,
Bu ən müşkül azar oldu…

Möhtəkirlər ordu-ordu,
Alverçilər tutub yurdu,
Dükanlardan qala qurduq,
Azəröaycan bazar oldu…

böyükAllah, dahiAllah,
dözmək olmur daha,allah,
şəhid oldu ideallar,
ta dollar ideal oldu…

nə sirdir məni qandırın,
məni tonqalda yandırın,
qoy vətən laləzar olsun…

**Qayıtdılar**

Çox irəli yüyürdülər,
Yenə ilkə qayıtdılar.
Keçmişləri devirdilər,
Yenə ilkə qayıtdılar…

Çağırdılar hürriyyəti,
Çağırdılar, o gəlmədi,
Yenə dünya düzəlmədi,
Ha milləti oyatdılar…

Dil tökdülər kütlələrə,
Baş tutmadı fitnələri.
Tünük moda mütiləri,
Qalın kürkə qayıtdılar…

Küçələrə töküldülər,
Qabardılar, çəkildilər,
Çox-çox təzə fikirlər,
Köhnə fikrə qayıtdılar…

Bir vaxt qaçan ibadətdən,
Din-imandan şəriətdən,
Məhəmmədi ziyarətdən,
Cərgə-cərgə qayıtdılar…

Şimal ilə dostlaşanlar,
Cənub ilə pisləşənlər,
Zaman-zaman ruslaşanlar,
İndi türkə qayıtdılar…

Dəyişdilər sözlərini,
İtirdilər izlərini,
Ha dandılar özlərini.
Axı kökə qayıtdılar…

1993.

**Hansı haqla daşıyırsan bu adı sən…**

Dünya bərqərar olandan bəri ulu insan
adına ləkə gətirənlər və kölgə salanlara
sonsuz nifrətlə

İnsan, səndə insanlıqdan nə qaldı ki,
Quru adın, quru canın, quru qafan…
O yerəcən kiçildin ki, alçaldın ki,
Daha sənə şəkk eləyir meymun baban…

Öz əlinlə tikələdin öz-özünü,
Çox-çox ülvü dəyərlərin talan oldu…
Vaxt var idi bəzəyirdin yer üzünü,
Axır o da heçə döndü, yalan oldu…

Laqeyidləşdin ölənlərə, itənlərə,
Fitnələrə, qana,şərə vərdiş etdin…
Nalələrə,fəryadlara, sitəmlərə,
Qara-qara əməllərə vərdiş etdin…

Vəhşiliyə yaxınlaşdın addım-addım,
Qılınc ilə, nizə ilə fəxr elədin…
Say-hesabsız savaşları sən yaratdın,
Neytronlar, hidrogenlər kəşf elədin…

Cani oldun, cəllad oldun, şeytan oldun,
Sən düzəltdin hər cür fitnə-fəsadı, sən…
Heç bilmirəm daha nəyin insan oldu,
Hansı haqla daşıyırsan bu adı sən?...

Bəşəriyyət parçalandı millətlərə,
Sən ayırdın dinə görə, irqə görə…
Parçalandı dövlətlərə, sərhədlərə,
Bax o haqsız,o amansız fərqə görə…

Heç bundan da ağır günah olarmı de,
Çəkişmələr səngiməyir o zamandan.
O zamandan bəşər olub doğma, ögey,
Bir-birinin ətin yeyir o zamandan…

Yer kürəsi cadar-cadar, çilik-çilik,
O zamandan qanlar axır gündə-gündə…
O zamandan başlanıbdır bədbəxtçilik,
Göy üzündə, yer altında, yer üstündə…

Niyə məni insan doğdun, axı, anam,
Bu heyrətli cəhənnəmə qoydum qədəm?...
Daş doğsaydın yaxşı idi vallahı, anam,
Düzü insan olmağıma xəcalətəm…

Dərdlər bitmir ömür sona çatanda da,
O yanda da ağlayırlar hönkür-hönkür,
Demə, ayrı-seçkilik var o yanda da,
Bəlkə bəniadam olub inkir-minkir…

İnsan, səndə insanlıqdan nə qaldı ki?...
Nə ki, yaxşı şeyin vardı itirmisən…
Görə-görə, baxa-baxa bir kor təki,
Nəyin yoxdu, nəyin vardı itirmisən…

Şahlıq quşu, taxtı-tacın itib sənin,
Dağlar boyda güc-qüvvəni itirmisən…
Ən amansız faciəndə odur sənin,
Ki, insanlıq vəzifəni itirmisən…

Hayıf sənə, bir də, bir də hayıf,hayıf,
İtirmisən çox-çox ulu şakərini.
Ya təzədən meymuna dön kökə qayıt,
Ya da ki, bəd əməllərdən çək əlini…

1995.

**Cabir, bu da azdı sənə**

Niyə doğdu səni ana,
Cabir, bu da azdı sənə…
Nə zövq aldın bu dünyadan
Cabir, bu da azdı sənə…

Yaşamısan göz açandan,
Hər cürə bəd, pis içində,
Qovrulursan öz içində,
Cabir, bu da azdı sənə…

Ərzə qədəm qoyan yerdə,
Bataydı qundağın şərdə.
Hər şey gördün bu əsrdə,
Cabir, bu da azdı sənə…

Nə biclik, nə yalan bildin,
Nə pislik,nə haram bildin.
Sən hamını adam bildin,
Cabir, bu da azdı sənə…

Çox güvəncin sovxa çıxdı,
Cavanlığın dağa çıxdı,
Qara saçın ağa çıxdı,
Cabir, bu da azdı sənə…

Yaxşı oldun yamana da,
Qane oldun yavana da,
Qaç bu zalım zamanadan,
Cabir, bu da azdı sənə…

Ömrün oldu ələk-vələk,
Yollarına yağdı çiçək,
Qamətini əyir fələk,
Cabir, bu da azdı sənə…

Hamı sındı, sən sınmadın,
Durdun, dözdün, sarsılmadın,
Heç nə sənə dərs olmadı,
Cabir, bu da azdı sənə…

Əzablarla yüklənmisən,
Sarı simdə köklənmisən,
Yurdun kimi təklənmisən,
Cabir, bu da azdı sənə…
Şair, bu da azdı sənə…

1995.

## Deyəcəyəm-deyəcəksiz

Çox işlərdə yarımçığıq biz hələ ki,
Düşmən qalıb özümüzə toy tuturuq…
Öz misini qızıl sayır özgələri,
Qızılımızı bizsə misə tay tuturuq…

Yad söz çoxdur bu millətin dilində də,
Yad dil ilə dəfn olunur öləndə də,
Yay fəslində quyruq doğan günündə də,
Bəxtimizə görürsən ki, ay tutulur.

Xanəmizin damı uçuq, daşı qırıq,
Tökdüyümüz zir-zibili daşımırıq,

Əlimiz var qoturumuzu daşımırıq,
Özgələrə yalvarırıq:-vay, qoturuq…

Yollarımız kələ-kötür, mərtəbəli,
Günəşimiz doğur, batır ertə belə,
Otururuq sayılmayan yerdə belə,
Başqaları deyir:-məni say, oturum…

Düz əməldən yalanımız daha boldur,
Almayandan alanımız daha boldur.
Boş-boş zurna çalanımız daha boldur,
Quru sözdən xalqımıza pay tuturuq…

Puldur bizi kölə edən, əsir edən,
Bir də bərk-bərk yapışırıq vəzifədən,
Ayılmırıq heç topların səsinə də,
Özümüzçün bala-bala züy tuturuq…

Yekələr var, çatıhmayır palanları,
Qanmayanlar ağıl verir qananlara,
Bu torpağa, bu vətənə yananları,
Hey əzirik, hey qırırıq, hey uduruq…

Xəyanətdə bizi ötən olmayacaq,
Ədavətlə bizə çatan olmayacaq,
Deyəcəyəm bizdən adam olmayacaq,
Deyəcəksiz bu nə sözdü, qoy oturaq…

1993

**Ah, təmizlik, təmizlik…**

Ah, təmizlik, ah, təmizlik, təmizlik,
Sən də bir cür müsibətsən, bəlasan…
Şən həm bütün dövrlərdə əzildin,
Həm də oldun ümidlərin qalası…

Bircə sənsən xilas üzündə,
Sən bəşəri qurtulmusan həmişə…
Yer-göy bolluq dəryasında üzəndə,
Sən təmizlik qıt olmusan həmişə…

Ah, təmizlik, ah, təmizlik, təmizlik,
Təmiz vicdan, təmiz məslək, təmiz ad…
Təmiz olmaq qorxuludur, qəlizdir,
Riyakarlar say-hesabsız, düzlər az…

Min yol səni natəmizlər qalayıb,

Heç bitib-tükənməmisən sən ancaq…
Daim sənin fəna olub taleyin,
Çox vaxt düzdə tək qalmısan işə bax…

Ah, təmizlik, ah, təmizlik, təmizlik,
Bu gün bütün xilqət tutur yasını…
Yeyir səni möhtəkirlik, hərislik,
Murdar əllər sənə qəbir qazıyır.

Lap az qala qeyb olursan, itirsən,
Boğulursan çirkab adlı dənizdə…
Günəş boyda projektor götür sən,
Gündüz axtar tapılarmı, təmizlər…

Ah, təmizlik, ah təmizlik, təmizlik,
Sən bəşəri tərk eləmə, amandır…
Körpələri südün ilə əmizdir,
Cavanlara, qocalara həyan dur…

Halalları o dünyadan al geri,
Haramları bu dünyadan yox elə,
Odla, yandır heç qalmasın külləri,
Nifrətini, nifrətini çox elə…

Ah, təmizlik, ah, təmizlik, təmizlik,
Hamımızın ən başlıca sifəti…
Bir gör neçə qərinədir, əsirdir,
Sənin ilə ad çıxarıb millətim…

Sən həm onun xoşbəxtliyi deməksən,
Həm də onun faciəsi, pənahı…
Həmi ona sən arxasan, köməksən,
Həm də onun bədbəxtliyi, günahı…

Ah, təmizlik, doğulduğum zamandan,
Gecə-gündüz çağlayırsan qanımda…
Bu dünyadan köçəndə də amandır,
Keşikçi ol məzarımın yanında…

1991

**Qaçır…**

Heyvan insanlardan qaçır,
İnsan heyvanlardan qaçır,
Gözəl fikirdən qaçır,
Yaxşı yamandan qaçır…

Soruşma ki, nə sirrdir,
Çoxu pula əsirdir…
Min ildir, min əsirdir,
Doğru yalandan qaçır…

Qorxaqlar can bəsləyir,
Qəm sevinci izləyir,
Pis yaxşını pisləyir,
Aqil nadandan qaçır…

Bu aləm möcüzədir,
Çox köhnələr təzədir,
Qurd qurdla göz gözədir,
Əqrəb ilandan qaçır…

Yazdır, aləm haydadır,
Dağ selləri çaydadır,
Əsl şair qaydadır,
Allah olandan qaçır…

Nə çoxdur söz deyənlər,
Qızıla mis deyənlər,
Həyatı istəyənlər,
Ölümdən qandan qaçır…

## Sizə güvəndiyim dağlar…

Sizə güvəndiyim dağlar,
Sizə də qar yağdı, qar yağdı…
Sizlə öyündüyüm dağlar,
Sizə də qar yağdı, qar yağdı…

Sizə güvəndiyim dostlar,
O dağların tayı olduz…
Söküldü ömrüm üst-üstən,
Çox illərim hayıf oldu…

Sizə güvəndiyim saçlar,
Siz də ağardınız daha,
Bu yollarda qaldım naçar,
Kimə mən yalvarım daha…

Sizə güvəndiyim gözlər,
Siz də nurdan düşürsünüz.
Sizə güvəndiyim sözlər,
Məni başa düşürsünüz…

Sizə güvəndiyim əllər,

Gücünüz tükəndi, getdi…
Məni məst eləyən dilbər,
Xəyal kimi söndü, getdi…

Sənə güvəndiyim anam,
Tək qoydun aləmdə məni…
Başına döndüyüm anam,
Kim oxşar öləndə məni…

Sənə güvəndiyim dünya,
Barı, sən qara bürünmə…
O dağlar kimi soyuma,
O dağlar kimi görünmə…

## Bir peyğəmbər yaşayırdı aramızda

Qoy kor olsun ürəyiniz,
Gözləriniz,
Bir peyğəmbər yaşayırdı
Aranızda
Görmədiniz…
Soyu sizin soydan idi.
Qanı sizin
Qandan idi…
O xalqıyla bir nəfəsdə,
Canda idi…
Bir ilahi yrək ilə
Doğulmuşdu…
Xətaidən qopmuş idi,
Füzulidən
Yoğrulmuşdu…
Aman, aman o ürəyi
Görmədiniz…
Qoy kor olsun gözləriniz
Onu niyə
Görmədiniz?..
Bizim millət bərk-bərk yatıb
Ayılmayır..
Peyğəmbərlər öz yurdunda
Sayılmayır…
Öz yaxşımız ola-ola daim
Yada yalmanmışıq…
Öz dilimiz ola-ola yad dillərə
Aldanmışıq…
Yad kitablar olub bizim kitabların
Müqəddəsi…
Yad dillərdə dəf etmişik
Ölümüzü nəsil-nəsil…

İçimizdə öldürmüşük yüz imamı,
Peyğəmbəri,
Yad torpaqda axtarmışıq biz imamı,
Peyğəmbəri…
Pay-piyada aylar ilə çıxıb yola,
Gedib ürək yanğımız qərib yerdə
Soyutmuşuq…
Öz soyumuz, öz suyumuz ola-ola,
Yad yerlərdə pak olmuşuq,
Qayıtmışıq…
Öz dərdimiz, faciəmiz
Başdan aşıb,
Özgələrçin hey döymüşük
Dizimizə…
Vəhşilərdə öz qövlünə
Yaxınlaşıb,
Biz yamanlıq axtarmışıq
Özümüzdə…
Rəmz olubdur bizə yadlar
Zaman-zaman,
Başımızı dumanladıb kənar adlar
Zaman0zaman…
Onunçun da bir-birinə
Doğmalığı
İtirmişik…
Ayrılmışıq, bölünmüşük,
Danılmışıq,
Ütülmüşük…
O tay, bu tay,o xalq, bu xalq,
Cənub, şimal…
Bu millətin allah necə
Tayı olar,
Adı olar?..
O tay çoxdan çıxıb bizim
Əlimizdən,
Bu tayın da yarı gedib,
Yarı durur,
Ta nə qaldı
Elimizdən?...
Əsr-əsr gedən bu ikilik
Beş gün deyil,
On gün deyil…
Lap Xətai dura gələ bu milləti
Birləşdirmək
Mümkün deyil…
BMT-lər, başbilənlər, gəlin görüm,
Mənə belə tolan olmuş
Bir millət
Göstərin görüm…

Zaman-zaman yad imama,
Peyğəmbərə
Qibtə edən
Azərbaycan…
Bədbəxt ölkəm Azərbaycan,
Dünən rusa baş əyirdin,
Bu gün türkə
Azərbaycan…
Peyğəmbərsiz dolanırıq peyğəmbərlər
Dövründə də
Peyğəmbərlər yaşasa da, hamımızın
Böyründəcə…

Bir də,bir də doğmayacaq məni anam…

Bu ağ saçlar bir də qara olmayacaq,
Bir də kimsə görməyəcək məni cavanam…
Ötən günə, ömrə çarə olmayacaq,
Bir də məni doğmayacaq daha anam.

Buna yoxdu zərrə qədər güman belə,
Allah göydən ləl-cəvahir, qızıl səpə.
Bu dünyaya dönməyəcək anam belə,
Barı ana yaşayaydı iki dəfə…

Eşq oduna yanmayacaq bir də sinəm,
İlk görüşə düşməyəcək bir də yolum.
Kim dönüb ki, bu dünyaya mən də dönəm,
Hansı ahıl cavan olub, mən də olum?...

Bu cahanda mənim üçün heç bir zaman,
Nə bir əfsun, nə bir sehr olmayacaq.
Gözlərimə durub yüz min mələk baxa,
Mənim üçün heç bir xeyri olmayacaq.

Fani dünya sənə heyif çox inandım,
Ana südü, ölüm suyu əmə-əmə…
İllər ötdü sonra duydum, sonra qandım,
Yuxu imiş, xəyal imiş hər şey demə…

Kiidir verən, kimdir alan bizi belə,
Bu bəşərin ən əbədi dərdi imiş…
Var olmağın, yox olmağın özü belə,
Yaşamağın özü belə şərti imiş…

Yer üzünün çox Həvvası, Nuhu olub,
İnsanlığın say-hesabsız nəsli gedib.
Demə, əvvəl hər millətin ruhu ölür,

Sonra isə canı gedir, cismi gedir…

Bir də mənim açmayacaq çiçəklərim,
Qıratlarım, düratlarım olmayacaq.
Qovmaq üçün arzularım, istəklərim,
Uçmaq üçün qanadlarım olmayacaq…

Pəncərəmdən nur yerinə ta daş gəlir,
Bu da ömrün möhürləri, surcuqları…
Silə bilməz cərrah gələ, nəqqaş gələ,
Üz-gözümə düşən vaxtsız qırışlarım…

Ağ saçlarım birdə qara olmayacaq,
Birdə kimsə görməyəcək mən cavanam.
Keçən ömrə-günə çarə olmayacaq,
Bir də, bir də doğmayacaq məni anam…

## Saymır

Siz hələ dəhşətə, təzada baxın,
Adi pivə satan şairi saymır.
Tamam zəmanən çıxıbdır ağı,
Cüllüdlər, qarğalar şairi saymır.

Çoxalıb namərdlər, ipiqırıqlar,
Sanki ürəklərə qıfıl vurublar,
Şer höccələyən colma-cocuqlar,
Böyük Fizulini, Sabiri saymır…

Bir vaxt bəşər özü bir Allah idi,
Rəiyyət rəiyyət, şah da şah idi,
İndi bir fırıldaq dükan sahibi,
Dükanına gələn dahini saymır…

İnsana nə etsə, məhs insan edir,
Adam var könlü pərişan edir,
Yanında anası ah-fəqan edir,
Doğma anasının ahını saymır…

Əyri qəh-qəh çəkir doğruya, düzə,
Qiymət verən yoxdur yaxşıya, pisə,
Millətlər düşməntək durub üz-üzə,
Bir xalq o birini daimi saymır…

Bir sən sayan vardır, bir fələk sayan,
Şair, ömür keçir, fikirləş, dayan,
Getdi ömür dostun, təkləndin daha,
Ta kimsə bu tənha Cabiri saymır…

**Nə biləydim…**

Nə biləydim, dünya belə dönəcək,
Fələk cövlan edəcəkdir tərsinə…
Çox şey birdən saralacaq, sönəcək,
İndi keçim bu dəhşətli dərsi mən…

Azərbaycan hamımıza bir evdir,
Hamımıza süd veribdir min illər…
Nə biləydim, axı, necə biləydim,
Vətəni də icmalara bölüblər?!.

Ayırırlar doğmalara, yadlara,
Ayırırlar hər ostanı, oymağı…
Şah İsmayıl eşit, gorun çatlasın,
Min bir yerə parçalanıb torpağın…

Nə biləydim, axı, necə biləydim,
Bəlkə elə bildiklərim nağıldır?!
Nə millətsiz vəkilləri görəydim,
Nə də meydan şəbihinə baxaydım…

Vallah, bunlar bir oyuna oxşadı,
Kim deyərdi gələr elə zəmanə?!.
Pislər birdən dönə bilər yaxşıya,
Yaxşılar da dönə bilər yamana…

Nə biləydim, axı, necə biləydim,
Dəyişəcək çoxlarının sifəti?!.
Gərək onda göz yumaydım, öləydim,
O zamankı bütöv idi millətim…

Gərək onda bir tayfuna dönəydim,
Donduraydım sərhədləri, sədləri…
Nə biləydim, axı, necə biləydim,
Bu məmləkət satqınlar da bəsləyir.

Canilər də doğur bəzən analar,
Vətənsizlə çox imiş bu vətəndə…
Bəlkə yad qan yeridiblər qanıma,
Bəlkə neçə bədən var bir bədəndə…

Nə biləydim, axı, necə biləydim,
Çox dirilər çevriləcək ölüyə…
Deyirlər ki, sən də gərək girəydin,
Bu oyuna qoşulaydın sürüyə…

Gərək onda mənliyimi sataydım,
Sındıraydım qələm tutan əlimi…
Yalan qusub min günaha bataydım,
Aldadaydım millətimi, elimi…

Dəyişəydim daxilimi, üzümü,
Neçə cildə, neçə rəngə girəydim…
Şairlər də, demə, satır özünü,
Nə biləydim, axı, necə biləydim?!.

Nə biləydim dünya birdən dönəcək,
Sular birdən axacaqdır tərsinə…
Hətta sözlər saralacaq, öləcək,
İndi keçdim bu dəhşətli dərsi mən…

1993

**Tutur əlimdən**

Karvan kimi ötüb keçib
Ömrümdən çox il,
Cavanlığın nə zamandır
Enib atından,
Elədiyim yaxşılıqlar
Qalmır yadımda.
Xeyirxahlıq toxum idi,
Səpdim dünyaya,
Dedim, bitsin ürəyində
Yaxının, yadın…
Kimə harda əl tutdumsa,
Salmadım saya.
O birdimi, o ondumu
Hesablamadım.
Xeyirxahlıq pul ha deyil-
Hesabla, götür,
O əvəzsiz, o tükənməz
Ürək varıdır.
Bir insanın o birinə
Yadigarıdır.
Adamlara ən dözülməz,
Çətin anda da
Mən əl tuta bilməyəndə
Məlal elədim.
Mən etdiyim yaxşılığı
Qanmayana da
Doğma ana südü kimi

Halal elədim.
Bəzən olur, səhv edirəm,
Bəzən çaşıram.
Görürəm ki, belə çətin,
«bəd» günlərimdə
Elədiyim yaxşılıqlar
Çıxır qarşıma,
Elədiyim yaxşılıqlar
Tutur əlimdən…

1986

**Sağlığında qiymət verin insanlara…**

Bir arzum, ay adamlar, qoyun deyim,
Sağlığında qiymət verin insanlara,
Yaxşılara sağlığında yaxşı deyin,
Sağlığında yaman deyin yamanlara,
Yalnız, yalnız sağ olanda,
Hər kəs əsl qiymətini bilər onda.
Bu sözlərim düz olmasa, töhmət edin,
Sizdən rica eləyirəm milyon kərə,
Şairlərə sağlığında hörmət edin,
Sağlığında heykəl qoyun ölməzlərə…
Gələcəyə çox da ümid bağlamayın,
Sözünüzü sonralara saxlamayın.
Zəhləm gedir sonralardan
Vaxtsız dinən zurnalardan,
Boşboğazdan, avaradan,
Toydan sonra nağaradan.
Sağlığında sevindirin təmizləri,
Siz həyatda bu amalla addımlayın.
Sağlığında ifşa edin xəbisləri,
Satqınlara sağlığında satqın deyin,
Tülkü deyin tülkülərə,
Aslan deyin aslanlara.
Sağlığında qiymət verin insanlara…
Hər kəs bilsin öz yerini
Necə sağdır,
Bu, pislərin həyatını qısaltmaqdır
Yaxşıların həyatını uzatmaqdır…
Bu nədəndir ölən kimi, qəlbimizdə
Adamlara sevgi, hörmət aşıb-daşır.
Ölən kimi yaxşılar da y axşılaşır.
Yamanlar da yaxşılaşır…
Çirkinlər də təmiz olur ölən kimi…
Yadlar belə əziz olur
Ölən kimi…

Xatirələr söyləyirik,
Nekroloqlar qollayırıq,
Hamısını ucdantutma yaxşı deyib
O dünyaya yollayırıq.
Bu gecikmiş xeyir-dua kimə gərək?
Bundan məzar böyüyəcək,
Ya ölənmi diriləcək?
Xoşum gəlmir
Bu köhnəlmiş adətlərdən,
Xoşum gəlmir…
Bu sərdabə sevgilərdən,
Hörmətlərdən xoşum gəlmir.
İstəmirəm vaxt-vədəsiz şöhrəti mən,
Bir an ömrü qızıl ölüm gələ
Dəyişmərəm…
Diri üçün iynə boyda hörməti mən
Ölü üçün min heykələ dəyişmərəm.
Düz deməsəm, onda məni bağışlayın,
Üz tutaram uşaqlara,
Qocalara, cavanlara,
Sağlığında qiymət verin insanlara,
Yaxşılara sağlığında yaxşı deyin,
Sağlığında yaman deyin yamanlara…

1975

**Kiçik olmaq istəyirəm…**

Kiçiklərlə böyüklərin
Arasında
Pərdə olar…
Kiçiklərdə günah olmaz
Günah böyüklərdə
Olur…
Kiçiklərin qəlbi böyük,
Böyüklərin
Qəlbi kiçik...
Kiçiklərin eyni cürdür
Çölü, içi…
Eyni cürdür beşikləri,
Bəzəkləri…
Gizlənpaçdır ən məkrli
Kələkləri…
Maşınları, kuklaları
Əddərində
Oyuncaqdır,
Ürəkləri yazılmamış
Ağ varaqdır…

Uşaq kimi sadə, kövrək,
Nəcib olmaq
İstəyirəm…
İllərimi geri atıb
Kiçik olmaq
İstəyirəm…
Böyüklərin içi bir cür,
Çölü bir cür…
Sözü bir cür, dili bir cür…
Ürəkləri bir qaranlıq
Meşə kimi…
Bir-birinə bənzəməyir
Heç birisi…
Bir-birinə bənzəməyir
Nə ölüsü,
Nə dirisi…
Nə yaxşısı, nə yamanı…
Oyuncaq tək oynadırlar
Bu dünyanı…
Millətləri bələyirlər
Qana, şərə…
Milyonları sövq edirlər
Ölümlərə…
Yollayırlar vuruşlara
Fağırları,
Kasıbları…
Xırdaların çiynindədir
Yekələrin
Əzabları…
Böyüklərin hər şeyi var,
Ürəyi yox
Kiçiklərin qəlbdən özgə
Heç nəyi yox…
Böyük ayrı, kiçik ayrı,
Böyüklər kiçiyi saymır…
Böyük ayrı, kiçik ayrı,
Çoxu kimi nə padşah, nə şeyx,
Nə də hacı
Olmaq istəyirəm…
İllərimi geri atıb
Kiçik olmaq
İstəyirəm…

**Həmişə əli qılınclı təmizliyimi qorudum…**

Həmişə əli qılınclı təmizliyimi qorudum,
Bu həyatda ən birinci təmizliyimi qorudum…
Bu döyüşdə gəlib keçdi hər bir ayım, hər bir ilim,

Qorxutmadı əsla məni nə bir hədə, nə bir ölüm,
Balaca bir şər görəndə qaçdım ondan ilim-ilim,
Bu həyatda ən birinci təmizliyimi qorudum,
Həmişə əli qılınclı təmizliyimi qorudum…

Bütün aləm riyakarlıq girdabında dağılarkən,
Körpə məsum günahsızlar haram östə doğularkən,
Bilə-bilə çoxlu girib girdablarda boğularkən,
Natəmizləri görüncə təmizliyimi qorudum,
Həmişə əli qılınclı təmizliyimi qorudum…

Mən bəslədim daim onu ana uşaq bəslər kimi,
Vicdan kimi, namus kimi, qeyrət kimi, məslək kimi.
Sərvaxt durdum keşiyində bir müsəlləh əsgər kimi,
Öz əziz balamdan öncə təmizliyimi qorudum,
Həmişə əli qılınclı təmizliyimi qorudum…

Bu batində gedən işdir, amma yaman çətin işdir,
Bu ölməkdən çətin işdir, yaşamaqdan çətin işdir,
Hətta vətən, hətta torpaq qorumaqdan çətin işdir,
Bunu dərk edib duyunca təmizliyimi qorudum,
Həmişə əli qılınclı təmizliyimi qorudum…

Saf qaldı ürəyim, şerim, sözüm, evim,duyğum, hissim,
Bütün hiylələrə dözdüm, bütün həmlələrə dözdüm,
Murdarlıq görəndə o an başını bədəndən üzdüm,
Ondan kam aldım doyunca təmizliyimi qorudum,
Həmişə əli qılınclı təmizliyimi qorudum…

Qanımı min yol tökərlər, ayrılsa ətim ətimdən,
Məkiri yaxın qoymaram nə qədər can var bədəndə,
Bir gün gözlərimi yumub köçüb dünyadan gedəndə,
Desinlər Cabir ölüncə təmizliyini qorudu,
Həmişə əli qılınclı təmizliyimi qorudum…

## Ömür evi qaçhaqaç, qovhaqovdur…

Ömür evi qaçhaqaç, qovhaqovdur,
Qoyulubdur tağı, himi yarımçıq.
Çox erkəklər boy-buxundan bütövdür,
Amma əsl kişi kimi yarımçıq…

Çox təknələr çox xəmirlər yoğurub,
Çox arzular bələyində boğulub,
Hər gün saysız bəşər ölür, doğulur,
İnsan azdır, amma adam olan çox…

Dünyaların əzəlidir bu dünya,

Hamımızın məzarıdır bu dünya,
Nəhəng hərrac bazarıdır bu dünya…
Satan çoxdur, verən çoxdur, alan çox…

Çox nəhənglər kölgədədir, daldadır,
Çox zəkalar çətindədir, dardadır,
Hamı durub bir-birini aldadır,
Doğru tək-tək, dənə-dənə, yalan çox…

Düz adamlar səhradadır, düzdədir,
Natəmizlər daim elə üzdədir,
Cahan rüşvət mərəziylə xəstədir,
Halal tamam itib, batıb, haram çox.

Ta çox şeydən əllərimi üzmüşəm,
Riyalardan cana doyub bezmişəm,
Onunçun da insanlardan bezmişəm,
Onunçun da bu dünyayla aram yox,
Yaşayıram daha ayrı çarəm yox…

## Özümə yamanlıq edən adamam…

Bu dövrün adamı deyiləm ki, mən,
Çox köhnə adamam, qədim adamam…
Özgəyə həmişə yaxşılıq edən,
Özünə yamanlıq edən adamam…

Əyilə-əyilə ucalmadım mən,
Kimsəyə tikan da saplamamışam…
Hər kəsin əlindən pay almadım mən,
Heç kəsin haqqını tapdamamışam…

Belə ürəkdə də heç insan olar,
Əsla gəlməmişəm mən öz karıma?!.
Elə ki, əlimdə bir imkan olar,
Zərbə endirərəm imkanlarıma…

Özünə xidməti günah sayıram,
Nəfsimi tuturam, xəbərləyirəm…
Özümü özümdən oğurlayıram,
Xeyrimin yolunu çəpərləyirəm…

Anam deyərdi ki, eynən atamam,
Ona oxşayıram bu xislətimlə…
Özünə yamanlıq edən adamam,
Bacara bilmirəm təbiətimlə…

Çox-çox şansım olub ötürmüşəm mən,

Qibtə eləmişəm düzü özümə…
Seçib bilə-bilə götürmüşəm mən,
Əlanı dostuma, pisi özümə…

Hamı öz xeyrini düşünür əfsus,
Külü qabağına çəkir birinci…
Nə ki dərdlərim var gzümə məxsus,
Yadların sevinci mənim sevincim…

Uyuşa bilmirəm zəmanəyə mən,
Çox köhnə adamam, qədim adamam…
Özgəyə həmişə yaxşılıq edən,
Özünə yamanlıq edən adamam…

Sifətlər görmüşəm, üzlər görmüşəm,
Yenə qorumuşam öz sifətimi…
Nə qədər eqoist kəslər görmüşəm,
Dadmışam çoxunun kin-nifrətini…

Heç xeyirxahlığa məhəl qoymayan,
Kütə, nadana da yaxşı olmuşam…
Məni istəməyən, məni saymayan,
Mənə yamana da yaxşı olmuşam…

Bunun şahididir yadlar, əzizlər,
Bilirlər, tikansız, tıxsız adamam…
Bir özümdən qeyri, özümdən özgə,
Hamıya, hamıya məxsus adamam…

Bu mənim varımdır, mənim yoxumdur,
İstəyim, ümidim, pənahım mənim…
Bu mənim bəlkə də xoşbəxtliyimdir,
Bəlkə bədbəxtliyim, günahım mənim…

Bunu başa düşməz,qanmaz hər yetən,
Babalar yoluyla gedən adamam…
Özgəyə həmişə yaxşılıq edən,
Özünə yamanlıq edən adamam…

1993.

**Bir böhtana cavab**

Yığışıb neçə
Talantsız, paxıl,
Yalanlar qusub
Kəkələdilər,
Mənə də çirkab

Atdılar axır.
Guya məni də
Ləkələdilər…
Nə cavab verim
Bu gədalara.
Gədaya cavab
Vermək gədalıq.
Məndən uzaq et
Bu «xətaları».
Sən ey həqiqət,
Sən ey ədalət…
Allah, mən hara
O kəslər hara,
Onlar qarşımda
Nəçidir, kimdir?...
Mənim cavabım,
Sözüm onlara,
Aydan da arı
Təmizliyimdir.
Sən özün oxu,
Özün poz, pislə.
Bu «yazarların
Yazılarını»
Yamanlıq edə
Bilmirəm əsla.
Allah, özün ver
Cəzalarını…

1992.

Qoruyun məni

Bir üzü2m sevincdir, bir üzüm kədər,
Siz hər ikisindən qoruyun məni.
Bu günü də yola saldım bir təhər
Siz sabahı gündən qoruyun məni.

Ürək var daima həsrətdə olur,
Yaxşı da, yaman da qismətlə olur.
Bu pisə bir təhər dözmək də olur,
Ondan da pisindən qoruyun məni.

Beləcə yaranıb bəşər qədimdən,
Doğulduq analar məhəbbətindən.
Tək bircə onların kin-nifrətindən,
Onların hirsindən qoruyun məni.

Heç zaman raketlər atılmayacaq,
İnsanlıq tükənib qurtulmayacaq.
Bir paxıl, bədnəzər tanıram ancaq
Onun bəd gözündən qoruyun məni.

Bu sözü bəlkə də bir çoxu deyib,
Yaxşıya, yamanın yüz oxu dəyir
İblis də, şeytan da qorxulu deyil,
İnsan iblisindən qoruyun məni.

Həyat nə deməkdir-əzab, işgəncə,
Yaşamaq hər şeydən çətindir məncə,
Bəlkə də cmrümə çəkildi əncam,
Həyatın özündən qoruyun məni.

## Həyatda müyəssər olmayanları…

Uzanıb yatasan göy çəmən
Üstə,
Dünyada bir dərdin,
Qəmin olmaya.
Meh ötə üstündən
Sakit, ahəstə,
Havanın qarğışı,
Təmi olmaya…
Hey ondan çəkçsçn
Ciyərlərinə.
Təbii havayla
Dola ürəyin.
Dalasan göylərin
Sehrlərinə,
Torpağa söykənə
Belin, kürəyin…
Baxasan göylərin
Məsum üzünə,
Görəsən dəstəylə
Uçur durnalar…
Təsəlli verəsən
Özün-özünə,
Ki, hələ dünyada
Müvazinət var…
Var hələ bakirə
Neçə meşə, dağ,
İqlim başdan-başa
Zəhərlənməyib…
Yaşayır təbiət hələ
Sağdı, sağ,
Göydə bir raket də

Ta hərlənməyir…
Qəlblərdən qəlblərə
Billur körpülər.
Ellərdən ellərə
Ayrıca yol var
Nə göydə, nə yerdə
Qara kölgələr,
Nə qorxunc Nevada,
Nə Çernobıl var…
Ürəklər, duyğular
İncədən-incə,
Kinə-ədavətə
Nöqtə qoyulub…
Nə bircə bomba var,
Nə bircə xəncər,
Toplar basdırılıb
Üzü quyulu…
Bir şirin, bir rahat
Yuxu yatasan,
Çıxa ürəyindən
Dərdlər,acılar…
Uşaqlıq çağına
Gedib çatasan,
Cavanlıq dövrünə
Qapı açıla…
İtmiş atan gəlşə,
Anan dirilə,
Təzədən canlana
Uçmuş el-oban,
Qayıda həyata
Doğma ölülər,
Qayıda yoldaşın,
Qayıda baban.
Dönə gəncliyinin
Odlu anları,
Arzular qoynunda
Deyib güləsən.
Həyatda müyüssər
Olmayanları,
Barı yuxularda
Görə biləsən…

* * *

Arzum qalxdı zirvələrə quş təki,
Uçub getdi soraqlaya bilmədim…
O yüyürdü, mən yüyürdüm, amma ki,
Bir yol onu mən saxlaya bilmədim,

Heç arzumu qabaqlaya bilmədim.
Dedim dayan, baxıb güldü o mənə.
Dedim-çəkil, o arxamca süründü,
Uzaqlaşdım yaxın gəldi o mənə.
Yaxınlaşdım necə uzaq göründü,
Onu bir yol mən haqlaya bilmədim.
Heç arzumu qabaqlaya bilmədim.
Adı gəzdi ürəyimdə, dilimdə,
Eşqi ilə gecə-gündüz döyüşdüm…
Heç bilmədim haçan mənim əlimdən
Bir sürüşkən balıq kimi sürüşdü.
Qaçdı, qaçdı heç saxlaya bilmədim,
Heç arzumu qabaqlaya bilmədim.
Hərdən qışı, yayı verdi o mənə,
Hərdən sarı, hərdən yaşıl göründü.
Hərdən fərəh payı verdi o mənə,
Üzdən elə bir balaca sevindim.
Su az oldu pardaqlaya bilmədim,
Heç arzumu qabaqlaya bilmədim.
Yoxuş oldu taleyimin yolları,
Yüz-yüz adam əmək qoydu üstümə.
Dedim xoşbəxt eləyərəm onları,
Açdım çətin qayğılara köksümü,
Heç bir quşu mən saxlaya bilmədim,
Heç arzumu qabaqlaya bilmədim.
Çıxdım mavi ümmanların üzünə,
Girdim qalın ümidlərin qatına.
Dünya yaman yaxşı dəydi gözümə,
Mindim kəhər duyğuların atına
Fəqət onu yaraqlaya bilmədim,
Heç arzumu qabaqlaya bilmədim.
Sözlərimdə şəfəq saçmaq arzusu,
Gözlərimdə yaxşı görmək istəyi,
Qollarımda yaxşıqucmaq arzusu
Bu dünyanı qucaqlamaq istədim
Heç təpəni qucaqlaya bilmədim,
Heç arzumu qabaqlaya bilmədim.

* * *

Azalır məni sevənlər,
Məni sevənlər təklənir.
Azalır «qardaş» deyənlər,
Dərindir bunun kökləri…

Azalır yalan hörmətlər,
Azalır yalan «can-canlar».
Qalır əsl məhəbbətlər,
Qalır həqiqi insanlar…

Öləyir hər şeyi bir-bir,
Zaman düzlük xəlbirində.
Mənim də taleyim gedir,
Ömrüm gedir hər biriylə…

Elə bir duman çəkilir,
Dağların sırası qalır.
Qızılın xıltı tökülür,
Qızılın xalisi qalır.

Elə bil yaram soyulur,
Gedir ağrısı-acısı,
Elə bil ruhum durulur,
Elə bil gözüm açılır…

Gərək hər şey aydın ola,
Ömür gedir, yaş da gedir.
Elə bil ki, bala-bala,
Qanımda saflaşma gedir…

Azalır yalan qiymətlər,
Keyfi, ruhu şad oluram.
Süni mehr-məhəbblətlər,
Torundan azad oluram.

Necə glçüm, görən, necə,
Bu sayaq gəlir-çıxarı?...
Bələləri azaldıqca,
Həyatda sevgim çoxalır,
İnsana sevgim çoxalır…

## Maralgöl sükutu

Maralgölə qonaq getdim yaz vədəsində,
O qızılı, o almazı, o zəri gördüm.
Saç ağartmış qoca dağlar əhatəsində
Səkkiz yüz il cavan qalmış bir pəri gördüm.

Səkkiz yüz il ömrü sürən sulura baxdım,
Aylar, illər, qərinələr bir ucdan keçib.
Elə bil ki, hər damlası min kərə axıb,
Təmizlənib, təmizlənib süzgəcdən keçib.

Bir də orda bir tapılmaz sükut dinlədim,
Az qaldı ki, haray salım, haray qoparım,
Öz-özümə düşündüm ki, mən necə edim,
O sükutdan özüm ilə necə aparım.

O sükutdan mən apara bmlsəydim əgər,
Körpə kimi hey bəslərdim, hey bələyərdim.
Səsli-küylü dünyamıza mən birər-birər,
O sükutdan paylayapdım, səpələyərdim.

Dayanardım keşiyində hər səhər erkən,
O sükutu qoruyardım, yoxlatdırardım.
O sükutu bir təcili yardım kimi mən,
Evimizin qarşısında saxlatdırardım.

Elə mənəm-mənəm deyən boşboğazların,
Bədəninə o sükutdan yeritdirərdim.
Uzun-uzun nitq eləyən boşboğazların
Bədəninə o sükutdan yeritdirərdim.

Şişirdilmiş, haylı-küylü bəzən adların,
Qaöağına o sükutu qoyardım ancaq.
Bir-biridə dil tapmayan ər-arvadların,
Otağına o sükutu qoyardım ancaq.

Yuxusuzluq azarına tutulanlara
Dərman kimi o sükutdan içirtdirərdim.
Ürəyini, əsəbini mən insanların,
Rentgen kimi o sükutdan keçirtdirərdim.

Doldurardım raketlərin lülələrinə,
Yeridərdim tüfənglərin güllələrinə.
Bütün xırda davalara resept kimi mən,
O sükutun nüsxəsini yazardım hər gün.

Bütün hərbi bazaların başı üstündən,
Topdağıtmaz o sükutu asardım hər gün.
Onu ordu eləyərdim,qoşun edərdim
O sükutun gəmisini mavi edərdim,
O sükutun maşınını yaşıl edərdim.

Maralgölə qonaq getdim yaz vədəsində,
Şəffaf idi, büllur idi, diləkli idi.
Bir tapılmaz sükut vardı əhatəsində
Sykutu da təmiz idi, gərəkli idi.

* * *

Arzuların ən yaxşısını buludda,
Ən ün yetməz, ən əl çatmaz diyarda…
Adamların ən bədbəxti həyatda,
Ən xoşbəxti, ən azadı məzarda…

Obaların ən qədimi viranə,
Şəhərlərin ən gözəli zəhərli,
Səni gördüm kor olasan zamana,
Tanımırsan nə namərdi, nə mərdi…

Bu həyatın ən çəkilməz qəm yükü,
Anlayanınkürəyində, belində…
Vəzifənin ən yağlısı, ən kökü,
Nanəcibin, natəmizin əlində.

Oğulların ən igidi qorxuda,
Zəkaların ən nəhəngi qıfıllı…
Bu dünyanı kimlər saldı qırğına,
Sərhəd-sərhəd parçalandı, qırıldı…

Qadınların ən gözəli maşında,
Zər-zibaya, var-dövlətə sadağa…
Könüllərin ən nurlusu pərişan,
Amalların ən nurlusu qadağan…

Qızılların ən xalisi xəsisdə,
Səxavətin ən alisi kasıbda…
Belə-belə qaydaların əzizlər,
Görən kimlər düzəldiblər, yazıblar…

Böyük xalqlar əbədilik hökmran,
Kiçik xalqlar əbədilik zülümdə…
Həqiqətin ən acısı hər zaman,
Mənim dilim-dilim olmuş dilimdə…

Kifirlərin çoxu qəlbən bir mələk,
Gözəllərin çoxu yüngül,quşbeyin…
Xoşbəxtliyi parlayanda neyləmək,
Şairlərə xudadan pay düşməyib…

Yamanların hamı xoşbəxt, hökmran,
Yaxşıların ömrü,günü zülümdə…
Həqiqətin ən acısı hər zaman,
Mənim dilim-dilim olmuş dilmdə…

**Sonetsayağı…**

Murdarın da təmiz olan vaxtı olur,
Papağını qabağına qoyur hərdən…
Mənliyin də bir sızıltı, ağrı olur,
Günahını başa düşür, duyur hərdən…
O öz çirkin xislətindən, peşəsindən,
Elə bil ki, uzaqlaşır bir anlığa…

Ürəyinin ən qaranlıq guşəsindən,
Görürsən ki, baş qaldırır insanlığı…
Baş qaldırır bakir qalan duyğuları,
Üsyan edir, tüğyan edir ara-sıra…
Öz-özünə yalqız qalır,tənha qalır,
Deyinir yox vicdanının qarasına…
Sonra hər şey unudulur, çıxır yaddan.
Qalır yenə o əvvəlki kirli cəsəd…
Elə bil ki, adam yoxmuş belə adda,
Yenə məkr, yenə hiylə, riya həsəd…
Uşaqlığı arzulardan yoğrulmuşdu,
Kim sındırdı bəs qolunu, qanadını…
O, anadan mələk kimi doğulmuşdu,
Murdarlığa sövq elədi həyat onu…
Cəlladın da nəcib olan vaxtı olur.
Qılıncını qabağına qoyur hərdən…
Bu özünə onun ölüm aktı olur,
Az qala öz dərisini soyur hərdən…
O öz cəllad peşəsindən, xislətindən,
Elə bil ki,uzaqlaşır bir anlığa…
Ürəyinin ən qaranlıq guşəsindən,
Lap az qala zühr edir insanlığı…
Bir balaca adam olur müvəqqəti…
Öz zərbəsi əzir onu, boğur onu,
O düşünür: özü qatil,qılınc iti,
Öz tişəsi kəsəcəkdir axır onu…
Sonra hər şey yaddan çıxır, unudulur.
Yenə əmr: edam elə, işə başla…
Yenə həmin cəllad haqqı,cəllad pulu,
Yenə qılınc, çiyinlərdən uçan başlar…
Ana onu necə məsum bəsləmişdi,
Necə təmiz doğmuş idi balasını…
Uşaqlıqda qarışqa da əzməmişdi,
Baş kəsməyə sövq elədi həyat onu…
Qafil insan, bu aləmi duy dərindən,
Biz anadan saf, günahsız doğuluruq…
Xəmirləyir həyat bizi əllərində,
İstədiyi kimi əzir, yoğurur o…

**Əgər yerdə tapılmasa…**

Qənd axtarır, ət axtarır bu gün hamı,
Mənsə çıraq axtarıram çıraq ilə…
Tək onadır son ümidim, ilk inamım,
Harda görsən onu mənə papaq elə…
Gəlim birbaş hüzuruna uça-uça,
Neçə əlli tutum onun ətəyindən.
Çoxdan acam bir təbii insan acı,

Neyləyirəm onsuz suyu,çörəyi mən…
Bəlkə mənim gördüklərim bir yuxudur,
Qoy yaxşılar qalxsın onda məzarından…
Dünyamızda bu gün insan qıtlığıdır,
Bu gün kütlə bolluğudur yer şarında…
Əhalinin milyardlardır say-hesabı,
Amma çoxu cəsəddilər, fiqurdular…
Mənsə insan axtarırım qapı-qapı,
Yoxsa tamam tükəndilər, yox oldular…
Nanəciblər gözə girir tikan kimi,
Nanəciblərin azalmada sayı gündə…
Harda vicdan sahibləri, tükəndimi,
Vay o xalqa, o millətə, vay o gündən…
Əsl insan axtarıram, əsl insan,
Fərq qoymuram millətinə, lisanına…
Eləsini arayıram əmması yox, bəlkəsi yox.
Əsli olsun, nüsxəsi yox, kölgəsi yox…
Dərviş kimi dolaşıram diyar-diyar,
Oba-oba, şəhər-şəhər axtarıram…
Bu həsrətdə olan kəslər məni duyar,
Gündüz, gecə, axşam, səhər axtarıram…
Məzarlara baş çəkirəm, tabutlara göz qoyuram,
Məcnun kimi səhlərələ üz qoyuram,
Hətta durub heyvanların arasında arayıram,
Paralanmış ürəyimin yarasında arayıram,
Dolaşıram qatar ilə, gəmi ilə, ayaq ilə,
Yaşayıram bu heyrətli maraq ilə,
Axtarıram anasını itirən bir körpə kimi,
Torpağını itirən bir millət kimi, ölkə kimi.
Ey yaxşılar, harayıma haray verin,
Gəlin, sizə ürəyimdə bir işıqlı saray verim…
İndi əsl insanlar da naz-nemət tək yoxa çıxıb,
Bəlkə yaxşı heç olmayıb, elə quru adı çıxıb…
Bəlkə ocaq keçib, sönüb,kösövünü, kötüyünü
Axtarıram…
Tapdığımı itirmişəm, itiyimi axtarıram…
Axtarıram ayağımda polad çarıq, əllərimdə
Dəmir əsa,
Allah, göydən göndər mənə əgər yerdə tapılmasa.

1994

**Ya təzədən yarat ya da…**

Aləm düşdü gözlərimdən,
Mən aləmi dərk edəndən…
Əsir oldum öz əlimdə,
Mən aləmi dərk edəndən…

Gördüm həyat bir oyuncaq,
Gördüm hər şey qurğu imiş…
Qanmaq, bilmək, görmək, duymaq,
Özü böyük qorxu imiş…

Lal sükutu başa düşdüm,
Çox lisanı anlamadım…
Qurdu, iti başa düşdüm,
Tək insanı anlamadım…

Biri yasda, biri gülür,
Qarı dünya, utan dedim…
Bu həyata sürü-sürü,
Adam gəlir, adam gedir…

Bütün dünya qəbristanlıq,
İnsanın da qəbri olar?..
Pozuram Allah yazanı,
Allah, belə əmr olar?..

Onda eşit sözümü sən,
Sən Allahsan, bizsə bəndə,
Bir yol göstər üzünü sən,
Özümə inanım mən də…

Zühur elə bircə kərəm,
Onda mən də zühur edim…
Ömrüm boyu nahaq yerə,
Mən adına Allah dedim…

Gör nə boyda fitnə, kələk,
Yetər daha, əri, usan…
Özün kimi bizi demək,
Əfsanədən yaratmısan…

Aldanmışıq sənə bəsdir,
Yaman Allah, yalan Allah…
Belə dünya yaratmazdı,
Əsl Allah olan, Allah?..

Yetər uddu həyat bizi,
Qadirsənsə cavab ver…
Ya təzədən yarat bizi,
Ya özümə xitam ver…

**Nə böyük səadət varmış, dörd divar içində…**

Nə ki, gücüm vardı yığdım,
Minlərlə lal-kar içindən…
Axır ki, siyrilib çıxdım,
Pislər, murdarlar içindən…

Gəldim əsl haqqa, yola,
Xilas oldum fitnə-şərdən…
Özüm bəşər ola-ola,
Ayrıldım cinsi-bəşərdən…

Hərəni yaşayır gördüm,
Bir qurd-canavar içində…
Özümü elədim sürgün,
Bu həşəratlar içindən…

Təzədən açdım gözümü,
Elə bil ki, zühur etdim…
Pak elədim üz-gözümü,
Min-bir kərə qüsl etdim…

Baxdım ki, adam adamı,
Satır lap məzar içində…
Mahir alverçiymiş hamı,
Qaçdım bu bazar içindən…

Tamam ayrı insan oldum,
Öz keçmişimdən əl çəkdim…
Təklikdən xaniman qurdum,
Hər yanıma çəpər çəkdim…

Cana gəldim yaza-yaza,
Evim istehkamım oldu.
Bir qələmim, bir də masam,
Bir də ki, ilhamım oldu…

Tənhalıqda nicat varmış,
Yox dərd, intizar içimdə…
Nə böyük səadət varmış,
Allah, dörd divar içində…

**Pulu olmayanı saymırlar, oğlum**
*Əzizim Müşviqə.*

Pulla qiymət verir hamı insana,
Pulu olmayanı saymırlar, oğlum.
Eh, saymaq, sayılmaq qalsın bir yana,
Heç adam yerinə qoymurlar, oğlum.

Lap düha olasan, ulu olasan,

Peyğəmbər olasan yoxdur mənası.
Gərəkdir altunun qulu olasan,
Bu xarabə dünya onun dünyası.

Sən mənə hörmətli bir kasıb göstər,
Pulu olmayanı saymırlar, oğlum…
Bu parapərəstlər, dövlətpərəstlər,
Elə hey udurlar, doymurlar, oğlum..

Yoxsulun qanıdır varlının varı,
Yuyunub bu qanda quduzlaşırlar…
İstər dağlar qədər olsun vüqarın,
İmkansız olanda ucuzdaşırsan.

Pul da sahibinə kəsilir qənim,
O heç bir həpəndə qismət olmayır,
Hərə bircə kəfən aparır cəmi,
Kiminə kəfən də qismət olmayır…

Amma yenə hökm onun əlində,
Pulu olmayanı saymırlar, oğlum…
Eh, saymaq, sayılmaq nədir, öləndə,
Az qala qəbirə qoymurlar, oğlum…

Pullu olmaqçın da gərəkdir ki, sən,
Əzazil olasan, cəllad olasan.
Gərəkdir insanı insan eyləyən,
Bütün duyğulardan azad olasan.

Gərək cib kəsəsən, ömür sökəsən,
Lap baş da üzəsən yeri gələndə,
Elə var yığdıqca vəhşiləşəsən,
Canavar xisləti yaşaya səndə…

Bütün möbhtəkirlər quduz olurlar,
Nəciblik, insanlıq bilmirlər, oğlum…
Qəlbi olanlar da pulsuz olurlar,
Pülsüz ürəyi də görmürlər, oğlum…

Bizim də yırtıcı xislətimiz yox,
Biz vardat əsiri olmadıq heç vaxt.
Ulu Tanrıdan da qismətimiz yox,
Biz həmi bədbəxtik, biz həmi xoşbəxt…

Sözü də saldılar qiymətdən daha,
Heç Füzulini də duymurlar, oğlum…
Nifrət belə dövrə, belə dünyaya,
Pulu olmayanı saymırlar, oğlum…

Hara baş götürüb qaçaq, de, hara,
Ki, orda insanlıq hökmran olsun.
Ki, izzət, ləyaqət dönsün meyara,
Düzlük, bərabərlik şərəf, şan olsun…

İnsanlar olmasın altun əsiri,
Hakim kəsilməsin doğruya oğru…
Bəşərin ən iyrənc faciəsidir,
Pulu olmayanı saymırlar, oğlum…

1994

**Ay Əbülhəsən…**

Qar düşdü yerlərə, soyudu torpaq,
Bayırda şaxtadır, ay Əbülhəsən!..
Gedək canımızı qızdıraq bir az,
Ta xaşın vaxtıdır, ay Əbülhəsən!..

Hər dəmin, məzənin var öz mənası,
Onu başa düşməz hər nadan, naşı,
Aslan dostumuzun yeməkxanası,
Xaşın paytaxtıdır, ay Əbülhəsən!..

Bir vaxt küpə girib araq vuranlar,
İndi yapışıblar hacdan, Qurandan.
Mən elələrinə əsla inanmam,
İçləri saxtadır, ay Əbülhəsən!

Bu gün dindən deyir dünənki dinsiz,
Bu gün «mələk» olub dünənki iblis,
Haqqı ortalığa gəlin qoyaq biz,
Görən kim haqlıdır, ay Əbülhəsən!..

Simasız simalar nə qədər bolmuş,
İnsanda əmmalar nə qədər bolmuş,
Sirrlər, müəmmalar nə qədər bolmuş,
Dünyanın axırıdır, ay Əbülhəsən!..

Çox-çox əqidələr dönüb, dəyişib,
Sənsə bir amalda oldun həmişə,
Bununçun deyirlər o əsl kişi,
O əsl dağlıdır, ay Əbülhəsən!..

Gəzir qayalarda uşaqlığımız,
Ordan əxz elədik bu saflığı biz,
Bizim məsləkimiz, qardaşlığımız,
Dağlara bağlıdır, ay Əbülhəsən!..

1994

## Bulaq suyu, dağ havası

İki kəlmə, adi, sadə,
Bulaq suyu, dağ havası.
Uzaq düşdük bu dünyada,
Bulaq suyu, dağ havası…

Uşaqlığım qaynar oldum,
Şirəsini sizdən tutdu…
Siz piyada, mənsə atlı,
Bulaq suyu, dağ havası.

Nəğməm sizdən havalandı,
Şerim sizdən cilalandı.
Qanım sizdən mayalandı,
Bulaq suyu, dağ havası.

Minib polad təkərlərə,
Çıxdıq uzaq səfərlərə.
Tökülmüşük şəhərlərə,
Bulaq suyu, dağ havası.

Dayı getdi, əmi getdi,
Ömrümüzün çəmi getdi,
Ağzımızın təmi getdi,
Bulaq suyu, dağ havası.

Zirvələrin başı qarlı,
Meşələrin içi barlı,
Ay kökünə etibarllı,
Bulaq suyu, dağ havası.

Yoxuş yoran çağım hanı?
Daşdan ağır yuxum hanı?
Həsrətimin qəhrəmanı,
Bulaq suyu, dağ havası.

Şəhər orda, oba burda,
Övlad orda, baba burda,
Ömür çapır iki yolda,
Bulaq suyu, dağ havası.

**İlk dəfə**
*(şer-nağıl)*

İlk dəfəydi bu dünyaya gəlirdim,
Dişinə vururdun məni ilk dəfə…
İlk dəfəydi yeri-göyü görürdüm,
Əvvəl çıxdı qabağıma ilk təpə…

Qalxdım onu bir nəfəsə, bir yola,
Sonra dəydi sifətimə ilk külək,
Sonra mənə həyat verdi ilk sual,
Sonra mənə qənim oldu ilk fələk…

Evimizə şivən düşdü ilk dəfə,
Atam bizi tərk elədi bir səhər…
Gördüm onda mən ilk tabut, ilk kəfən,
Bu dünyadan o dünyaya ilk səfər.

Sonra daddım ilk sevginin dadını,
Düşdüm mən ilk məhəbbətin bəndinə…
Duydum onun soyuğunu, odunu,
Ürəyimi etdi həsrət, qəm binə…

Qapımızda bir gün qurban kəsdilər,
Mən qan gördüm gözlərimlə ilk dəfə,
Elə bil ki, ümidimi üzdülər,
O qan çəkdi çox arzuma ilk çəpər…

İnsanları saf, müqəddəs sayırdım,
Hamıya da inanırdım ürəkdən…
Elə bil ki, yuxudaydım ayıldım,
Zərbəsini daddığım ilk kələkdən…

Mən özüm də bəzən çaşdım, tələsdim,
Çıxdı birdən əllərimdən ilk xəta…
Az qalmışdı düşəcəkdim üz üstə,
Tutdu bərk-bərk qolarrımdan bir adam.

Qalxıb durdum, nəfəs aldım dərindən,
Yaxşılığın gücün daddım ilk dəfə…
İlk dəfəydi bu dünyaya gəlirdim,
Dünya məni tutub atdı ilk dəfə.

Min yol çəkdi imtahana, sınağa,
Heyrət etdim bu qəribə nağıla…
Əvvəl onu görməmişdim mən, axı,
Əvvəl insan olmamışdım, axı, mən…

Hər kəs gələr bu həyata bir dəfə,
Hər kəs gedər bu həyatdan bir kərəm…
Qayıtsaydım bu həyata bir də mən,

Günahlarım az olardı bəlkə də…

1994

**Allaha yalvarış…**

Allah, insan yolun azıb, tamam gedir əldən, Allah,
Qaytar onu bu yaramaz yoldan, Allah,
Öz əliylə qəbir qazır özünə o,
Öz-özünü edib insan özünə ov…
Böyük insan dönüb olub kiçik insan,
İnsan qanı içir insan…
Sənə olum qurban, Allah,
Qaytar onu bu qorxulu yoldan, Allah.
Sən gətirdin hamımızı bu cahana,
Sən həm ata, sən həm ana
Sən etmisən xilqət bizi,
Sən qadirsən bu bəd yoldan döndərməyə əlbət bizi…
Səndən ayrı güman yoxdu,
Səndən ayrı heç qüvvəyə inam yoxdur…
Nəyə gərək say, hesabsız sürü, Allah,
Çox-çox ölü, diri, Allah,
Su tükənir, çörək qıtdır, hava çatmır,
Xəstələrə iynə, dərman, dava çatmır…
Qoyma yesin bir-birini, bəni-adəm vəhşi olsun.
Qoy az olsun, yaxşı olsun…
Qonşumuzda neçə milyon yırtıcı var bəs deyilmi?
Elə onlar dünya üçün az deyildir…
Tələs, sonra gec olacaq,
Yoxsa insan quduzlaşıb, gic olacaq…
Yoxsa tamam gözlərinə qan gələcək,
Axır zaman gələcək…
Səsini kəs xəbislərin, yamanların,
Ələ bütün insanları…
Hamını qıl körpüsündən keçir, Allah,
Çölə çıxar murdarların için, Allah…
Sənin buna ixtiyarın, iqtidarın çatır, Allah.
Ey hər şeyə qadir Allah…
Yalvarıram sənə, Allah,
Yoldan çıxsam hətta susdur məni, Allah…

***

Əsrimizin faciəsi
Nə atomdur, nə də uran,
Əsl dəhşət ondadır ki,
İnsanlıqdan çıxıb insan…
Olub cəllad, olub vəhşi,

Olub dəni…
Kəsilibdir öz-özünə
Düşmən, qənim…
Günah olar insan deyək ona daha,
Mağaradan gəlmiş idi
Dönüb yenə mağaraya…
Öz əli ilə öz başına
Kül ələyir,
Anasını topa basır,
Atasını güllələyir…
Azğınlaşır günü-gündən,
Bu gün insan böhranıdır,
Yer üzündə…
Kütlələrin itib tamam
Say-hesabı,
Mənsə insan axtarıram
Küçə-küçə, qapı-qapı…
O da azdır qızıl kimi
Misqal-misqal, dənə-dənə…
Haray-həşir qoparıram
Dönə-dönə,
Əsrimizin faciəsi
Nə atomdur,
Nə uran,
Atomu da, uranı da yaradıbdır
Özü insan…
Öz-özünü qırmaq üçün
Görün nələr
Kəşf eləyib…
Öz-özünə qəsd eləyən
Bir vəhşiyə
Bəs nə deyim?..

1994

## O bütün canlılara müştəridir

### İnana bilmirəm

İllərim ötüşür karvanlvr təki,
Gah səhər görürəm, gah da ki, axşam…
İnana bilmirəm ki, gün gələcək ki,
Mən də bu dünyada olmayacağam.
İnana bilmirəm bu həqiqətə,
Ölüm dediyimiz əbədiyyətə.
Onlarla tanışlar ötürmüşəm mən,

Çiynimə tabutlar götürmüşəm mən.
Nə qədər adamı dəfn eləmişəm,
Bacım, atamı dəfn eləmişəm.
Yüz yol alışmışam, odlanmışam mən,
Fəxri qaraulda dayanmışam mən.
Nə qədər ömürlər suala dönüb,
Körpələr yox olub, xəyala dönüb.
Bir göz qırpımında itib adamlar,
Sağımdan, solumdan gedib adamlar.
Hey ürəyim qəmli, hey qanı qara,
Baxmışam sahilsiz qəbioistanlara.
Ulduzlar sanında məzar görmüşəm,
Yenə də özümü ölməz bilmişəm.
Heç inanmamışam gün gələcək ki,
Mən də köçəcəyəm milyonlar təki.
İnana bilmirəm bu həqiqətə,
Ölüm dediyimiz əbədiyyətə.
Sanıram üstümə ölüm gələndə
O mənim köksümü söküb dələndə,
Hər cürə həkimdən, loğmandan əvvəl,
Öz sevgiləriylə, istəkləriylə,
Mənə «Ata, Ata!» deməkləriylə.
Öz baxışlarıyla, öz səsləriylə,
Öz isti,mehriban nəfəsləriylə,
Məni balalarım sağaldacaqlar,
Ölüm zülmətindən çıxardacaqlar.
Sanıram o çətin anımda mənim,
Dostlarım dayansa yanımda mənim.
Sorsalar: «Necəsən?» o əzizlərim,
Təzədən yanacaq sönən gözlərim,
Onlar əllərindən yapışan kimi,
Durub gəzəcəyəm bir cavan kimi,
Mənə elə gəlir ən son nəfəsdə,
O cəllad duranda başımın üstə,
Sözlərim meydana gəlib ər kimi,
Çarpışıb, vuruşub igidlər kimi,
Gücünü, əzmini bildirəcəklər,
O qara kabusu öldürəcəklər.
Mənə elə gəlir ölüm gələndə,
Bir haray düşəcək o doğma kəndə,
Eşidib bilənlər yüyürəcəklər,
Onu boğazlayıb sürüyəcəklər,
Mənim küləklərim tüğyan edəcək,
Mənim çiçəklərim üsyan edəcək.
Mənim qartallarım millənəcəklər,
Mənim laylalarım dillənəcəklər.
Çəpərə dönəcək bənövşələrim,
Qalxacaq ayağa göy meşələrim.
Adamlar, küləklər, qayalar, dağlar,

Məni bu həüata qaytaracaqlar.
Mənə elə gəlir varlığım, canım,
Loğmanlar loğmanı Azərbaycanım.
Ürəyi istəsə diriləcəyəm,
Mənə oğul desə diriləcəyəm…
İllərim ötüşür karvanlar təki,
Gah səhər görürəm, gah da ki, axşam.
İnana bilmirəm gün gələcək ki,
Mən də bu dünyada olmayacağam.
Belə qurulsa da bəşər, kainat,
Gözüm görə-görə hər gün, hər saat,
Min ömür çatsa da sona, insanlar!
İnana bilmirəm bunu, insanlar!

**Anam, can vermə, can vermə…**

Əziz anam, canım, gözüm,
Anam, can vermə, can vermə.
Qoy laylanı deyim özüm,
Laylam, can vermə, can vermə.

Sənsiz ömrü talan ollam,
Qəm mizrabın çalan ollam,
Can alanın canın allam,
Allam, can vermə, can vermə.

Əl-ayağın buz olsa da,
Bədənin köz-köz olsa da.
Dərdin əlacsız olsa da,
Loğman, can vermə, can vermə.

Quruca nəfəsin, sözün,
Havam, suyum,əzmim gücüm,
Sən dünyasan mənim üçün,
Dünyam, can vermə, can vermə.

Al mənim qalan ömrümü,
Al mənim bala ömrümü,
Ömrünə cala ömrümü,
Cala, can vermə, can vermə.

Odlayır göyləri ahım,
Ümidim, arxam, pənahım,
Mənə can verən allahım
Canım, can vermə, can vermə,
Anam, can vermə, can vermə…

11 yanvar 1987.

**Yaxşıların itkisinə dözə bilmirəm…**

Zülmət çökdü
Göylərimin asimanında,
Daşa dəydi,
Arzum yenə, inamım yenə…
Yaxşıların
Bu az, öu qıt, yox zamanında,
Bir yaxşı da
Tərk elədi dünyanı yenə…
Nanəciblər
Göbələk tək çoxalır gündə,
Nanəcibləri
Tapmaq olmur gündüz çıraqla…
Ləyaqətin
Qıt vaxtında, qıt vədəsində,
Bir ləyaqət
Sahibi də yox oldu,Allah…
Yaxşıların
İtkisinə dözə bilmirəm,
Bir işıqlı
Ürək yenə torpağın oldu…
Elə bil ki,
Kasıblaşdı bu boyda aləm.
Elə bil ki,
Üfüqlərdə söndü bir ulduz…
Neyləyirəm
Belə dövrü, belə bir əsri,
Hər tərəfi
Bürüyübdü bədlər, yamanlar…
Yaxşıların
Mamont kimi tükənir nəsli,
Ta qırmızı
Kitablara düşürlər onlar,
Yaxşı üçün
Hara gedim, kimə yalvarım,
Həyat durur,
Dünya durur yaxşı durunca…
Ya xudaya,
Özün hifz et xeyirxahları,
Ya xudaya,
Yamanlara özün çək əncam…

**Hamıya müştəridir…**

Gecə-gündüz qıcıyan üstümüzə,

Azman əzrayılın dişləridir…
Ölüm əfv eyləməyib bircə kəsi,
O bütün canlılara müştəridir…

Zir-zibildən törəyən milçəyə də,
Körpəyə, gəncə, hər ağbirçəyə də,
Yeddi qardaşa, təkə, bircəyə də,
Dəliyə, kara, kora myştəridir…

Sürünənlər, yeriyənlər ona ram,
Göydə cövlan eləyənlər ona ram,
Ulayanlar, mələyənlər ona ram,
Kəkliyə, leyə, sara müştəridir…

Canlı ilə okeanlar doludur,
Can alan canilər hətta quludur,
Hətta o divlər üçün qorxuludur,
İblisə, cadugərə müştəridir…

Ya şir olsun, ya pələng, ya canavar,
Ona can verməli kim ki canı var.
Adicə bir b.cəyin son anı var.
İlanı hətta çalan müştəridir.

Tülkünü hətta salar öz toruna,
Kimdə cürət çatar ondan qoruna.
Həm bu dünya, həm bu dünya qul ona,
Həm ora, həm də bura müştəridir…

Balaca sərçədə bilməm nə günah,
Qanadı zər kəpənək də solur, ah.
Aparır ya gəda olsun, ya da şah,
Xəbisə, fitnəkara müştəridir…

Heyfi gəlməz ən ulu dahilərə,
Can alan, işvə satan ahulara,
Nəfəsindən hamımız vahimədə,
Pislərə, yaxşılıra müştəridir…

Çəkilir ondan hələ şeytan özü,
Əmri ilə yox olur loğman özü,
Analar dəfn eləyər, doğmaz özü,
Həm də övladlara müştəridir…

Əzrayıl hökmləri ondan alar,
Gündə min yol əlinə qandal alar,
Gözü doymaz nə qədər canlar alar,
Sürüyər qəbrə, gora müştəridir…

Məhv olar dünya əgər olməsa l,
Yer uçar, göy mələyər olmasa o,
İnsan insanı yeyər olmasa o,
Nə gözəl canlar alan müştəridir.

Nə vəzifə, nə də altun tanıyar,
Eyni gözlə hamıya baxmağı var,
Tək odur ərzdə ahəng yaradan,
Gör necə ülvi, halal müştəridir…

1994.

**Hələ ki, sağam, gəl, gör məni…**

Sanki yer adamı deyiləm,
Olsa da o mənim yurd-yuvam…
Olmaya bəlkə də deyirəm,
Gəlmişəm bir ayrı dünyadan…
Sürüdür kütlələr sürüyə,
Heç cürə uyuşa bilmirəm…
Çoxu tək cildimi göz görə,
Nə edim, dəyişə bilmirəm…
Bircə mərdanəlik qanıram,
Bir də ki, bağlıyam tanrıya…
Nə qulluq, nə altun tanıram,
Nə fitnə, nə biclik, nə riya…
Nə əyri əməllə işim var,
Nə də bəd niyyətlə tanışam…
Az deyil, altmış yaşım var,
Bir böcək də basdamamışam…
Qəddarlıq gəlməyir əlimdən,
Əməlim işimdən bilinir…
Bir yalan söz çıxa dilimdən,
O günü kəsərəm dilimi…
Haqqa lap min kərə əyiləm,
Haqq ilə ölçürəm hər işi…
Sanki yer adamı deyiləm,
Ayrı planetdən gəlmişəm…
Milyonla insanın içində,
Az qala ürəyim çatlayır…
Bu boyda cahanın içində,
Vaxt olur heç havam çatmayır…
O qədər boldur ki, satqın, xam,
Hansından özümü qoruyum?..
Sahilə atılmış balığam,
Düşmüşəm nadanlıq toruna…
Qaçıram qurtula bilmirəm,
Dururam yetməyir dözümüm…

Hamı tək mən ola bilmirəm,
Qəsd edə bilmirəm özümə…
Adamlar qızıla qul, kölə,
Adamlar vəzifə dəlisi…
Alınır, satılır pul ilə,
Xilqətin minlərlə pərisi…
Hər şeyi hərraca qoyublar,
Hamının məsləki gibində…
Düzlərin dərisin soyurlar,
Başların kəsirlər dibindən…
Yaxşılar tez gedir dünyadan,
Əlləri hər şeydən üzülü…
Düzəlməz bu aləm heç zaman,
Düzəlməz, çürükdür özülü…
Min kərə bulanıb qanına,
Qan ilə bələyi bələnib.
Vəhşilik minibdir qanuna,
Vəhşilər bəşəri talayır…
Enmişəm göylərdən bəlkə mən,
Bəlkə də dəryadan gəlmişəm…
Allahım, bəlkə sən deyəsən,
Deyəsən mən hardan gəlmişəm?..
Nəfsim hər şeydən tox mənim,
Butun kasıblarla ortağam,
Bircə manatım yox mənim,
Axirət gününə qoymağa…
Bilirəm, çoxuna indi mən
Gülməli gəlirəm, gülməli…
Əsl insan görmək istəsən,
Necə ki, sağam, gəl, gör məni…

1994.

**Fələk sayır, mən sayıram…**

*Rəhmətlik anam həmişə dara düşəndə deyərdi: - Sən saydığını say, gör fələk nə sayır…Anamın bu kədərli nəğməsi uzun illərdir qulağımda hey səslənir…*

Bu dünyaya göz açalı
Fələk ilə
Döyüşdəyəm,
Vuruşdayam…
Çox fələyə yalvarmışam,
Bir yol mənlə
Barışmayıb…
Bir yol mənə rəhm etməyib,

Hətta mənim şair sözüm
Daş qəlbini
Kövrəltməyib…
Batmanımı çərək edib,
Elə bil ki, doğulandan
Fələk məni
Kölə edib…
Bu həyata göz açalı
Mən sayıram,
Fələk sayır,
Bu saymaqdan yığılmışam
Cana daha..
Fələk sayır, mən sayıram,
Mən sayıram,
Fələk sayır,
O sayanlar olur daim,
Mən sayanlar
Baş tutmayır…
Mən sayanlar heçə dönür,
Boşa çıxır,
Eh, fələyin əməlindən
Nə kimsənin
Ağlı kəsir,
Nə kimsənin başı çıxır…
…Uşaq idim bu həyata
lap yenicə
göz açmışdım.
Yaşamağa lap təzəcə
Alışmışdım.
Atam vardı dağ cüssəli,
Bir igid, ər…
Cavan, sağlam,
Zəhmətsevər…
Körpə idim, o arxamda
Dağdı mənim.
Fələk bir gün o dağımı
Yıxdı mənim…
Yerlə-yeksan etdi-
Fələk,
Anam fəğan etdi-
Fələk,
İndi şadlan,
Sevin səni,
Evimizi viran qoydun,
Viran qalsın
Evin sənin…
Bu fələyin kələyindən
Yığılmışam
Cana daha.

Fələk sayır, mən sayıram,
Mən sayıram,
Fələk sayır…
Fələk daim haqlı olur,
Mən sayanlar xəyal olur,
O sayanlar
Doğru olur…
Gecə-gündüz, səhər-axşam,
Mən sayıram, fələk sayır,
Fələk sayır,
Mən sayıram.
… Övladlarım doğuldular,
Ata qədbim
Ümman oldu…
Fələk deyən olmadı ta
Bu dəfə
Mən sayan oldu…
Ogul toyu elədim ki,
Gəlin gəlsin
Evimizə…
Bu dəfə də görünmədi
Fələk gözə…
Nəvəm olar, nəslim artar,
Dedim mən də
Fələk dede:-dayan canım…
Fələk dedi:-necə-necə?
Məhv elədi nəvəmi o,
Anasının
Bətnindəcə…
Batdı günüm, soldu ayım,
Nə zamandır, bax, beləcə
Mən sayıram,
Fələk sayır…
Nə zamandır, bax, beləcə,
Səhər-axşam.
Fələk sayır,
Mən sayıram…
…Mən dedim ki, ömür yolu
uzun yoldur,
Ayı çoxdur,
İli boldur…
Qocalanda ömür dostum
Baxar mənə…
Fələk dedi-
Nə dedin, nə?
Lap yolunu
Azdın daha,
Aldı ömür yoldaşımı
Əllərimdən

Baxa-baxa…
Bu dünyaya göz açandan
Bax beləcə,
Gecə-gündüz,
Səhər-axşam,
Mən sayıram, fələk sayır,
Fələk sayır,
Mən sayıram.
Fələk deyən olur
Hər vaxt,
Sən fələkdə
Qüvvəyə bax…
Lap fələyin əllərində
Qul olmuşam,
Mən sayanlar
Xəyal, yuxu,
O sayanlar
Ağır, baha…
Daha heç bir
Sözüm yoxdur,
Ta saymaqdan
Yorulmuşam,
Yetər, fələk
Saydığını
Saydın daha…

**Zühur eyləmişəm…**

Şer üçün öz-özümü çoxdan
Əsr eyləmişəm…
Balaca iş masamı
Qələ qəsr eyləmişəm…
Çəkmişəm duyğuların dağdan
Ağır dağ yükünü,
Düşmüşəm misralar ardınca
Qərib ahu kimi,
Doğuluğ qafiəmin hər biri
Bir ağı kimi,
Bu ilahi işə mən ömrümü
Həsr eyləmişəm…
Keyf-damağ, ya da ki, əyləncə
Nədir bilməmişəm.
Dincliyin heç dadı, rəngi
Necədir bilməmişəm.
Bəzən heç çöldə ya gündüz
Gecədir bilməmişəm.
Beytimin abu-havasını
Fəsil eyləmişəm…

Könlüm öz yurdumu cövlan
Edib seyrə çıxıb,
Xeyri niyyət eyləyəndə
Niyyətim xeyrə çıxıb.
Nə zaman ki,yolumun üstünə,
Bir Leyli çıxıb,
O günü allaha yüz dəfə
Nəzir eyləmişəm…
Yoğrulub ilham ilə ruhum,
Hüceyrəm, əzələm.
Şer Leylim yeridir adıma
Məcnun desələr,
Toxunanda əlimə cansız, ölü,
Ya soyuq əl,
Cumub evdə o günü xeyli
Qüsl eyləmişəm…
İlhamım lal olan vaxtı
Halım olmayıb heç,
Bircə an, bircə dəqiqə,
Qərarım olmayıb heç,
Qəlbimdən savayı özgə
Varım olmayıb heç.
Bax, onun tişəsini almaz,
Qızıl eyləmişəm…
Dənilər var yağıblar özünə,
Mən isə söz,
Qaş-daşım, ləli-brilyantım
Olub tər-təzə söz.
Gəlməz heç qiymətə, heç ölçüyə
Heç bir təzə söz,
Bax, o sərvət ilə el qəlbinə
Yol eyləmişəm…
Beləcə çoxlu on illər
Və yüz illər ötəcək,
Qalacaqdır əməlim daima,
Canlı diri tək,
Təzədən birdə bu dünyaya
Zühur eyləmişəm…

1994.

**Əvvəl-əvvəl dünya bütöv bir ev imiş…**

Dünya əvvəl sonsuz nəhəng bir ev imiş,
Zaman-zaman neçə yerə parçalanıb…
Yarananda yer kürəsi bütöv imiş,
Əvvəl-əvvəl qitələrə parçalanıb…

Sonra isə qütblərə, bölgələrə,
Sonra olub yarısı su, yarı quru…
Sonra isə ayırıblar ölkələrə,
Bütövlüyü sönüb, solub edib qürub…

Sonra isə yaranıbdır qəbilələr,
Peyda olub sonra dinlər, etiqadlar…
Sonra dillər aralığa çəkib çəpər,
Rəvac tapıb məmləkətlər neçə adda…

Millət adı heç olmayıbdır onda hələ,
Sonra isə millətbazlar düşüb dəbə…
Çox xəbislər doğulmayıb onda hələ,
Aralığa ki, bic, haram toxum səpə…

Parçalanmaq ərzin köhnə mərəzidir,
Əvvəl yoxmuş varlıları, kasıbları…
Əvvəl olub ağası bir, köləsi bir,
Eyni olub qayğıları, əzabları…

Əvvəl kökü eyni olub insanlığın,
Para-para eləyiblər sonra onu…
Şah-xaqanlar qan üstündə taxta çıxıb,
Başlayıbdır çətin günü, qara günü…

Başlayıbdır dava-dalaş, ölüm, edam,
Zülmə qarşı üsyan edib qara qullar.
Sonra sərhəd məftilləri olub peyda,
Bağlanıbdar gedən yollar, gələn yollar…

Xain əllər çəkib xətti, qoyub mərzi,
Sərhədçilər yol kəsiblər addım başı…
Sonra altun xəstəliyi sarıb ərzi,
O xəstəlik gündən- günə quduzlaşır…

Milyonerlər bir-birini marıtlayıb,
Padşahlar bir-birindən şübhələnib…
Kütlələri düyü kimi arıtlayıb,
Ayırıblar rəqiblərə, cəbhələrə…

Başlayıbdır kin, ədavət, düşmənçilik…
Kəşf olunub say-hesabsız silah növü…
Dünya olub parça-parça, deşik-deşik,
Adam dönüb canavara adam yeyib…

Bir balaca məmləkətdir Azərbaycan,
Gör, onu da neçə yerə bölüşüblər.
Burdan ruslar udub onu, ordan İran,
İndi isə ermənilə bölüşürlər.

Yerdən insan, göydən fələk alov tökür,
Yaşayırıq yana-yana, ölə-ölə…
Ərzi elə tikə-tikə ediblər ki,
Birləşdirə bilməz Allah özü gələ.

O hələ çox dağılacaq, söküləcək,
Gəzir atom kabusları başı üstə…
Dünya əvvəl bir ev imiş, vaxt gələcək,
Heç daşı da qalmayacaq daşı üstə…

1994

**Mənə rəhmin gəlsin…**

Ölür ürəyimdə yaxşı adamlar,
Bulanıb zamanın çirkablarına…
Sanki qeyb olurlar, itib-batırlar,
Düşürlər xatirə girdablarına…

Gördüyüm xəyalmı, yoxsa yuxumu,
Dönür sifətləri, dönür üzləri…
Yamanlıq azarı tutub çoxunu,
Allah bu azardan sizi gözləsin…

Necə əyilirlər, necə sınırlar,
Necə qocalırlar, yaşlılaşırlar…
Necə qürub edib, necə sönürlər,
Necə yadlaşırlar, başqalaşırlar…

Ha diqqət verirəm tanımaq olmur,
İnana bilmirəm bu kəs, o kəsdi…
Cəllad zəmanədir qınamaq olmur,
Allah zəmanənin əhdini kəssin…

Ölür ürəyimdə yaxşı adamlar,
Ayrı rəng alırlar, görkəm alırlar…
Tamam ayrı cürə addım atırlar,
Tamam ayrı cürə hava çalırlar…

Matəm saxlayıram, qara geyirəm,
Dost-tanış itirmək necə çətindir.
Mən öz əllərimlə dəfn eyləyirəm,
Onların kinimdə, məhəbbətimdə…

Nə beyinə yerləşir, nə də ağıla,
Onlar yoxluğunu bilmir görəsən?
Belə də, ikili yaşamaq olar,

Üzdən sağ qalasan, içdən öləsən…

Hər kiçik təpəyə baxır dağ, demə,
Yaşamaq özü də bir heyrət imiş…
Həyata insan tək göz yummaq, demə,
Əsl hünər imiş, ləyaqət imiş…

Ölür ürəyimdə yaxşı adamlar,
Daha qapımı aç xeyirə Allah.
Daha axır həddə gəlib çatıblar,
Mənə rəhmin gəlsin deyirəm, Allah…

1992

***

Dağlar, sizdə nəyim qaldı, gəncliyim,
Gəncliyimi bir də mənə qaytarın.
Bulaq başı ağac altda gəncliyim,
O dincliyi yiyəsinə qaytarın…

Yollar sizdə nəyim qaldı, ləpirim,
Ömrüm, günüm, məhəbbətim üstəlik.
O ləpiri kimlər sildi, nə bilim,
O ləpiri bir də görmək istərəm…

Çaylar sizdə nəyim qaldı, a çaylar,
Uşaqlığım, qaynarlığım, kürlüyüm.
Ən qiymətli şeyim qaldı, a çaylar,
Bu dünyada ən müqəddəs bildiyim…

Uçan quşlar, uçurtdunuz nəyimi,
Necə oldu o qanadlı çağlarım.
Bir sehirli xalat verin, geyinim,
Bir sehirli çıraq verin, axtarım.

Sizdə nəyim qaldı, qalın meşələr,
Nağıllarım, əfsanəvi hislərim.
Gözlərimə ekran salın, meşələr,
O dövrümü bir də mənə göstərin.

Güllər, sizdə nəyim qaldı, a göllər,
Dadım, duzum, ətrim, ruhum, rayihəm.
Nə tez uçdu o həftələr, o günlər,
Düşünəndə basır məni vahimə.

Sizdə mənim nəyim qaldı əbədi,
Kəndimizin adamları, siz deyin.
İlhamımın kökü, göcü, məbədi,

Varlığımın hər duyğusu, istəyi.

Qəbiristanlıq, nəyim qaldı, de səndə,
Babam, atam, bacım, müqəddəslərim.
Əzizlərim bu dünyadan köçəndə,
Yanınızda şairlərə yer verin.

1970.

**Hey çağırır o səs məni…**

Son nəfəsdə-Cabir dedi,
Özü getdi, sözü qaldı…
Qəmli-qəmli gülümsədi,
Gözlərimdə gözü qaldı…

Nə təhərsən-lap yaxşıyam,
Yaxşı deyib can verirdi…
Mənim ömrüm, mənim dünyam,
Gülümsəyib can verirdi…

Bu mərdlikdi, gözəllikdi,
Ölüm, həyat, hərbi idi…
Bu, mənə bir təsəlliydi,
Bu, mənə bir zərbə idi…

-Nə təhərsən, lap yaxşıyam,
yaxşı deyib can verirdi.
Mənim ömrüm, mənim dünyam,
Gölümsəyib can verirdi…

-Nə təhərsən,-lap yaxşıyam,
bu mənə bir ağrı oldu…
gözlərimə baxa-baxa,
milyon ilin nağılı oldu…

ömür dostu, ana, bacı,
ən müqəddəs kəs itirdim…
hər günümün ehtiyacı,
bir müqəddəs səs itirdim…

-Cabir, Cabir,-gənc çağımdan
O səs mənə həmdəm oldu…
O səs mənim qulağımda,
Ümid oldu, nəğmə oldu…

-Cabir, tək bir ürəyim var,
Onu da ki, sənə verdim…

Cabir dedi hər qış, bahar,
Cabir dedi hər ay, hər gün…

Sərt yollardan keçə-keçə,
Həmdəm oldum o səs ilə.
Səhər-axşam, göndüz-gecə,
Yatıb durdum o səs ilə…

-Cabir, niyə bikef oldun,
-Cabir, nə var, kiri, dayan…
getdim, gəldim, yatdım, durdum,
o səs gəldi zaman-zaman.

-Cabir,-neçin, gecikdin bəs,
-Cabir, asta, hamı yatıb…
Düz otuz il məni o səs,
Hey çağırdı, harayladı…

Cabir dedi yata-yata,
Cabir dedi dura-dura…
-Cabir, Mirzə böyüyüb ta,
Toy eləyək gərək ona…

Son anda da Cabir dedi,
Özü getdi, səsi qaldı…
Qəmli-qəmli gülümsədi,
Gözlərimdə gözü qaldı…

Ürək buna necə dözər,
Dərd gətirir dilə məni…
Özü getdi,səsi isə,
Hey çağırır elə məni…

Nə kəsilmək bilir o səs,
Nə dayanmaq bilir o səs…
Uyuyuram gəlir o səs,
Ayılıram gəlir o səs…

-Cabir, Cabir sədaları,
Elə daim içimdədir.
Vurğuları, nidaları,
Bir zəlzələ gücündədir.

Kövrəlirəm, sevinirəm,
-Cabir, Cabir,-o səs axır…
Mən o səsə yüyürürəm,
Yüyürürəm yoxa çıxır…

-Cabir, Cabir,- sədaya bax,

Səhər-axşam, gündüz-gecə…
O səs məni çağıracaq,
Ta yanına gedənəcən…

**Ay ana…**

Sənin qızın, mənim ömür yoldaşım,
Əlimizdən nə tez uçdu, ay ana?
Heç bilmirəm bu əzrayıl mürdəşir,
Birdən niyə onu seçdi, ay ana?..

O, gedəli gücüm yox, qüdrətim yox,
Bu həyata zərrə məhəbbətim yox,
Oğullarım qalmadılar yetim, yox,
O yetimlik mənə düşdü, ay ana.

Elə bil ki, nəslimizdə talan var,
Baxışlarda gör nə qədər əməl var.
O gedəli gör nə qədər ölən var,
O gedəli köçhaköçdür, ay ana?..

Sənin saçın birdən-birə ağardı,
Mənim ömrüm viran oldu, dağıldı,
İnsan tamam əfsanədir, nağıldır,
Əvvəli heç, sonu heçdir, ay ana…

Səfuramın anasısan, anamsan,
Sən də ona mənim kimi yanansan,
O gedəli sən də gmrü talansan,
Yaşayırsan gözü yaşlı, ay ana…

Günlərimi təklik alıb qoynuna,
O iblisdir ilişmişəm oynuna,
İstər gələ yüz-yüz gəlin-qaynana,
Ocağımız daha boşdur, ay ana…

Lap mələklər xidmət edə bu evə,
Peyğəmbərlər hörmət edə bu evə,
Allah özü diqqət edə bu evə,
Səfurasız yenə heçdir, ay ana…

1994.

**Yuxun şirin olsun sənin…**

Sən gör harda, mən gör harda,
Dərd soldurdu, gülüm, səni…

Mən evdəyəm, sən məzarda,
Ta yetməyir əlim sənə…

Bir qırpımda yollar aşdın,
Dağlar keçdin, yollar aşdın,
Min il məndən uzaqlaşdın,
Hara atdı ölüm səni…

Otuz ildir bir can idik,
Bir-birinə mehman idik,
Bu nə hökmü fərman idi,
Bir də necə görüm səni…

Dağım-dağım dağılırım,
Yana-yana bağırıram,
Ha adını çağırıram,
Çatmayırmı ünüm sənə?

Gözlərimdə yaş quruyub,
Gül sinənə daş qoyulub,
Yastığa tək baş qoyuram,
Boş qalıbdır yerin sənin…

Dəhşətlərdən, ağrılardan,
Yatammadım zaman-zaman,
Ta əbədi yuxudasan,
Yuxun olsun şirin sənin…

1988.

**Demə…**

Bir səma artında neçə bahar-qış,
Bir isti ocaqda, bir ailədə,
Demə, səadətlə yaşayırıqmış,
Xəbərimiz yoxdur bircə gilə də…

Demə, hər günümüz bir nağıl imiş,
Bu ölməz nağılı görmürük ancaq.
Demə, ömrümüzün gül bağı imiş,
Hər gün səhər-səhər birgə oyanmaq…

Qapı-pəncərəni tez irahlayıb,
Günəşin üzünə açmağın özü…
Yataqdan cüt baxan qoşa çarpayı,
Eyvanda cüt duran başmağın özü…

Gecələr sakitcə bir yerə girmək,

Doğma bir balınca baş qoymaq hər gün…
Hər gün bir-bilinin halını bilmək,
Birgə ömr evinə daş qoymaq hər gün…

Gah bərkdən, gah da ki, asta danışmaq,
Gahdan acıqlanıbözünə gəlmək.
Bəzən hər şey üstə küsmək, barışmaq,
Hətta bir-birindən cəzana gəlmək…

İki ömrə düşən birgə qəm, həsrət,
Hər cür ağrı, acı, küsü sən demə.
Elə səadətmiş, elə səadət,
Elə xoşbəxtlikmiş özü sən demə…

Həyat yollarını döyən qar-yağış,
Gah bir gözümüz ac, bir gözümüz tox…
Demə səadətlə yaşayırıqmış,
Amma əsla bundan xəbərsiz yox…

Dözüb hər əzaba, hər çətinliyə,
Üç oğul böyüdüb gəlin gətirmək.
Birgə sinə gərmək jərdə, möhnətə,
Birgə neçə-neçə əziz itirmək…

Ya xəstə olanda, naxoş olanda,
Həkimlik eləmək bir-birimizə,
Ev sakit olanda, ev boş olanda,
Elə lal dayanıb baxmaq göz-gözə.

Birgə yasa getmək, şənlikdə olmaq,
Bir yerdə ağartmaq qara saçları…
Birgə sinə gərmək, birgə uçurmaq,
Çox maddi, mənəvi ehtiyacları…

Söykənmək qəlb-qəlbə, nəfəs-nəfəsə,
Özü ilahidən bir nemət imş…
Hər cün bir-birini sağ görmək isə,
Demə, ən əvəzsiz səadət imiş…

1988.

**Sənin ölümündən sonra, mənim ölümümdən sonra…**

İtib yollarımın yolu,
Sənin ölümündən sonra…
İtirmişəm sağı-solu,
Sənin ölümündən sonra…

Fani dünya heçdi-necə?

Şahlıq quşum uçdu-necə.
Ölüm adiləşdi necə,
Sənin ölümündən sonra…

Bu dünyaya yox ta sözüm,
Qarışıb gecəm-gündüzüm.
O dünyada qalıb gözüm,
Sənin ölümündən sonra…

Shyuyub isti evimiz,
Tutqun dənizdi evimiz,
Laldır, dilsizdir evimiz,
Sənin ölümündən sonra…

Mən göl idim, sonam oldun,
Anam getdi-anam oldun.
Ömür mənə haram oldu,
Sənin ölümündən sonra…

Vaxt gələcək yetişəcək,
Çox yaralar bitişəcək,
Milyard illər ötüşəcək,
Sənin ölümündən sonra…
Mənim ölümümdən sonra…

1989.

**Mənə xatirən qalacaq…**

Hamı çəkilib gedəcək,
Təkcə xatirən qalacaq…
Hamıdan da etibarlı,
Mənə xatirən olacaq…

Hayqıracaq, çuğlayacaq,
Varlığımı yandıracaq.
Şüşələri doğrayacaq,
Qapıları sındıracaq.

O gələcək daim dilə,
Susmaq nədir bilməyəcək.
Yaşayacaq mənim ilə,
Ta ömrümün sonunadək.

Ağır günlər qovuşacaq,
Əriyəcək, bitişəcək,
Qırx da gəlib sovuşacaq,
İl də gəlib ötüşəgək.

Dövr edəcək dünya, zaman,
Güllər açılıb solacaq.
Təkcə solub saralmayan
Sənin xatirən olacaq…

Ən çox anan dərd edəcək,
Bir də doğma bacıların.
Onlara da öyrədəcək,
Həyat həsrət-acıları.

Çox sağ olsun ana-bacı,
Necə etsin, axı, onlar.
Hamının öz ehtiyacı,
Hamının öz qayğısı var…

Bir də dərddən nədir fayda,
Unutmaq da bir hünərdir.
Eh, unutmaq olmasaydı,
Görən insan nə edərdi…

Unudulan gedən gərək,
Unutmaqdır xilas ancaq.
Hamı çəkilib gedəcək,
Təkcə xatirən qalacaq…

Böyüklər də, uşaqlar da,
Mənə ağıl verəcəklər.
«Hamı üçün ölüm vardır,
Bilməyirsən bunu məgər?».

«De, dünya qalıb kimə,
Yaşamağın sonu budur… »
Ürək-dirək vermək demə,
Unutmağın bir yoludur…

Beləcə günlər ötəcək,
Soyuyacaq bizim ocaq.
Hamı çəkilib gedəcək,
Təkcə xatirən qalacaq…

O soyumaq bilməyəcək,
Yer uçula, Günəş sönə.
Oğullar da gün gələcək,
Ev quracaq özlərinə.

Hərənin də zaman-zaman,
İsinəcək yurd-yuvası…
Belə qurub bunu quran,
Bunu yazan belə yazıb…

Olacaqdır hər birinin,
Can-ciyəri uşaqları…
Kaş onları xoşbəxt görüm,
Daim yansın çıraqları…

Belədir yekun,nəticə,
Adın yaxın, özün uzaq…
Hər şey çəkilib gedəcək,
Bircə xatirən qalacaq…

1988.

**Səfura getdi, Səfura gəldi…**

**Səkkiz il öncə ömür yoldaşım dünyasını dəyişdi. Uzun həsrətdən sonra qız nəvəm oldu, adına nənəsinin adını verdik…**

Səfura getdi,Səfura gəldi,
Səadət yenə qapıma gəldi…
Bayılmış idim, gəldim özümə,
Yenə bu həyat güldü üzümə…
Yenə evimiz çıraqban oldu,
Allah, gör ki, kim anadan oldu.
Xalqa üç övlad bəxş eləyən kəs,
Dedilər bir də geriyə dönməz.
Amma o dönüb dübarə gəldi,
Səfura getdi, Səfura gəldi…
Evdən çıxalı səkkiz il idi,
Onsuz hər günüm bir əsr idi.
Səkkiz il məni təklik boğurdu,
Elə bil mən də təzə doğuldum.
Təzədən oldum anadan sanki,
Mənə rəhm etdi yaradan sanki.
Böyük Səfuram əlimdən uçdu,
Nəvəm balaca Səfuram gəldi…
Böyük Səfuram nəvəsiz köçdü,
Nə qəm balaca Səfuram gəldi…
Bütün otaqlar dil açdı sanki,
Qəlbimə ümid yol açdı sanki…
Niskillərimə ruh, çarə gəldi,
Səfura getdi,Səfura gəldi…
Hamı beləcə kaş diriləydi,
Bütün nənələr geri dönəydi…
Bütün babalar geri dönəydi…
Dolur, boşalır dünya qədimdən,
Kim deyir, axı, dönmür gedənlər?

Gözünə yekə bir eynək taxsın,
Gəlsin balaca Səfuşa baxsın,
Görsün nənənin əvəzi gəldi,
Babanın ömür nəğməsi gəldi…

1995.

**Gəlin-qaynana…**

**Qəbiristanda da anamla yoldaşım**
**yan-yana uyuyurlar…**

Yan-yana uyuyur gəlin-qaynana,
Biri ömür dostum, biri yoldaşım…
Torpaq onları da aldı qoynuna,
Əyildi qamətim, ağardı başım…

İkisi bir ildə getdi dünyadan,
Birdən hər ikisi xəyala döndü…
Getdi iki əziz müqəddəs insan,
Ömrümün iki gur ulduzu söndü…

Deyirlər ev evə sığışar inan,
Sığışmaz bir evə qaynana, gəlin.
Deyirlər onların başdan-binadan,
Torpağı bir yerdən götürülməyib…

Bəşəri bir dərddir gəlin, qaynana,
Necə mənasını açım mən onun?
Eh, kimlər düşməyib onun oynuna,
Yurdlar viran qalıb hökmündən onun…

Qızlar olublar ki, günahsız, təmiz,
Yad evə köçdümü kinə dönüblər…
Analar nə qədər ki, anadır əziz,
Qaynana oldumu cinə miniblər…

Yan-yana uyuyur gəlin-qaynana,
Onlar həyatda da yan-yana oldu…
Yan-yana uyuyur yoldaşım-anam,
Onlar həyatda da mehriban oldu…

Otuz il bir evdə yatıb-durdular,
Otuz il bir yerdə çörək yedilər…
Nə bir-birindən incik oldular,
Nə bir-birinə yaman dedilər…

Nə bir yol sözləşib savaşdı onlar,

Nə aralarında sərinlik oldu…
Görənlər dedilər min yaşasınlar,
Bax, bu qaynanalıq, gəlinlik oldu…

Torpaq onları da aldı qoynuna,
Uçdular, getdilər bir yuxu kimi.
Yenə yan-yanadır gəlin, qaynana,
Bir vaxt torpaq üstə olduğu kimi…

**Qızıl anam qızılgül anam…**

Mənim qızıl anam,
Qızılgül anam.
Sənin üçün mən acam
Bu çağımda da.
Yuxum ərşə qaçıb
Sənin laylana,
Səsinə möhtacam
Bu yaşımda da…
Məni neçə ildir
Qoyub getmisən,
Sənsiz nə səbrim var,
Nə qərarım var,
Baxma ki, əllini
Çoxdan keçmişəm,
Baxma ki, atayam
Övladlarım var…
Baxma ki, heç kəsdən
Yoxdur təmənnam,
Baxma ki, çoxuna
Bir arxayam mən…
Baxma ki, Təbriz tək,
Nəvəm var amma,
Sənincün uşaq tək
Darıxıram mən
Batdın, sönüb getdin
Bir ulduz kimi,
Sənsiz bir an belə
Könlüm açılmır…
Sənə hava kimi
Sənə su kimi,
Sənə nəfəs kimi
Ehtiyacım var…
Belin əyilmişdi,
Saçların qardı,
Tamam dəyişmişdi
Üzünün rəngi.
Necə ki, quruca

Nəfəsin vardı,
Arxamda ordular
Durmuşdu sanki…
Mənim qızıl anam,
Qızılgül anam,
Mən sənə basılmaz
Qalam deyərdim…
Dolardı könlümə
Sonsuz bir inam,
Onda ki, sən mənə
«Balam» deyərdin…
Vücudum büsbütün
Gələrdi dilə,
Necə məst olardım,
Xumarlanardım…
Sümükləri çıxan
Əllərin ilə,
Hər dəfə saçımı
Tumarlayanda…
Səni ata bildim
Yetim qalandan,
Mənim ata-anam,
Ay gözəl anam!
Dərdim çox olanda,
Çətin olanda,
Onda qalx köməyə
Yenə gəl, anam…
Mənim qızıl anam,
Qızılgül anam,
Bil sənə möhtacam
Bu yaşımda da.
Xoş nəvazişinə,
Şirin laylana,
Səsinə möhtacam
Bu yaşımda da.
Sözünə möhtacam
Bu yaşımda da…

1991.

**Mənə görə…**

Könül, düşmə təmənnaya,
Həyat boşdu mənə görə…
Uymaq bu fani dünyaya,
Aldanışdı mənə görə…

Hər bir dərdə yanan mənəm,

Öz-özünü danan mənəm,
Niyə doğdu anam məni,
Oda düşdü mənə görə…

Gedəcəkdik, niyə gəldik,
Yaranıb ölməyə gəldik?
Ya yuxu gərməyə gəldik,
Yuxu puçdu mənə görə…

Boöuluram söz içimdə,
Əriyirəm öz içimdə,
Bəbəliyim göz açanda,
Ağlamışdı mənə görə…

Ömrümüzdən btən illər,
Xəyal olub ötən illər,
Yoxluqdan müjdə gətirən,
Qaranquşdu mənə görə…

Hamımız beş günlük qonaq,
Axırımız qara torpaq.
Yaşamaqdan yaşamamaq
Daha xoşdu mənə görə…

1995.

**Bir anam, bir də nəvəm Təbrizə…**

Qopur ürəyimdən sonuncu nida,
Sonuncu hıçqırıq, sonuncu nəfəs…
Əlvida, yalançı dünua, əlvida,
Ta sənlə bir yerdə qalmağa dəyməz…

Daha qurtuluram əlindən sənin,
Düşürəm xatirə kitablarına…
Əlvida deyirəm, dünya, mən sənin,
Bütün dərdlərinə, əzablarına…

Kaş ki, daş olaydım xilqət olunca,
Dünyanın əşrəfi insan yalandır…
Budur, əzrayıl da əli qılınclı,
Başımın üstünü kəsdi, dayandı…

Əlvidv, əlvida yalançı dünya,
Çökür gözlərimə zülmət qaranlıq…
Əlvida,əlvida yalançı dünya,
Həqiqi dünyama yetirəm artıq…

Nə vaxt ki, həyata zühur elədim,
Anamın bətnindən qoynuna düşdüm…
Nəhəng bir zindana girdim elə bil,
Sehirə, tilsimə, oyuna dühdüm…

Mən səndən nə gördüm, saysız dərd, kədər…
Mən səndən nə gördüm, ölüm qan-qada,
Mən səndən nə gördüm, diri ölülər,
Əlvida, oyuncaq dünya, əlvida…

Səndən nə əxz etdim, təkcə məşəbbət,
Onunla çox ağır illər yaşadım…
Hər şeyə əlvida desəm də fəqət,
Mən vida demirəm sənə, ey qadın…

Bir də üç oğluma köküm, məhvərim,
Əlvida demərəm,deyə bilmərəm.
Qoyun, boylarına baxım son kərə,
Onları görməsəm, ölə bilmərəm…

Əlvida ikili xalqım, millətim,
Əlvida ikili vətən, əlvida.
Səni bircə gün də bütöv görmədim,
Nigaran gedirəm səndən, əlvida…

Hanı, o əvvəlki torpağım, hanı,
Düşdük ləyaqətdən, düşdük şərəfdən…
Yenə də bölürük Azərbaycanı,
Düşmən bir tərəfdən, biz bir tərəfdən…

Bir təbiətdən gedirik razı,
Bir də ki, günahsız heyvanlarından…
İstərəm son kərə bağrıma basım,
Bütün yaxşı, yaman insanlarını…

Bir də ki, ölmədim Təbrizi gördüm,
Gördüm o taydakı qardaşlarımı…
Ulu Şəhriyar tək əzizi gördüm,
Tökdüm məzarına göz yaşlarımı…

Bax bu möhnət üçün sağ ol, a dünya,
Səndən ricam budur, diləyim budur…
Xalqım birləşməsə dağıl,a dünya,
Səndən ən sonuncu istəyim budur…

Bircə nəvə gördüm, Təbrizdir adı,
Bərk-bərk tapşırıram sənə mən onu…
Nə ölüm, nə itim heç nə dünyada,

Heç nə silə bilməz könlümdən onu…

Əlvida, yer, səma, əziz dost, həmdəm,
Əlvida hər şeyə, bir də hər kəsə…
Ölsəm də əlvida deyə bilmərəm,
Bir anam, bir də ki, nəvəm Təbrizə…

1992.

**Qurban olum dualarına…**

Ay ana, düşürsən tez-tez yadıma,
Təzədən dönürəm uşaq oluram.
Diztnə baş qoyub bərk-ğərk yatıram,
Bütün qayğılardan uzaq oluram.

Görürəm çiynində yenə də çapşab,
Obaşdan durmusan sübh namazına.
Əlində o ulu, müqəddəs kitab,
Yenə üz tutmusan göylərə, ana.

Məni tapşırırsan tanrıya bərk-bərk,
Tək bircə balanı, şair oğlunu.
Deyirsən,Xudaya, ona ol kömək,
Xətadan, bəladan gözlə sən onu.

Ana, qurban olum dualarına,
Tapşır, yaxşı tapşır,Allaha məni.
Tapşır, yaxşı taphır, ana, ay ana,
Yurdum talanmasın bir daha mənim.

Qurtulum ölümdən, dərddən, kədrdən,
Unudum bir yolluq ağrı, acını.
Millətim qurtarsın işgəncələrdən,
Yağıdan alınsın Şuşam, Laçınım…

Keçim Xankəndindən, Kərgicahandan,
Şəhid torpaqları bağrıma basım.
Şərlər qovulsunlar Azərbaycandan,
Bircəciyinində tumu qalmasın…

Ana, qurban olum dualarına,
Onların sehrini çox görmüşəm mən.
Elə körpəlikdən, ana, ay ana,
O dualar ilə böyümüşəm mən.

Uzaq səfərlərə getdiyim zaman,
Gizlicə cibimə dua qoyardın.

Məni keçirərdin Quran altından,
Sonra min dil ilə ovundurardın.

O dualarında bir sirr vardı,
Məni hər bəladan qurtarardılar.
Məni təyyarələr sağ aparardı,
Salamat yanına qaytarardılar.

Ana, qurban olum dualarına,
Tapşır, yaxşı tapşır Allaha məni.
Tapşır, yaxşı tapşır, ana, ay ana,
Bir kimsə salməsın günaha məni.

Tapşır, hər nanəcib, nadan, heyvərə,
Çirkab atmasınlar mənim üstümə.
Heç dözə bilmirəm böhtənə, şərə,
Murdarlıq ruhumu əzir dəstinə.

Heç dözə bilmirəm riya görəndə,
İblis sifətlərə baxa bilmirəm.
Bir yalan çıxmayıb, axı, dilimdən,
Mən biclik, xəbislik, axı,bilmirəm.

Bəzən də dünyadan üzülür əlim,
Tarıma çəkilir beynimdən hər sim.
Nə ümidim qalır, nə də təsəllim,
Tapşır, allaha mənə təsəlli versin.

Bu boyda kişiyəm ağır anda da,
Yenə sən çatırsan dadıma, ana.
Mənə dua elə məzarında da
Ana, qurban olum dualarına.

## O vaxt anam cavan idi…

O vaxt anam cavan idi, çox cavan,
O toyların ziynətiydi, ziynəti…
Amma birdən atam getdi dünyadan
Mən anamı heç oynayan görmədim…

Kəndimizdə o hamıdan gözəldi,
Başdan-başa geyinərdi zərxara…
Mağarlarda tərlan kimi süzərdi,
Atam öldü ta getmədi toylara…

Elə bil ki, birdən beli əyildi,
Uzun qara saçlarına düşdü dən…
Çox cavanlar kama çatdı, sevildi,

Qız-gəlinlər evdən-evə köçdülər…

Mənim də ki, boy calandı boyuma,
Amma qəlbim sevinmədi, gülmədi…
Ta anamın həsrət qaldım oynuna,
Ta anamı heç oynayan görmədim…

Bacıma da bir bahar toy qurdular,
Axırda da bir «Vağzalı» çalındı.
Hey anamın qabağında durdular,
O gizləndi çarşabının dalında…

Göz yaşıyla o bacımı ötürdü,
Dedi-quzum, allah sənə yar olsun…
Gəlin bacım bulud kimi tutuldu,
Anasının bərk boynuna sarıldı…

-Qızım köçdü, xoşbəxt olsun,-dedilər,
Bir oğlun var onun toyun görəsən…
Daha onda, ay Qızılgül bəxtəvər,
Göz dolusu oynayasan gərək sən…

Bir gün mən də eşq səsinə ayıldım,
Özümə bir yuva hörmət istədim…
Anam mənə elçi getdi dayımla,
Müqəddəsdir elimizin adəti…

Sonra anam günü, ayı sanadı,
Mənsə zaman necə keçdi bilmədim…
Qəribədir, mən Qızılgül anamı,
Toyumda da heç oynayan görmədim…

Bir qış günü vida dedi həyata,
Atam oldu son istəyi, son sözü…
Nə böyükmüş, nə möhkəmmiş, xudaya,
Bizim ata-anaların sevgisi…

Belə olub bu millətin keçmişi,
Heyf, indi onun quru adı var.
Hanı indi atam kimi bir kişi,
Hanı indi anam kimi qadınlar…

Bəli, o vaxt anam vardı çox cavan,
O toyların bəzəyiydi, ziynəti…
Nə zaman ki, atam getdi dünyadan,
Mən anamı heç oynayan görmədim…

1994

**Ərzin ən əvəzsiz, ən saf insanı…**

Səsin qulağımda, adın dilimdə,
Gəzdim Mərdakanı, İbrahim dayı.
Az qaldı soruşam gəlib-gedəndən
Deyəm dayım hanı, İbrahim dayı?..

İnsan bir yalandır, şirin bir yalan,
Hələ ki, olmayıb əbədi qalan,
Ta gendən seyr etdim sahibsiz qalan,
O evi, eyvanı, İbrahim dayı.

Bir bağın vardı ki, çiçəkdi, güldü,
Yazda açılırdı, qışda gülürdü.
Gördüm meyvələrin sankai ölüydü,
Bərk qaraldı, İbrahim dayı.

Təzə mənzilinə düşdü güzarım,
Baxdım, çöküb yeri, solub hasarı,
Gör necə dəyərsiz olub məzarı,
Övladsız insanın, İbrahim dayı.

Ürəyin genişdi, qəlbin böyükdü,
Sən neçə kimsəsiz yetim böyütdün,
Onlara öz balan dedin, böyütdün,
İndi onlar hanı, İbrahim dayı.

İstəyin nə idi, özgəyə yanmaq,
Təmiz ömr eləmək, təmiz dolanmaq,
Səhvsiz adam olmur deyirlər-amma,
Yoxdu bir nöqsanın, İbrahim dayı.

Qeyrət insanıydın, insaf insanı,
Allah insanıydın, savab insanı.
Ərzin ən əvəfsiz, ən saf insanı,
Ən bədbəxt insanı, İbrahim dayı…

1992

**İblis təklik, gözəl təklik…**

Bütün aləm öz gücündə, işində,
Mən qalmışam tənhalığın əlində.
Bu axşamlar canım üçün düşürlər,
Bu səhərlər canım üçün gəlirlər.

Canım üçün gətir aylar, fəsillər,
Boz illəri deməyirəm hələ mən.
Təklik yağır görkəmimdən, səsimdən,
Təklik qonub ayağıma, əlimə…

Kölgəm kimi o arxamca dolanır,
Üstümdədir daim soyuq nəfəsi…
İblisə bax, istəyir ki, ola o,
Mənə əziz Səfuramın əvəzi…

Doğrayardım keçsə idi əlimə,
Amma gözə görünməyir o iblis.
Oğullarım hey yanıma gəlirlər,
Gecə-gündüz mənimlədir birisi…

Yenə məndən o çəkməyir əlini,
Öz balamın evində də təkəm mən…
Qabağıma xörək qoyur gəlinim,
O xörəyi yeyəndə də təkəm mən…

Qaşığım da, çəngəlim də təklənib,
Təklənibdir nəyim varsa, nəyim yox…
Ömrüm tamam təklik üstə köklənib,
Yeyir məni, üzür məni, heyim yox…

Hara baxsam, durub baxır gözümə,
Olub yorğan-döşəyimə şərikli…
Ayrı vaxtı bir təhərlə dözürəm,
Uyuyanda quduzlaşır bu təklik…

Öz toruna salıb məni elə bil,
Çaynaqları dərindədir, dərində…
İlan olub çalır məni elə bil,
Sübhə kimi qovruluram yerimdə…

Yuxumda da təklik girir yuxuma,
Yuxuda da tənhayam mən, təkəm mən.
Məni anlar tənhalığın oxuna,
Düçar olub bu əzabı çəkənlər…

Deyirlər ki, evlənginən yazıqsan,
Bəlkə ağrı-acıların düzəldi…
Tez təkliyə sığınıram acıqdan,
Tez təklikdən yapışaram yüz əlli…

Deyirəm ki, uzaq getmə amandır,
Səfuramı itirirəm yenidən.
Sən daima başım üstə dayan, dur,

Gözəl təklik, tənha qoyma məni sən…

Sən heç demə qayda imiş binadan,
Günah yoxmuş nə gedəndə, gələndə…
İnsan, demə, cüt doğulur anadan,
O da ölür, ömür dostu öləndə…

1990

**Adım gəldi bu dünyaya**

Yığırdım ömür köçümü,
Adım gəldi bu dünyaya.
Eynən elə özüm kimi,
Adam gəldi bu dünyaya.

Dua etdim körpə balam,
İsmim olsun sənə halal,
Özüm diri ola-ola
Müdam gəldi bu dünyaya…

Ta əzrayıl sən şarlatan,
Qapımızdan itil, usan,
Soyuma, köküm, əmim, babam,
Atam gəldi bu dünyaya.

Əcələ qışqırdım: bil ha,
Gücün çatmaz mənə daha,
Korsan, bax, nə ər, əjdaha,
Titan gəldi bu dünyaya…

Bu gəlişdə məna dərin,
Əbədiryyat oldu yerim,
Kəfənini ölümlərin,
Yırtan gəldi bu dünyaya…

Təzə Cabir, eşit məni,
Adaşına ver əlini,
Köhnə Cabirin yerini,
Tutan gəldi bu dünyaya…00 0

1996

**Heyf sənə, poeziya**

**Bu yolda**

Şerə, sənətə könül bağladım,
Ağrılar, acılar gördüm-
Bu yolda.
Şair müəllimlər, şair atalar,
Şairə bacılar gördüm-
Bu yolda.
Nə qədər Peyğəmbər, nə qədər allah,
Nə qədər tacidar gördüm-
Bu yolda…
Yanar təfəkkürlər, odlu ocaqlar
Tüstüsüz bacalar gördüm-
Bu yolda…
Qocaykən cavanlvr, sağkən ölülər,
Cavankən qocalar gördüm-
Bu yolda…
Müasir ağalar, bəylər, paşalar,
Müasir hacılar ggrdüm
Bu yolda…
Şair qəhrəmanlar, prometeylər,
Şair qaraçılar gördüm-
Bu yolda…
Dəmir-dümürünə qızıldır deyən,
Köhnə qalayçılar gördüm-
Bu yolda…
Nə qədər eyhamlar, sözlər, tənələr,
Nə qədər acıqlar gördüm-
Bu yolda…
Gum-gum gumbuldayan nağara kimi,
Bom-boş harayçılar gördüm-
Bu yolda…
Fikri dumanlılar, sözü dadlılar
Ürəyi açıqlar gördüm-
Bu yolda…
«Məktəb » bağlayanlar, «məktəb» açanlar,
«Məktəbi» uçuqlar gördüm-
Bu yolda…
Meyxana küncündə dahiləşənlər,
Qorxaqlar, qoçaqlar gördüm-
Bu yolda…
Dava-dalaş ilə şair olanlar
Arxalı qoçular gördüm-
Bu yolda…
Adicə bir sözün min-min silahdan
Daha çox gücü var gördüm-
Bu yolda…
Şerin şahlara da nəsib olmayan
Bir ulu tacı var gördüm-
Bu yolda!

**Sona çatan əsrimizin mən sonuncu şairiyəm**

Mən söz ilə görünərəm, ayrı donda görünmərəm,
Onun,bunun ətəyində sürünmərəm.
Öaş əymərəm heç bir kəsin hüzurunda,
Ucalığı əxz etmişəm Füzulidən.
Mən Sabirdən həqiqətə düz baxmağı öyrənmişəm,
Mən Müşfiqdən nakamlığı öyrənmişəm…
Sürülərin arasında görməzsiniz heç vaxt məni,
Hərcayilər sırasında görməzsiniz heç vaxt məni…

Haray çəkən şerlərin şairiyəm,
Faciəli dövrlərin şairiyəm…
Mən poladam əqidəmdə, əməlimdə,
Dəyişmərəm məsləkimi yer-göy qopsa təməlindən,
Soyulsam da diri-diri,
Tonqallarda yandırardım əqidəsiz şairləri,
Külək kimi ora-bura əsənləri,
Yandırardım yazdıqları cəfəng-cəfəng əsərləri…
Mən bir amal, mən bir vicdan şairiyəm,
Para-para paralanmış Azərbaycan şairiyəm…

Olmaz mənə hökm eləmək, əmr eləmək,
Olmaz məni nömrə ilə nömrələmək.
Heç bir rənglə qaralamaq olmaz məni,
Sözdən qeyri heç nə ilə yaralamaq olmaz məni…
Ümidimi kəsmək olmaz qılıng ilə,
Mənim məhvim glüm ilə gülünc olan,
Mən ölümdən sonraların şairiyəm,
Öz ömründən sonraların şairiyəm…

Gör, nə boyda məmləkətəm,
Amma yarı mənim deyil,
Bu diyarım mənimdirsə,
O diyarım mənim deyil…
Torpağımda görün kimlər at oynadır…
Ulu Şuşam olub indi yad oylağı…
Cəh-cəh vuran səsi batıb
Qarabağın,
Bizə qalıb təkcə adı
Qarabağın…
Qırx milyonluq millətim var
Azı mənim
Çoxu yadın…
Gecə-gündüz dilimdədir
Təbriz adı,
Qədəmlərin təzə-təzə
Dəyir ora

Bu vüsalın kaş axırı sevinc ola,
Gecə-gündüz bu həsrətin
Bu harayın
Şairiyəm…
Həm bu tayın, həm o tayın
Şairiyəm,
Məndən sonrə kim sürəcək
Söz atını
Bilməyirəm,
Mən arxamda hələ elə bir adamı
Görməyirəm…
Şerə,s.zə daraşan çox,
Şöhrət üçün vuruşan çox,
Dalaşan çox,
Amma əsl şairliyə yaraşan az,
Xalq adından danışan çox,
Öz adından
Danışan az…
Mən bu yurdun şan-şöhrətə
Ən biganə
Şairiyəm.
Ad-san verməz tək yeganə
Şairiyəm…
Ulu sözün ən sonuncu
Şairiyəm
Sona çatan əsrimizin
Mən sonuncu
Şairiyəm.

1995.

**Nə zamandır mən söz ilə dolanıram…**

Şer acıyam…
Hər şeyimi as yazıram…
Ac olanda çox yazıram,
Tox landa az yazıram.
Misra ilə doyuyuram,
Özümü mən,
Boş süfrəmə doldururam
Sözümü mən.
Bayatıyla, qoşma ilə,
Təcnis ilə dolanıram,
Nə zamandır mən söz ilə
Dolanıram…
Bu yalavac zamanada,
Odur mənim bir yeganə,
Toxunulmaz

Əmanətim…
Sətirlərim havam, suyum,
Qəndim,
Yağım,
Ətim, südüm,qayğanağım…
Nə zaman ki, sözüm olmur,
Ac qalıram,
İlhamıma yalvarıram
Aç qapımı.
Aç qapımı, artsın
Evin bərəkəti,
Hər birə naz-neməti…
Biz şairlər sanki
Birdən qərib düşdük.
Nə gündəydik, nə günlərə
Gəlib düşdük…
Sənət tamam ucuzlaşdı
Bircə qəpik
Dəyəri yox..
Nizaminin, Füzulinin
Bu dəhşətdən
Xəbəri yox…
Ehtiyacın sərhədi yox,
Çəpəri yox…
Nə zamandır söz əkirəm
Səməri yox,
Çox nanəcib əyyam gəlib,
Toxun acdan
Xəbəri yox,
Tanıdığım bir bankir var,
Neçə yerdə öz hesabı,
Öz bankı var…
Neçə yerdə mülki, malı,
Məşuqəsi,
Gecə-gündüz dollar kəsir…
Heç kimsəni almır vecə,
Nökər durur qapısında
Gündüz-gecə…
O istəsə bir arvadı yüz eyləyər,
Kişiləri arvad edər,
Arvadları qız eyləyər…
O istəsə hamımızı qırar,
Biçər, daş eyləyər.
O istəsə bir n.kəri beş eyləyər,
O istəsə meydan tikər
Damımızda,
O istəsə xərac alar
Hamımızdan,
O istəsə tutar bizi

Qızıl, gümüş yağışına.
O istəsə məleykələr,
Hər gün girər
Ağuşuna.
O istəsə birgə anda
Alıb satar pulla məni.
Elə isə, Allah, qəbrə yolla məni…
Hərdən mənə sual verir:
-Nə təhərsən?
Haçan mənə kitabını
Göndərərsən?..
Qonorarı, pulu məndə,
Heç allaha olmur bəndə…
Başımızın
Ağasıdır,
Qarnı elə böyükdür ki,
Sanki indi
Doğasıdır…
O alçağa gecə-gündüz
Nifrət ilə yaşayıram,
O nifrətdən əxz etdiyim
Qeyrət ilə yaşayıram…
Təbriz nəvəm «Mars» istəyir,
İstəyinə şay verirəm,
«Mars» istəyir, mənsə ona
Günəş, ulduz,
Ay verirəm…
Təbrizimin arzusuyla,
İstəyiylə yaşayıram…
Bir də şerin köməyiylə yaşayıram…
Bir də onu bilirəm ki,
Bu amansız vaxt
Ötəcək əvvəl-axır.
Yenə də söz yaşadacaq
Bu milləti,
Bu torpağı…
Söz heç zaman ölməyəcək,
İtməyəcək,
Təbriz onda sənə əlim yetməyəcək…
Yoxsa sənə «Mars» alardım,
Qucaq-qucaq,
Heyf o vaxt şair baban
Bu həyatda olmayacaq.
Amma sənə qalacaqdır,
Onun şer xəzinəsi,
Söz sərvəti, söz sikkəsi,
Onlar sənə qalacaqdır,
Bir də, bir də bu vətənə
Qalacaqdır.

Olacaqsan zəngin, varlı,
Baban üçün heç olarmı
Bundan böyük
Bəxtiyarlıq…
Bununçün də şer acıyam
Hər şerimi
Ac yazıram.
Ac olanda çox yazıram,
Tox olanda
Az yazıram…

**Şer əkdim bu qalanın içində…**

Bu həyata göz açalı əzildim,
Ağır-ağır qayğıların
İçində…
Öz nəğməmin havasına kəsildim
Quzbunların, qarğaların
İçində…
Mənliyimi uca tutdum, saxladım,
Sürü-sürü mal-qaranın
İçində…
Ucuz şöhrət arxasınca qaçmadım,
Dəllalların, darğaların
İçində…
Qara sezdim hətta ağa baxanda,
Ağ da gördüm qaraların içində…
Hayla-küylə istəmədim xalqımı,
Qeyrət gəzmə qalmaqalın
İçində…
Gedişini, gəlişini dünyanın
Ölçdüm, biçdim, xırdaladım
İçimdə…
Böyüklərdə bir böyüklük görmədim,
Böyük tapdım xırdaların
İçində…
Talan oldu yurdum, yuvam, torpağım,
Talan oldum bu talanın
İçində…
Yaralandı, paralandı millətim,
Hey qovruldum bu yaranın
İçində…
Həqiqəti, ədaləti boğdular,
Min əyrinin, min yalanın
İçində…
Bir eyibsiz, təmiz xlqət tapmadım,
Nə gedənin, nə qalanın
İçində…

Sehr dolu bir qalaya sığındım,
Şer əkdim bu qalanın
İçində…

**Heuf sənə poeziya, heuf sənə…**

Heyf sənə, poeziya, heyf sənə,
Necə bizim zəmanədə gözdən düşdün.
Bu dünyaya göz açalı deyim sənə,
Heç bu qədər təhqirlərə dözməmişdin7?!
Sənin sevgi,məhəbbətdi əzəl andın,
Səni eşqsiz bir varlığa döndərdilər.
Kobudlaşdın, cılızdaşdın, xırdalandın,
Zirvədəydin, dərələrə endirdilər…
Sındı, düşdü sənin şahin qanadların,
Öz-özündən oğurlandın, qarət oldun,
Vəsf elədin, tiranları, cəlladları,
Məddahların əllərində alət oldun…
Qulluq etdin vəzifəyə, rəyasətə,
Səni buna ustadların təhrik etdi,
Əsir oldun ada, sana, siyasətə,
Yamanlara yaxşı deyib tərif etdin.
Dilin «Urra» bağırmaqdan oldu qabar,
Poeziya! Siyasətlə qanlı bıçaq…
Siyasətin min yzy var, sifəti var,
Poeziya bir sifətdə olub ancaq…
Girdin çox-çox riyalara, oyunlara,
Heyf sənə, poeziya, heyf sənə…
«Ləbbey!» Dedin çox şahlara, əyanlara,
eyb sənə, poeziya, eyb sənə…
sözün, şerin çaş-baş düşdü ynvanları.
Çox şairlər yazdı əbəs, pozdu əbəs…
Zəmanənin eşq, məhəbbət dastanları,
Rəhbərlərə dastan ilə oldu əvəz…
Heyf sənə, poeziya, heyf sənə,
Birmi,beşmi itkinlərin, qurbanların?!
Əyilməyən qamətini əyib sənin.
Sürüdülər mitinqlərə, meydanlara…
Oda düşdün, şəhid oldun, tələf oldun,
Kürəyində qanlı tonqal qaladılar
Şərəfsizlər adın ilə şərəf aldı,
Fəqət sənin şərəfini taladılar…
Kül tökdülər nurla yanan ocağına,
Necə dözdü vicdanları, insafları?..
Şairdə düşüb kütlə qabağına,
Heç ölümə, qana səslər insanları?!
Heyf sənə, poeziya, heyf sənə,
Heyf ulu Nizamiyə,Füzuliyə…

Nə gizlədim, açığını deyim sənə,
Mən özümdə günahkaram hüzurunda…
Yer üzünü zəbt eləyən vaxtın olub.
Xeyirxahlıq Kəbəsisən, məbədisən,
Sabir kimi bir uğurlu baxtın olub.
Nakam Müşfiq taleyinin məbədisən.
Bəhər əsl söz aşiqi, söz möhtacı,
Dinlə, ürək sözlərimi deyim sənə…
Bu dünyaya qollarını gen-gen açıb,
Eşq, məhəbbət libasını geyinsənə…

1992.

**Söz satıram,alan yox…**

Çox deyirlər talan olub, uçulub,
Sökür, yeyir kim nə qədər bacarır…
Şairlərin heykəlləri uçulur,
Dəllalların kabusları ucalır…

Dahi sözü indi olub gülməli,
Tacir sözü əsir edib çoxunu…
Nəyə gərək Nizaminin heykəli,
Amma boldur satmaq yçyn çuqunu…

Baş əyərəm bir təmiz kəs tapılsa,
İndi bizi natəmizlər tanıdır.
Kim bu xalqı daha artıq çapırsa,
O, elinin şərəfidir, şanıdır…

Zirzəmilər zırpıların səngəri,
Hər nə desən satır orda qor-qoduq…
Atom belə kap eləməz onlara,
Basılmazdır alverçilər ordusu…

Belələri vətən, millət tanımaz,
Onun bircə pul sözu var dilində.
Xirtdəyimiz, nəfəsimiz, canımız,
Kartof, çörək, ət satanın əlində…

Çox dişilər dişi olub qorxudan,
Çox dişilər kişi kimi çarpışır…
Qardaş vurub qardaşını arxadan,
Dönüb olur ermənin qardaşı…

Üzdən hamı millət dərdi çəkəndi,
Bəs, nə üçün qanı axdı millətin?..
İtdi, batdı,tərac oldu tükəndi,

Ta adı var, özü yoxdur millətin…

Öz qarnına yem güdənlər az deyil,
Vətən gərək yerləşməyə gödəndə…
Sözdə vətən göyərdənlər az deyil,
O göyərə gərək qanda, bədəndə…

Hanı igid Koroğlumuz, hardadır,
Nə zamandır eşidilmir nərəsi.
Gəlsin, görsün qeyrət satır, ar satır,
Torpaq satır onun nankor nəvəsi…

Xəbər verin Vaqifə, Vidadiyə,
Ta onlar tək dost qeydinə qalan yox…
Allah, həsəd aparıram Hadiyə,
Söz satıram, indi onu alan yox…

Meydanlarda qışqırırdıq biz nərik,
Cəbhələrdə itdi, batdı səsimiz.
Çox deyirik Qarabağı vermərik,
Yarı olub daha məmləkətimiz…

Bu yarı da yarılara bölünüb,
Yarıcandır yarıların özü də.
Allah, mənə ta yarımçıq görünür,
Azərbaycan kəlməsi də, sözü də…

1993.

**Məni başa düşmədilər bu zəmanədə…**

Mənə sözün, ixtiyarın verdi yaradan,
Dedi:-sənə ilham, qələm qoy kömək olsun,
Məni başa düşmədilər bu zamanədə,
Axı, başa düşmək üçün baş gərək olsun.

Durub dövrə yalmanmadım, züy tutmadım, yox,
Külək hansı səmtə əsdi, ora əsmədi...
Şair haqdan yaranıbdır, unutmadım, yox,
Gündən-günə özümə bir allah gəzmədim...

Mən xəyanət eləmədim şerə heç vədə,
Onu vara, şan-şöhrətə xırdalamadım...
Ünvanıma min söz dedi hər gədə-güdə,
Heç birini saya alıb qurdalamadım...

Öz irnamım, öz məsləkim oldu həmişə,
Öz sevincim, öz kədərim, öz qəmim oldu.

Söz şairə əqidədir, yoldur həmişə,
Sözə xain çıxanlara söz qənim olsun...

Poeziya oldu qibləm, ilahim,
Onun üçün çox şeylərdən pəhriz saxladım.
Şairliyin uca tutdum adını daim,
Onu ana südü kimi əziz saxladım...

Anam getdi, o anamı eylədi əvəz,
Bacım getdi, şer mənə bir bacı oldu.
O mənimçün könüllü həbs, könüllü qəfəs,
Həmi dərdim, həm də əsl əlacəm oldu...

Pulsuz oldum, amma ruhsuz yaşamadım mən,
Söz dövlətim, söz zinyətim, söz daşım oldu.
Ölüm ömür yoldaşımı aldı əlimdən,
Poeziya mənə ömür yoldaşı oldu...

Yaxşı gündə sayarlarmış demə adamı,
Eh, neçəsi qardaş dedi mənə yalandan...
Yaman gündə hamı qaçdı arxamda, hamı,
Təkcə cəsur sətirlərim durdu dalımda...

Bir ilhamım, bir də sözüm atmadı məni,
Dedilər ki, səninləyik, fikir eyləmə...
Onlar heç vaxt yüngül, ucuz tutmadı məni,
Elə əsl dostlarım da onlarmış, demə...

Sözüm daha sərrast oldu, tutarlı oldu,
Ətəyimdən yapışdı o sanki yüz əlli...
Mən balaca kasıbladım, o varlı oldu,
Mən balaca ruhdan düşdüm, o ruha gəldi...

Zalım, nankor zəmanənin yaxşısı, pisi,
Aşkar, gizli çökdü mənim sətirlərimə.
Elə bil ki, vəcdə gəlib tanrının özü,
Öz əlini çəkdi mənim sətirlərimə...

Əsla bitib-tükənmədi söz əmanətim,
Yollarıma gecə-gündüz o tutdu məşəl.
Amma məni duymadılar bu zəmanədə,
Yəqin ayrə zəmanədə başa düşürlər...

Ürəklərə toxum səpdin, vermədi səmər,
Ha çağırdım yatan kütlə sanma ayıldı...
Söz sayıldı vecsiz, cəfəng sərsəmləmələr,
Köhnə, cındır ibarələr şey sayıldı...

Belə yalan-palanlara kütlə inandı,

Bir də kütlə millət deyil, xalq deyil, axı,
Nə edəsən zəmanə də ağır zamandı,
O da ayırd eləmədi haqqı-nahaqqı...

Nə qədər ki, ruh yaşayır can var bədəndə,
Dəyişməzdir şerim, fikrim, əqidəm, səsim...
İstəmirəm bu dünyadan bir gün köçəndə
Qara kütlə tabutumun dalınca gəlsin...

Başsız qoyun sürüləri dünyada nə çox,
Qoy iki-üç qanan adam ötürsün məni...
Qoymazsınız, qoymazınız balalarım yox,
Çirkin əllər tabutumu götürsün mənim...

Gec-tez sona çatacaqdır ömür nağılı,
Gedəcəyəm bu dünyadan şer dilimdə.
Gedəcəyəm ən birinci oğullarımın,
Bir də, bir sözlərimin çiyinlərində.

1994

**Mənimki sözdür, sizinki para...**

Siz rüşvət alan, mən şer yazan,
Möhtəkir hara, sənqətkar hara?!
Mənimki çətin, sizinki asan,
Mənimki sözdür, sizinki para...
Şairlər heç vaxt zəngin olmayım,
Rüşvət alanda mənlik olmayıb,
Ha söküb, yeyib, doymayıb heç vaxt...
Mənim şerdir əziz sərvətim,
Siz qızıl yığın, yığın cah-cəlal...
Siz altun yığın, mən söz sərvəti,
Sizinki haram, mənimki halal...
Bizə də qəhmər çıxan tapılar,
Darsa da indi şerin məkanı...
Amma deyirlər müdrik babalar,
Saxla samanı, gələr zamanı...
Sənət zamandan, məkandan uca,
Ürəklərdədir gəlir-çıxarı...
Bir allah durur tək ondan uca,
Bir vətən durur ondan yuxarı...
Zərə-zinətə güldüm həmişə,
Təmiz amala inam bəslədim...
Bədbəxt, binəva gördüm həmişə,
Pulda səadət tapan kəslərin...
Mən şerin qulu, siz nəfsin qulu,
Tamahkar hara, sənətkar hara?..

Məsləkiniz boş, cibiniz dolu,
Mən əsl şair, siz əsl alan,
Mənim sərvətim kitablarımdır,
Çətində onlar tutdu qolumdan...
Çətində sözüm mənə yarındı,
Ömrümü qoydum onun yolunda...
Siz eli, xalqı etdiniz talan,
Talançı hara, sənətkar hara?
Mən şer yazan, siz pulu kalan,
Mənimki sözdür, sizinki para...
Mənim param yox, bilirsini z siz,
Gülün, nə qədər gücünüz çatar.
Mənə lağ gülürsünüz siz...
Bu qoca dünya tutandan qərar
Çox varlı-karlı natəmiz, lotu,
Rişxənd ediblər sənətkarlara...
Amma bunu da biliblər, onlar,
Sənətkar durub, ölüblər onlar...

**Şairin olmur dini-imanı məgər...**

Siyasət şairləri dəbə düşüblər,
Bircə misra becərib yetirməyənlər.
Siyasət meydanına tökülüşüblər,
Söz meydanında duruş gətirməyənlər...

Hamı da buqələmun, hamı da dəllal,
Elə xal toplayırlar, maya yığırlar.
Siyasət dəryasına girirlər, allah,
Min yol dibə çökürlər, üzə çıxırlar...

Şerdən qeyri hər nə desən yazırlar,
Donos, pamflet, qərar, çıxış, məruzə.
Kürsülərdən kütləni küyə basırlar,
Ekrandan özlərini soxurlar gözə...

Qəzetləri zəbt edib qamarlayırlar,
Nə qədər tutqun gözü dumanlayırlar...
Gələn başçını dərhal tumarlayırlar,
Gedən başçını dərhal yamanlayırlar...

Şair gərək şerini otura, yaza,
Bir özgə əqidəsi, yolu olmaya...
İlhamının səsinə o, qulaq asa,
O siyasət köləsi, qulu olmaya...

Siyasət yedirtdilər illərlə bizə,
Dadı, rəngi nə imirş, biz onu gördük...

Siyasət qısır etdi şerimizi,
Siyasi şairlərin sonunu gördük...

Söz ayaqlara düşdü, söz xırdalandı,
Söz xırdalandıqca da ad aldı onlar.
Sənətin xəlbiriylə xəlbirlənəndə,
Yalançı padşahtək lüt qaldı onlar...

Birdən cücəyə döndü nə qədər zırı,
Elə bil uca dağlar təpəyə döndü...
Töküldü sözlərindən zəmanənin kiri,
Bütün yazdıqları da köpüyə döndü...

Şerimiz əvvəlkitək bazardır, bazar,
Yenə onda siyasət üfunəti var...
Yenə sözü hərraca qoyub satırlar,
Yenə söz qoşanların min sifəti var...

Sənətdə at oynadıb yenə düşüklər,
Şairin olmur dini-imanı məgər...
Siyasət meydanına tökülüşürlər,
Söz meydanında duruş gətirməyənlər.

1992

**İstefa vermişəm şerə görə**

Mən qalan ömrümü həbs eləyirəm,
Onu təkcə şerə həbs eləyirəm.
Mənəm, dörd divardır, kağız-qələmdir,
Mənə söz qalandır, sənət qalamdır.
Gecəli, gündüzlü yazmaqdır peşəm,
Bütün ad-sanlara dal çevirmişəm.
Bütün şöhrətlərə tüpürmüşəm mən,
Yolumun üstündən süpürmüşəm mən.
Bütün əngəlləri yıxıb keçmişəm,
Özümə könüllü zindan seçmişəm,
Öz iş otağımı, öz iş yerimi,
Qanımla yazıram sətirlərimi...
Şersiz btüşən günlərim sizdən,
İndi miluon kərə üzr istəyirəm...
Mənəm, dörd divardır, kağız-qələmdir,
Yarımçıq şairlik mənə haramdır...
İstefa vermişəm şerə görə,
Bütün qulluqlara, vəzifələrə...
İstefa vermişəm şerə görə,
Bütün məzələrə, əyləncələrə...
Mənəm, dörd divardır, kağız-qələmdir,

Şersiz bu dünya puçdur, yalandır.
İstefa vermişəm şerə görə,
Bütün günəşlərə, səyyarələrə...
Bütün qatarlara, təyyarələrə,
Dağlara, düzlərə, çəmənliklərə
İstefa vermişəm şerə görə,
Mənəm, dörd divardır, kağız qələmdir,
Ymidim, köməyim yalnız qələmdir...

1993.

**Şer yazmayanları görüb vəcdəyə gəldim**

Şer ilə yaşadım həftələri, ayları,
Qələmimi yormadı sözün sərt dolayları,
Məni ilham səslədi, çağırdı, harayladı,
Onun havası ilə sözə səcdəyə gəldim,
Bu meydanda mən də öz köhlənimi səyirtdim,
Şer yazmayanları görüb vəcdəyə gəldim,
Şer yazanlar məni çiyrəndirdi şerdən...

Mən onlarda Sabirdən heç nişanə görmədim,
Azca əgər görmədim Nəsimidən,Hadidən,
Gözlərində eşqdən bir işarə görmədim,
Paxıllıqdı çoxunun işi, gücü, adəti...
Bu aləmə mən Müşfiq, mən Vurğun deyə gəldim.
Həm də haqqın verdiyi ilham adlı sehrlə...
Şer yazmayanları görüb, vəcdəyə gəldim,
Şer yazanlar məni çiyrəndirdi şerdən...

Mən onlara baxanda qəlbim düşdü təşvişə...
Dedim bəlkə keçibdir şerin vaxtı, əyyamı...
Sənətkarlar gözümdə allah olub həmişə,
Yenə allah sayıram Şəhriyarı, Xəyyamı...
Əlim qələm tutalı bu fikrə-rəyə gəldim...
Bu inam mənimlədir o vaxtdan, o dövrdən...
Şer yazmayanları görüb, vəcdəyə gəldim,
Şer yazanlar məni çiyirdindi şerdən...

Aşıq Cuma düz deyib, düz yazıb Molla Cuma,
Əsil dost da, şair də, ya bir olar, ya iki...
Bizdə nəzm qoşanlar xalqa keçib hücuma,
Beş deyil, on beş deyil, bir ordudur bizimki...
Qoy Xəqani, Natəvan gəsin, köməyə gəlsin,
Qoymayın, bu naşılar söz mülkünü devirdi...
Şer yazmayanları görüb, gəcdəyə gəldim,
Şer yazanlar məni çiyrəndirdi şerdən...

Yazanlar, and verirəm şairlərin canına,

Qələmləri tullayın, vərəqləri tapdayın...
Gedəyin söz loğmanı Nizaminin yanına,
Bu müşkülə, bu dərdə bəlkə əlac tapdı o...
Füzuli də İraqdan qədim Gəncəyə gəlsin...
O da nəhəng möhtəşəm,o da pirdi şerdə...
Şer yazmayanları görüb, vəcdəyə gəldim,
Şer yazanlar məni çiyəndirdi şerdən...

1993.

**Amma ki, bizimkilər heç onlara bənzəməz...**

Mən şairlər tanıram, baş əyməyir bir kəsə,
Amma ki, bizimkilər heç onlara bənzəməz...
Balaca zaman dönə, balaca külək əsə,
Sürətlə dəyişirlər, başlanır bir bəhsə-bəhs...
Belələri nə cürə qələm tutur görəsən,
Belələri xudaya, necə şer yazır bəs?

Mən böyüklər tanıram, xalqının cəfakeşi,
Amma ki, bizimkilər heç onlara bənzəməz...
Vəzifəyə keçdimi elin gözünü deşər,
Sorar nə ki, qanı var, qoymaz ki, alsın nəfəs,
Çapıb, yemək, talamaq olar amalı, işi,
Altına dollar yığar, qarajına «Mersedes».

Mən milyoner tanıram Tağıyev tək bir düha,
İndi milyarderlər də o kişiyə bənzəməz...
Kimə azca əl tuta edəcək reklam, şüar,
Bu da bir cürə azar, bu da bir cürə mərəz...
Bilməm daha nə deyim, bilməm nə yazım daha,
İnciməyin sözümdən kamil deyilik qərəz...

1992

**Görməyirsən, dağlar necə ağlayır...**

Bahar günlərində dostum Əbülhəsən, sehrkar qarmonçu Aftandil, Xızı mahalının onlarla bərbad olmuş qədim yurd yerlərindən biri – Xanagə kəndini ziyarətə getdik... Gördüklərimiz uçuq evlər idi, gözəl bahar idi, ulu günəş idi, bir də bu yerləri qoyub gedən babaların nəvə-nəticələri biz idik, bir də bizimlə həsrətimiz, xəcalətimiz idi. Aftandil hündür bir çay daşı tapıb üstündə oturdu, üzünü xarabəliklərə tutub qarmonunu səsləndirməyə başladı. Ölüm sükunətinə qərb olmuş bu aləm elə birdən-birə cana gəldi. Elə bir əfsanələr içinə düşdüm. Axı uzun-uzun dövrlərdən sonra ilk dəfə idi burada qarmon səslənirdi. Özü də səslənən adi qarmon deyil, Aftandilin qarmonu idi. Bu heyrətəmiz duyğular içində mən də bu sətirləri oxumağa başladım:

Yenə gördüm bu xaraba yerləri,

Yenə mənim şair könlüm talandı.
Çal qarmonu, nalə çəksin dilləri,
Çal Aftandil, çal qardaşım, amandı...
Çal, həsrətin bəlkə gözü ovula,
Bu qəflətdən yurd yerləri oyana...
İblis sükut bəlkə burdan qovula,
Çal qardaşım, hay verirəm hayına...
Görməyirsən dağlar necə ağlayır,
Uşaq kimi kövrəlirlər məzarlar...
Bu yolları kimlər belə bağladı,
Bu torpağı kimlər saldı nəzərdən...
«Vağzalı» çal, əlli ildir, yüz ildir,
Bir yol gəlin gəlməyibdir bu kəndə...
Çal, bəlkə də Novruz baban dirildi,
Səda çıxdı bəlkə Xanım nənəmdən...
Çal, tükləri biz-biz durur adamın,
Çal, açılar bəlkə bağlı qapılar?..
Çal, bəlkə də cavan ölmüş atamın
İtib-batmış məzar yeri tapıla?..
Harda qaldı bu yerlərin ərləri,
Necə oldu bu kəndləri salanlar?
Çal, Aftandil, qəlbim qübar eyləyir,
Ovunuram qarmonunu çalanda...
Çal, yerin də qulağı var, qulağı,
O da bizi eşidəcək axırda...
Əcdadların ruhu qalxıb ayağa,
Sanki bizə küskün-küskün baxırlar...
Xəcalətik soyumuzun yanında,
Tək qoymuşuq bu yerlərdə onları...
Babaların qanı axır qanında,
Görmürsən ki, necə çəkir qan qanı?..
Görmürsən ki, məzarıstan qaynayır,
Qəbirlərin bizə baxır gözləri?..
Xərabələr yallı gedir, oynayır,
Göyə qalxır nalələri, tozları...
Görmürsən ki, kövrəlibdir sal qaya,
Həsrətində nə iz qalıb, nə əsər...
Sən o qara qarğaya bax, qarğaya,
Necə durub qulaq asır bu səsə?..
İtib-batmış cığırlar da dirildi,
Bulaqlardan birdən qalxdı lap zilə...
Canavarlar yuvasına giribdir,
Tülküyün unudubdur tülkülər...
Çal, qardaşım, birdə, birdə çal onu,
Elə bil ki, möcüzə var dilində...
Mənim şerim, sənində ki, qarmonun,
Bəlkə ölmüş bu yerləri dirildə.

**Neçə təzə şair gələr bu dünyaya...**

Sal qayayam, yoğrulmuşam qüdrət ilə,
Heç bir rüzgar bu səfimi yara bilməz.
Lap əzrayıl canımı da ala bilər,
Amma məndən qələmimi ala bilməz.

Söz rişəmi soyu, kökü dərindədir,
Həm ləşkəri, həm kişvəri yerindədir.
Qüvvəm, gücüm ilhamım əlindədir,
Kimsə məni öz taxtımdan sala bilməz.

Aşıq üçün təbib başqa, dərman başqa,
Qanun başqa, qayda başqa, fərman başqa.
Bir şerdən, bir də nazlı yardan başqa
Heç Allah da dərdlərinə çarə bilməz.

Bir gün ölüm didər məni, dələr məni,
Son məqamım, son saatım gələr mənim.
Gözlərimə qara zülmət dolar mənim,
Sözlərimə qara zülmət dola bilməz.

Təzə kəslər düşər eşqə, təmənnaya,
Təzə sözlər köhnələri salar saya.
Neçə təzə şair gələr bu dünyaya,
Amma biri Cabir Novruz ola bilməz.

1992

**Yaltaqdan şair olmaz**

Yaltaqdan «şair» olar,
Şairdən yaltaqdan olmaz,
Şairin qürurunu
Heç nəylə almaq olmaz...
Oyuncaqdır əllərdə
Yenə bəzi yazarlar,
Əsl şair heç zaman
Əldə oyuncaq olmaz...
Məddahlardır yenə də
Əl-ayağa dolaşan.
Onları nə ki yazar,
Heç insan saymaq olmaz...
Kişiklikdir şairin
Ömrü, yolu, amalı,
Qorxaqların sözünə,
Şerinə uymaq olmaz...
Ürəyi sapdan incə,

İradəsi poladdan.
Şair tək müdrik insan,
Şair tək uşaq olmaz...
Bütün şahlar, xaqanlar
Baş əyiblər şairə
Şair əyildi, ondan
Xalqına dayaq olmaz...
Şahsız da keçinərik,
Bəysiz də dolanarıq,
Füzulisiz, Sabirsiz
Fəqət yaşamaq olmaz.
Şairi yalnız millət
Mühakimə eləyər,
Ayrı yerdə şairin
Məhkəməsi baxılmaz...

1992

**Gecikmiş məhəbbət mahnısı**

**Sən elə bir vaxtda rast gəldin mənə...**

Sən elə bir vaxtda rast gəldin mənə,
Qurumuş bulağam, bulanmış suyam...
Sən elə bir vaxtda rast gəldin mənə,
Oxunmuş nəğməyəm, çalınmış toyam.

Nə gücüm çatdı ki, səndən yapışım,
Nə gücüm çatdı ki, səndən qaçam mən...
Nə odum oldu ki, yanam, alışam,
Nə sehrim oldu ki, cavannaşam mən...

Sən elə bir vaxtda rast gəldin mənə,
Ömrün payız vaxtı, xəzəl çağıydı...
Sən elə bir vaxtda rast gəldin mənə,
Sənin gəncliyinin gözəl çağıydı...

Nə deyə bildim ki, tutmaz sevdamız,
Nə deyə bildim ki, tuta bizimki...
Bizimdir səmada axan o ulduz,
O uzaqda itən qatar bizimdir...

Sən elə bir vaxtda rast gəldin mənə,
Dayanıb durmuşdum yol ayrıcında...
Sən elə bir vaxtda rast gəldin mənə,
Bir üzüm cavandı, bir üzüm qoca...

Nə deyə bildim ki, sevən çağımdı,

Nə dedim sevirəm, mənə dayaq ol...
Nə deyə bildim ki, mənə yaxın dur,
Nə deyə bildim ki, məndən uzaq ol...

Sən elə bir vaxtda rast gəldin mənə,
Ömrün eşq badəsi içilmiş idi...
Sən elə bir vaxtda rast gəldin mənə,
Mənzilimin çoxu keçilmiş idi...

Nə deyə bildim ki, ürəksən mənə,
Nə deyə bildim ki, ürək deyilsən...
Nə deyə bildim ki, gərəksən mənə,
Nə deyə bildim ki, gərək deyilsən...

Sən elə bir vaxtda rast gəldin mənə,
Bu necə fəsildi, necə vaxt idi...
Sən bir vaxtda rast gəldin mənə,
Bu necə taleydi, necə bəxt idi...

Nə deyə bildim ki, pənahsızam mən,
Nə deyə bildim ki, pənah məndədir...
Nə deyə bildim ki, günahsızam mən,
Nə deyə bildim ki, günah məndədir...

Sən elə bir vaxtda rast gəldin mənə,
Özüm öz halıma gülmək istədim...
Sən elə bir vaxtda rast gəldin mənə,
Təzədən dünyaya gəlmək istədim...

**Eşq-məhəbbət ölməyəcək**

Xalqlar üz-üzə dursa da,
Eşq-məhəbbət ölməyəcək...
Bəşəriyyət qırılsa da,
Eşq-məhəbbət ölməyəcək...
Məhəbbəti yerə basdır,
Göyərib üzə çıxacaq.
Məhəbbətin məzara qoy,
Məzardan səsi çıxacaq.
Poladın içində saxla
Poladı kəsib çıxacaq,
Sevən gözlər kor olsa da,
Eşq-məhəbbət ölməyəcək...
Hətta günəş qaralsa da,
Eşq-məhəbbət ölməyəcək...

Bütün ərzin yollarını
Kərgədanlar kəsə belə,
Qəbilələr bir-birinin

Başlarını kəsə belə,
Lap millətlər bir-birini
Diri-diri yesə belə,
Ordular üzə dursa da,
Eşq-məhəbbət ölməyəcək...
Hər şey tar-mar olsa da,
Eşq-məhəbbət ölməyəcək...

Nə Leylinin, nə Məcnunun
Kimsəyə kini olmayıb,
Sevənin sevgidən özgə
Milləti, dini olmayıb.
Qoca ərzin, vallah, billah
Eşqsiz günü olmayır,
Bu aləm zindan olsa da,
Eşq-məhəbbət ölməyəcək...
Hər gün ölüm, qan olsa da,
Eşq-məhəbbət ölməyəcək...
İnsan insanı duymasa,
Ruhu ölər, bağrı çatlar,
Yenə qardaş olacaqlar
Bir-biriylə bütün yadlar.
Məhəbbətdən aşağıdır
Ədavətlər, küdurətlər,
And içirəm etiqada
Eşq-məhəbbət ölməyəcək,
Sevənə yox zaval, xəta
Eşq-məhəbbət ölməyəcək...

Ərzin vulkanları dönə
Od dövrünə, köz dövrünə,
Həyat qayıda əvvəlki
Su dövrünə, buz dövrünə.
Lap planet qədəm qoya
Hətta insansız dövrünə,
Lap meymun əsri gəlsə də,
Eşq-məhəbbət ölməyəcək.
Dünya ölüb-dirilsə də,
Eşq-məhəbbət ölməyəcək...

1994

**Necə ömür eylər insanlar...**

Hamı laqeyd olub daş tək, hamı biganəyə dönmüş,
Ürəklər bum-buz olmuş boş, soyuq bir xanəyə dönmüş.
Məhəbbət, sevgi qeyb olmuş, tamam əfsanəyə dönmüş,
Küdurət indi hakimdir, odur ki, hey axır qanlar,

Xudaya, bəs məhəbbətsiz necə ömr eylər insanlar?

Bəşərçün ondan özgə bir xilas yoxdur, ümid yoxdur,
Onunla bir keçən ömrə ölüm yoxdur, süqut yoxdur.
Onun ölməzliyinə həm dəlil, həm də sübut çoxdur,
Onunla göz açıb xilqət, onunla dövr edir qanlar,
Xudaya, bəs məhəbbətsiz necə ömr eylər insanlar?

Haçan ki, Qeys ilə Leyli bu eşqin badəsin içdi,
Bu bir əfsanəyə döndü, gəzib dildən dilə düşdü,
Məhəbbətsiz min il sağ qalsa da, məxluq yenə heçdir,
Eh, onsuz bir müqəvvadır bütün huriyi qılmanlar,
Xudaya, bəs məhəbbətsiz necə ömr eylər insanlar?

Çox adi daşdı-torpaqdı məhəbbətsiz vətən varsa,
Məhəbbətdir bu torpaqda vətənçün bir yanan varsa,
Onun uğrunda öl, can ver bir azca qeyrətin varsa,
Ölümdən güclüdür min yol anacanlar, vətəncanlar,
Xudaya, bəs məhəbbətsiz necə ömr eylər insanlar?

Nəyə lazımdı insanlıq əgərçi sevgisi yoxsa,
Adamlar bir növ heyvandır əyərçi sevgisi yoxsa,
Aya, Marsa çevir ərzi əyərçi sevgisi yoxsa,
Dağıtsın ərzi vulkanlar, tökülsün qanlı leysanlar,
Xudaya, bəs məhəbbətsiz necə ömr eylər insanlar?

1994

## Gecikmiş məhəbbət mahnısı

Sən gizli gəlmisən ömrümə, inan,
Bu gizli eşq ilə yaşayacağam.
Dünyanın ən ağır yükü sayılan,
Gecikmiş məhəbbət daşıyacağam.
Sən mənim ömrümdə açan çiçəksən,
Onu ürəyimdə bəsləyəcəyəm.
Sən məni heç zaman görməyəcəksən,
Mən səni hər zaman gözləyəcəyəm.
Uzaqdan göz qoyub gözünə sənin,
Sanki görəcəyəm Allahımı mən.
Düşüb qarış-qarış izinə sənin,
Əzbərləyəcəyəm yollarını mən.
Səni zərrə-zərrə kəşf edəcəyəm,
Səni milyon kərə kəşf edəcəyəm,
Hər günü adınla başlayacağam,
Hər günü adınla bitirəcəyəm.
Səni röyalarda oxşayacağam,
Səni xəyallarda itirəcəyəm.

Sən məni heç zaman duymayacaqsan,
Mən bütün ömrünü izləyəcəyəm.
Sən mənə məhəl də qoymayacaqsan,
Mən səni həmişə səsləyəcəyəm,
Hər gün mənim üçün doğulacaqsan,
Hər gün mənim üçün yox olacaqsan.
Mənim sevincim də sən olacaqsan,
Mənim kədərim də sən olacaqsan.
Mən sənin adını hər saat, hər an,
Qəlbimdə məktublar yollayacağam.
Sən heç vaxt fikrimdən çıxmayacaqsan,
Mən heç vaxt yadında qalmayacağam.
Belə həsrətlə qocalacağam,
Belə enəcəyəm, ucalacaqam.
Keçib bir alovdan, keçib hər oddan,
Böyük əzabından şad olacağam,
Sən mənə həyatda ən doğma adam,
Mən sənə yaddan da yad olacağam.
Sən ömr edəcəksən ayrı adamla,
Mən kiməm, nəçiyəm, bilməyəcəksən.
Bir gün bu dünyadan sənin adınla
Köçüb gedəcəyəm bilməyəcəksən.

**Sən oldun**

Bu sevgini öz əlində bəslədin,
Anası da, balası da sən oldun.
Özün məni harayladın, səslədin,
Dərdlərimin çarəsi də sən oldun...

Sakit-sakit şer, nəğmə ötürdüm,
Tənha, yalqız bu dünyadan gedirdim,
Birdən-birə öz səmtimi itirdim,
Həyatım da, xilasım da sən oldun...

Nə çox idi seviləsi qız, qadın,
Hər yetənə baxıb məftun olmadım.
Tale özü səni mənə yolladı,
Qış ömrümün son yazı da oldun...

Sən köklədin kökdən düşmüş könlümü,
Həsrətlərdə yanıb, bişən könlümü,
Bu yanıqlı, bu pərişan könlümün,
Sevinci də, naləsi də sən oldun...

Xəyal kimi hər gün girdin yuxuma,
Nəfəs kimi axdın, doldun ruhuma,
Əvvəl-əvvəl dərman oldun ruhuma,
Axır dərdi-bəlası da sən oldun...

1994

**Sonet**

Günlərim calanıb ömür yoluna,
Sözlərim səpilib ayaqlarına...
Sənin nur şəfəqli baxışlarından
Yandırdın eşqimin çıraqlarını...
Qəlbimin başından vurub asmışam,
Sevgi dövlətlərinin bayraqlarını...
Bir soyuq baxışın söndürə bilər,
Sinəmdə məhəbbət ocaqlarını,
Sənin ənlik-kirşan nəyinə gərək,
Qismətin allayır yanaqlarını...
Mənə dodaqların eylədi əvəz
Anamın ən dadlı qaymaqlarını.
Desən hicran gəlir, qaçaq, qurtulaq,
Keçərəm Şillerin qaçaqlarını...

1994

**Səsim səsinə öyrəşib...**

Sənsiz məndə dözüm yoxdur,
Səndən özgə kəsim yoxdur,
Səsin yoxsa, səsim yoxdur,
Səsim səsinə öyrəşib...

Çox baxmışam yollarına,
Qol salmışam qollarına,
Bəxtim qızıl xallarına,
Üzüm üzünə öyrəşib...

Əlim zərif əllərinə,
Dilim şirin dillərinə,
Telim ipək tellərinə,
Gözüm gözünə öyrəşib...

Aylar, illər keçə-keçə,
Bir olmuşuq gündüz-gecə,
Səndən sonra, axı, necə,
Mən özgəsinə öyrəşim?..

Bu eşqin möhkəmdi himi,
Dəmir kimi, polad kimi,
Ruhum qaynar həyat kimi,

Bu el qızına öyrəşib...

1990

**Heç demə burayacan**

Heç demə burayacan,
Sən məni yaşadırdın...
Sənsiz oldum yarıcan,
Bir soyuq daşa döndüm...

Nə güc qaldı, nə nəfəs,
Düz köksümdən vuruldum.
Oldum bom-boş bir qəfəs,
Ruhsuz bir bədən oldum...

Heç demə burayacan,
Sənlə insan idim.
Sən verdin mənə can,
Sənin bir parçan idim...

Sən getdin sanki birdən,
Özümdən aralandım...
Ayrıldım məhbərindən,
Dağıldım, paralandım...

Heç demə burayacan,
Sən mənə dayaq idin...
Sənlə sevgi dünyam,
Bütöv idi, sağ idi...

Qanını qat qanıma,
Nə dərd bildim, nə sitəm...
Qaytar yarı canımı,
Ki, dirilsin təzədən...

1990

**Bu nə cürə məhəbbətdi**

Özü yandı, özü söndü,
Bu nə cürə məhəbbətdi?
Birdən-birə üzü döndü,
Bu nə cürə məhəbbətdi?

Bir qisməti həsrət imiş,
Bir qisməti möhnət imiş,

Bir qisməti nifrət imiş,
Bu nə cürə məhəbbətdi?

Əvvəl idi, axır oldu,
Həmdəm idi, yağı oldu,
Həqiqəti nağıl oldu,
Bu nə cürə məhəbbətdi?

Bir adı qəbahət imiş,
Bir adı xəyanət imiş,
Bir adı fəlakət imiş,
Bu nə cürə məhəbbətdi?

Çox-çox illərim heyf oldu,
Xəyala döndü qeyb oldu,
Külü göylərə sovruldu,
Bu nə cürə məhəbbətdi?

1996

**Adam da adamı bu qədər istəyər...**

Deyirlər sevginin öz dövrü, yaşı var,
Peşiman oluram baxanda güzgüyə...
Bəs bu nə sevdadır vurubdur başıma,
Adam da adamı bu qədər istəyər?..

Axı, nə sən Leylisən, nə mən Məcnunam,
Bəs niyə ürəyim adını səsləyər?..
Bu sirri mən sənə açmağa məcburam,
Adam da adamı bu qədər istəyər?..

Nə sən çox cavansan, nə mən çox ahılam,
Bəs nədən sönməyir bu eşqim, istəyim?..
Mən ikimizi də növcavan sayıram,
Adam da adamı bu qədər istəyər?..

Tənhalıq daşını atmışam daha mən,
Gecə də, gündüz də qulağı səsdəyəm?..
Könlümün gözüylə baxıram cahana,
Adam da adamı bu qədər istəyər?..

Mən sənin özünəm, sən mənim özümsən,
Araya ayrılıq düşübdüır bəs niyə?
Gecələr röyamsan, gündüzlər gözümsən,
Adam da adamı bu qədər istəyər?..

Sən qadın olsan da qız kimi təmizsən,

Nə qədər təmizsən, qorxuram göz dəyər...
Necə də dadlısan, şirinsən, əzizsən,
Adam da adamı bu qədər istəyər?..

Sonuncu şansımsan sən mənim son andım,
Məhəbbət oduna tutulmuş xəstəyəm...
Bu eşqsiz, sevgisiz, amansız zamanda,
Adam da adamı bu qədər istəyər?..

Sən mənim dilbərim, mələyim, Allahım,
Gecə də, gündüz də üstündə əsdiyim...
Sən məni istəsən demərəm bir daha,
Adam da adamı bu qədər istəyər?..

1993

**Səni unutmaqdan ötrü…**

Ən dözülməz ağrılara, əzablara tab edirəm,
Şeytandan ümid umuram, iblisə xitab edirəm,
Ürəyimin al qanını döndərib şərab edirəm,
Başıma çəkib içirəm səni unutmaqdan ötrü,
Arzumu kəsib-biçirəm səni unutmaqdan ötrü…

Röyalara meyl edirəm bəlkə yadımdan çıxasan,
Gözlərimi qırpan təki görürəm mənə baxırsan…
Sən həqiqətin özüsən, ya xəyalısan, yuxusan,
Öz-özümlə döyüşürəm səni unutmaqdan ötrü,
Qabıq verib dəyişirəm səni unutmaqdan ötrü.

Köksümü cırıb açıram ayrılığın küləyinə,
Bütün keçmiş keçənləri xəlbirləyib ələyirəm.
Qaşıq-qaşıq istiotu əndərirəm xörəyimə,
Acı-acı gülüşürəm səni unutmaqdan ötrü,
Hicran ilə öpüşürəm səni unutmaqdan ötrü…

Ayla həmfikir oluram uzun-uzun gecələri,
Gündüzləri sağa-sola hey ölçürəm küçələri,
Otağımda gizlənirəm sındırırsan pəncərəmi,
Ünvanımı dəyişirəm səni unutmaqdan ötrü,
Daha nə yollar düşünüm səni unutmaqdan ötrü…

Çözələnir xatirələr, könlüm, ruhum qubarlanır,
Tarım durur əsəblərim, enir, qalxır damarlarım,
Su verirəm meynələrə, mis vururam divarlara,
Zülmət quyuya düşürəm səni unutmaqdan ötrü,
Sinəmi söküb deşirəm səni unutmaqdan ötrü.

İş olmayan yerdə belə özümə iş gördürürəm,

Qışda qar təmizləyirəm, yayda milçək öldürürəm,
Bütün sək-rəqibləri öz üstümə güldürürəm,
Hey haldan-hala düşürəm səni unutmaqdan ötrü,
Ürəyimlə ötüşürəm səni unutmaqdan ötrü.

Səndən qeyri nə vurğunam, nə möhtacam kimə isə,
Səndən qeyri olmasa da ehtiyacım kimə isə,
İstəyirəm ürəyimi qəsdən açım kimə isə,
Yalandan eşqə düşürəm səni unutmaqdan ötrü,
Mələklərlə «görüşürəm» səni unutmaqdan ötrü…

Gözümdən çətin gedəsən gözümə qor dolmayınca,
Canımdan çətin çıxasan canım rahat olmayınca,
Son ümidim, son pənahım o dünyaya qalıb ancaq,
Bu dünyamı dəyişərəm səni unutmaqdan ötrü,
Ölümə elçi düşərəm səni unutmaqdan ötrü…

1994

**Mən bilirdim qorxuludur böyük eşq…**

Çoxdan idi gözləyirdim bu günü,
Mən bilirdim bunu belə olacaq…
Bu sahilsiz məhəbbətin, sevginin,
Bilirdim ki, sonu belə olacaq…

Mən bilirdim qorxuludur böuük eşq,
Bunu sənə dönə-dönə demişdim…
O tərsinə dönə bilər tez, ya gec,
Dönə bilər bəzən kinə demişdim…

Çoxdur onun tərəddüdü, gümanı,
Qısqanclıqdır bərabəri, ekizi…
Bəzən olur qara rəngə boyanır,
Tutulanda qəzəbindən gün özü…

Mən görmüşdüm, mən bilirdim, bilirdim,
Bədbəxt olur insan qəlbə sevəndə…
Sən bu acı həqiqətə gülürdün,
Mənmi düzəm, sənmi düzsən de, indi…

Göstər mənə sevib xoşbəxt olanı,
Sevib bədbəxt olanlarsa nə qədər…
Çox Məcnunlar oldu eşqin qurbanı,
Külə döndü gör nə qədər Leylilər…

Məhəbbətin bir sifəti inamdır,
O birisi həsrət, əzab, dərd, kədər…

Bir gün oldu azıb qaldıq dumanda,
Nagah kəsdi yolumuzu şübhələr…

Olduq dedi-qoduların gülüncü,
Aramıza girdi iblis ayrılıq…
Məhəbbətin kin ovxarlı qılıncı,
Bir də gördük öz qanından sıyrılıb…

Bir də gördük uçurumdur irəli,
Ümid, inam gördük bizdən əl üzüb…
Heç nə görmür məhəbbətin gözləri,
Görünəndə yaman üzü, sərt üzü…

Çoxdan idi gözləyirdim bu günü,
Mən bilirdim bunu belə olacaq…
Bu sahilsiz məhəbbətin, sevginin
Bilirdim ki, sonu belə olacaq…

1994.

**Uğur olsun, gülə-gülə…**

Ey istəyim, ey ürəyim, məhəbbətim,
Heyf sənə, heyf sənə, heyf sənə…
Təəssüf ki, ayrılıq biz əbədi,
İcazə ver son s.zümü deyim sənə…

Bu son sözüm, son xitabım, son nidamdır,
Ürəyimin axırıncı döyüntüsü…
Bu qarşında etirafdır, ehtiramdır,
Bu sonuncu həsrət, qüssə, umu, küsü…

Təsəllimdir cz-czümü danlamağım,
Bağışla ki, günahım var qabağında…
Bağışla ki, ürəyini anlamadım,
Ömrümün bu vədəsində, bu çağında…

Ən müqəddəs, ən bakirə duyğulardan,
İkimizə yuva qurdun, gözəl qadın.
Mən uçurdum o yuvanı sənə qurban,
O necə də kövrək imiş anlamadım…

Uçurmadım fəqət onu bilə-bilə,
Günah amma məndə oldu, mən kal oldum…
Sənə uöur diləyirəm bundan belə,
Mənə haram, sənə sevgi halal olsun…

Eşqə kömək, eşqə diqqət gərək imiş,

Ona qayğı lazım imiş gecə-gündüz…
O insana hava imiş, çörək imiş,
Laqeyd oldum onun məndən üzü döndü…

Yolunda sədd dura-dura sevdin məni,
Mənsə qorxdum bu sevgidən necə danım…
Lap nikahın ola-ola sevdin məni,
Mən bu eşqin kölgəsində daldalandım…

Baş əyirəm hüzurunda, kişi qadın,
Sən ucasan gözlərimdə allah qədər…
Bu sevgiyə layiq deyil mənim adım,
Etirafım günahımdan daha betər…

Heyf sənə məhəbbətim, heyf sənə,
Uçub getdin əllərimdən görə-görə
İcazə ver bir də, bir də deyim sənə,
Sağlıqla qal, uğur olsun, gülə-gülə.

1993.

**Təki səsin gəlsin**

Səsin gəlməyəndə qəm dəryasıyam,
İnsan olmağıma şübhə edirəm.
Sən bütün ömrümün təmənnasısan,
Səsinə, özünə qibtə edirəm.

Səsin gəlməyəndə pis günlər gəlir,
Dərd dərdə söykənir, fikir fikirə.
Nisgillər ardınca nisgillər gəlir,
Həsrət göyərdirəm, hicran əkirəm.

Səsin gələn kimi açılır səsim,
Qüssədən qəlbimdə qalmır bir əsər.
Özümdən şübhəylə soruram özüm,
Bu nikbin, bəxtəvər mənəm görəsən?

Səsin gəlməyəndə lal oluram mən,
Sükuta qərq olur, evim, ürəyim…
Qara bulud kimi tutuluram mən,
Dadını itirir suyum, çörəyim.

Səsin gələn kimi vaplığım əsir,
Canıma elə bil təzə can gəlir.
Səsin gəlməyəndə elə bil səsim,
Bir zülmət qaranlıq quyudan gəlir.

Mən nəfəs alıram gül nəfəsinlə,
Sən bunu bilirsən özün, əzizim…
Lap acıla məni şirin səsinlə,
Təkin səsin gəlsin, səsin, əzizim…

1993.

**İçində**

Bir zamanlar ilk cərgədə gedirdim,
Bütün sevən oğulların içində…
Birdən-birə əzizimi itirdim,
Çaşıb azdım bu yolların içində.

Həsrət verib ürəyimdə səs-səsə,
Buna çətin əsəb dözə, can dözə.
Sirrimi də açmayıram bir kəsə,
Qovruluram ağrıların içində…

Xəyal oldu hara uçdu mələyim,
Qanadlandı, bəlkə quşdu mələyim,
Gecə-gündüz nalə çəkir mələyir,
Xoyratlarım, ağrılarım içimdə…

Fərhad yetsin harayıma bu gündə
Çalsın mənim dağ köksümə külüngü,
Ən dəyərli, ən qiymətli, ən zəngin,
Bir dəfinə bağlı qalıb içimdə…

Nəsib olmur heç bir kimə məhəbbət,
Nə Leyliyə, nəMəcnuna məhəbbət,
Nağıl imiş sən heç demə məhəbbət,
Yaşamışam nağılların içində…

1994.

**Həyat, sən nə qəribəsən…**

**Mus:Oqtay Kazımınındır**

Nə yaxın qonşu olduq
Bu dünyada,
Ayrı-ayrı doğulduq
Bu dünyada,
Axır gəlib bir olduq
Bu dünyada,
Eü həyat, sən nə qəribəsən?..

Nəqarət

Sən ay kimi baxdın mənə,
Sən gün kimi baxdın mənə,
Gözlərinin qarasıyla
Güldü ömrün baxdı mənə…

Aylar keçir, illər keçir,
Axın olur,
Yadlar gəlir doğma olur,
Yaxın olur.
Məhəbbətlə ötən ömür
Nağıl olur,
Ey həyat, sən
Nə qəribəsən?..

Bu ilqarı yaşatdıq canımızda,
Gənclik eşqi qaynadı qanımızda.
Qohum oldu atamız,anamız da,
Ey həyat, sən
Nə qəribəsən?..

Nəqarət

Sən ay kimi baxdın mənə,
Sən gün kimi baxdın mənə,
Gözlərinin qarasıyla
Güldü ömrün baxdı mənə…

Aylar keçir, illər keçir,
Axın olur,
Yadlar gəlir doğma olur,
Yaxın olur.
Məhəbbətlə ötən ömür
Nağıl olur,
Ey həyat, sən
Nə qəribəsən?..

1967.

**Sevənləri qoru, dünya**

**Mus: Oqtay Kazımınındır**

Məhəbbət dərindən dərində olur,
Dayazda məhəbbət olmur heç zaman.
Hər könlün ən gizli yerində olur,
Axır hər bədənin qan damarında.

Nəqarət

Yaşa məhəbbətlə dolu, a dünya,
Eşqi tükənməzsən, üzü gülərsən.
Əvvəl sevənləri qoru, a dünya,
Sevməyən kəslərlə özün bilərsən.

Məhəbbət ən büllur könüldə açar,
Ləkəli ürəkdə açmaz heç zaman.
Məhəbbət ən isti iqlimdə açar,
Şaxtada, küləkdə açmaz heç zaman.

Nəqarət

Zərifdir, kövrəkdir, verməyin bada,
Saralar tökülər, həşəm kimidir,
Birini sevməyən adam dünyada
Gözümdə hamıya düşmən kimidir.

1987.

**Taleyim mənim**

**Mus:Oqtay Kazımınındır**

İl ötdü, ay keçdi,
Qəlbimi açmadım
Heç kimə
Heç kimə mən yar.
Yan bir şimşək kimi
Ömrümdən keçginən,
Keçginən,
Keçginən sən, yar.

Nəqarət:

Fəsillər adlandı,
Könüllər odlandı,
Sevənlər şadlandı,
Bəs mən neynim, neynim gəl,
Taleyim gəl,
Sən
Məni qurtar
Bu hicran əlindən
Dağlara qar düşər
Hələ mən yanaram,
Yanaram,

Yanaram mən yar
Yadıma yar düşər,
Həsrətdən donaram,
Donaram,
Donaram mən yar.

Nəqarət:

1970.

**Qəriblik**

**Mus: Oqtay Kazımınındır**

Mən könüllü bu yerlərə yol aldım,
Haray saldı ürəyimdə qəriblik.
Güldürdülər, üzdən azca qımışdım,
Hər arzumda, diləyimdə-qəriblik.

Bir gözəl qız bizə yemək gətirdi,
Xörəyində, çörəyində-qəriblik.
Qoca qadın dedi, oğul darıxma,
Mənə oğul deməyində-qəriblik.

Uşaq gördüm Müşfiqimə oxşadı,
Fəqət, baxıb gülməyində-qəriblik…
Demə adi bir daş belə vətənmiş,
Bu yerin daş-kəsəyində-qəriblik…
Qəribliyin yuxusunda vətən var,
Yoxsa qalan hər şeyində-qəriblik…

1967.

Dünya bir nəğmə idi

Mus: Oqtay Kazımınındır.

Dünya bir nəğmə idi, dünya bir yuxu idi,
Elə bil yer üzündə bir tifildə yox idi.
Elə bil hər tərəfdən süd qoxusu gəlirdi,
Analar şərəfinə mahnılar yüksəlirdi,
Bütün aləm elə bil bu lövhəyə dalırdı,
Bir ana qucağında bir körpə aparırdı.

Küçələrdən keçənlər durub boylanırdılar,
Cavan qızlar sızlayıb, gizlincə yanırdılar,
Göz qoyurdu qarılar, köks ötürüb dərindən,

Seyr edirdi uşaqlar, seyr edirdi gəlinlər,
Bütün aləm elə bil bu lövhəyə dalırdı,
Bir ana qucağında bir körpə aparırdı.

Ona ad gəzirdilər, beşik axtarırdılar,
Başına dönürdülər, qadasın alırdılar,
Nənəsi asta-asta yeriyirdi dalınca,
Uşaq sakit, astaca baş qoymuşdu balınca,
Bütün aləm elə bil bu lövhəyə dalırdı,
Bir ana qucağında bir körpə aparırdı.

1974.

**Məhəbbət yaşa baxmır**

**Mus: Oqtay Kazımınındır**

Deyirsən ki, sevirəm,
Durmusan qarşımda sən.
Mən orta yaşındayam,
Sən cavan yaşındasan.

Nəqarət:

Məhəbbət yaşa baxmır
Müdriklər belə deyib.
Ah, bəlkə də belədir,
Bəlkə də belə deyil.

Kövrəlib dayanmışıq,
Bir körpə uşaq kimi,
Sən açan çiçək kimi,
Mən solan yarpaq kimi

Birgə addımlayırıq,
Əzablı yollar ilə.
Mən gedən payız ilə,
Sən gələn bahar ilə.

Nəqarət:

1985.

**Məni yad etməz**

**Mus:Oqtay Kazımınındır**

Neçin mənim qara giləm,
Məni yad etməz,yad etməz.
Bəlkə elə bilə-bilə,
Məni yad etməz, yad etməz.

Nəqarət:

İnanmıram ata məni,
Belə ucuz tuta məni,
Niyə salmaz yada məni,
Məni yad etməz, yad etməz.

Gül səsinə öyrənmişəm,
Nəfəsinə öyrənmişəm,
Uşaq kimi kövrəlmişəm,
Məni yad etməz, yad etməz.

Nəqarət:

1987.

Səni gördüm

Mus: Oqtay Kazımınındır

Yel toxundu yarpaqlara,
Nəğmə qondu dodaqlara,
Durub baxdım uzaqlara,
Səni gördüm, ay sevgilim.

Bir mehriban yz görəndə,
Bir cüt ağlar göz görəndə,
Qara gözlü qız görəndə,
Səni gördüm, ay sevgilim.

Tamarzılar görüşəndə,
Murazlılar görüşəndə,
Evimizə gün düşəndə
Səni gördüm, ay sevgilim.

Ya özümdən küsəndə mən,
Ya fikirli gəzəndə mən,
Gözəllərin gözündə mən,
Səni gördüm, ay sevgilim.

1957.

Qürbət bayatıları

Mus: Oqtay Kazımınındır

Qürbətdə ürəklər yarpaq kimidir,
Günəş bir balaca çıraq kimidir,
Dağlardan səbirli analar belə,
Qürbətdə anasız uşaq kimidir.

Nəqarət:

Qürbətdə yuxular köməyə gəlir,
Mahnılar, ağılar köməyə gəlir,
Səsi olanın da, olmayanın da,
Qürbətdə bayatı deməyi gəlir.

Qürbətin bir günü bir il görünür,
Qürbət göylərində nisgil görünür,
Dənizlər gözümgö Xəzərə dönür,
Göllərə baxırsan, Göy-göl görünür.

Nəqarət:

Qürbət hörmətləri sərin olurlar,
Qürbət dəryaları dərin olurlar,
Qürbət acıları, həyacanları,
Vətənə dönəndə şirin olurlar.

1974.

Ayrılıq olmayaydı

Mus: Oqtay Kazımınındır

Yavaş-yavaş gecə keçər,
Heç bilmirəm necə keçər,
Durub səni düşündükcə,
Qoşun çəkər xatirələr…

Nəqarət:

Şirin günlər, şirin aylar,
Bir gün gəlib düşər yada,
Ürək deyər ayrılığın,
Üzü dönsün bu dünyada.

Ay çəkilir yuxu kimi,
Bir ovçunun oxu kimi,
Hamı deyər, hamı gülər,
Mən gülmərəm çoxu kimi.

Nəqarət:

Çöldə tufan haray çəkər,
Salar fəğan, haray çəkər,
Yerdə durub mən susaram,
Göydə bulud alay çəkər…

Nəqarət:

1957.

**Məhəbbət**

**Mus: Oqtay Kazımınındır**

O bu boyda bir cahanı yaradıb,
Yeri, göyü, asimanı yaradıb,
İnsan onu, o insanı yaradıb,
Bu dünyanın əlifbası- məhəbbət,
Ən ilk nəğmə, ən ilk yazı-məhəbbət.

Hər ömürdə bir ulduza dönər-o,
Gah şimşək tək birdən çıxıb sönər – o,
Gizli gələr, fəqət aşkar dinər-o,
Canda nəfəs, damarda qan-məhəbbət,
Hər var olan, hər yox olan-məhəbbət.

O dəryadır kükləyəndə, daşanda,
O gövhərdir üzüklərin qaşında,
O sevdadır, hey dolanır başında,
Gah ağıllı, gah divanə-məhəbbət,
Həm həqiqət, həm əfsanə-məhəbbət.

1974.

**Cavanlığım**

**Mus: Oqtay Kazımınındır**

Həyatımın tacı idi,
Qara gözlü cavanlığım.
Eşq, məhəbbət acı idi,
Qara gözlü cavanlığım.

Ürək kimi döyünərdi,
Nə bir qəmi, nə bir dərdi,

Çox illərə sinə gərdi,
Durdu, dözdü cavanlığım.

Nəqarət:

Ömrü çiçək qədər oldu,
Sevinc oldu, kədər oldu,
Neyçün gəlib-gedər oldu,
Kimdən küsdü cavanlığım?

Arzulara adlayardıq,
Qönçə kimi çatlayardıq,
Gözəlləri odlayardıq,
Qaynar, isti cavanlığım.

Sevgilərin məbədiydi,
Təbiətin neymətiydi,
Sanardım ki, əbədiydi,
Tükənməzdi cavanlığım.

Nəqarət:

1975.

**Poemalar.**

**İttiham poeması…**

Sizdən soruşuram, sizdən,
Dərdi mənə yaxın olan.
Belə ağır günümüzdə,
Bu qədər çal-çağır olar?..
Torpaqlar al-qan içində,
Ekran toy-bayram içində,
Bu həqiqətmi, yuxumu,
Biz yoxuq var olan yerdə.
Oxuyan necə oxuyur,
Yurd tar-mar olan yerdə…
Şuşası əsir olanlar,
Necə sevinir, görəsən?..
Suçlu, müqəssir olanlar
Necə sevinir, görəsən?.
Çadırlar naləli, neyli,
Qaçqınlar  fəraq içində,
Bizsə zurna piləyirik,
Hər gün kef-damaq içində…
Donuz çıxıb təpəmizə,

Biz hələ cəng öyrənirik,
Güllə atmaq əvəzinə,
Rəqs etmək öyrənirik…

II

Balaca xalqın nə qədər,
Vəkili, ağası olar?..
Nə qədər maldar, dükandar,
Nə qədər mağaza olar?..
Soyğunçular həddin aşıb,
Hərə bir yana çəkir…
Hamı millətə daraşıb,
Millət də zəbanə çəkir…
Gündə yüz butka qururlar,
Düz şəhərin beşiyində.
Vətəndən sayıq dururlar,
Saqqızların keşiyində…
Gamaat axır bazara,
Alver dönüb kələliyə…
Kimdə vətən qeyrəti var,
Çıxsın gərək irəliyə…
Görək nəyə yarayırlar,
Dükanını qoruyanlar.
Vətən oğul harayında,
Oğul dhllar harayında…
Namus ayağa düşəli,
Satılır hətta pərilər,
Dəbə düşüb fahişəlik,
Gəlmələrdir müştərilər…
Kifirlər gözündə batıb,
Pozulub-mizan tərəzi…
Sürət ilə qalxır,artır
Gözəllərin məzənnəsi.
Bilinməyir halal, haram,
Çoxu bu işə aludə…
Əllərində təzə xına,
Gəlin satqın Xocalıda…
Gör ki, nə gündəyik, Xuda,
Övlad satır bədbəxt ana…
Budur ən böyük faciə,
Görməmişdik beləsini…
Ehtiyac ayırır necə,
Balasından anasını,
Anasından balasını…

III

Satqınlıqdır ən baha mal,

Satqınlar kefdədir indi…
Onlara çox tələbat var,
Onlar bərk dəbdədir indi…
Pulla alınır vəzifə,
Torpaqlpr verilib pulla…
Başçı elədilər bizə
Birovuc dəlini pulla…
Alveçi nəyimə gərək,
Yurdun silaha, əsgərə,
Ehtiyacı olan yerdə…
Heç olarmı qalib gəlmək,
Hamı tacir olan yerdə…
Bu qədər fırıldaq, kələk,
Yad mühacir olan yerdə…
Bu qədər molla, hacı, bəy
Dindar, kafir olan yerdə…

IV

Sərvətimiz ola-ola,
Yoxsulluq çatıb son həddə…
Nə qədər dilənçi olar,
Bu dilənçi məmləkətdə?
Körpələr dilənir, aman,
Gəlinlər dilənir, allah…
Min yol həsəd aparırsan,
Vaxtında ölənə, allah…
Ümidsiz, inamsız, qorxaq
Üzlərə baxmaq olmayır.
Nə evdə sakit yaşamaq,
Nə çölə çıxmaq olmayır…
Gücsüz, nazik, zəif, soyuq,
Əllər irəli uzanır…
Kasıbların imkanı yox,
Varlıların din-imanı…
Nə qədər bəy, ağa, qoçu,
Talayır kəndi, şəhəri…
Böyüklərə hey əl açır,
Vəzifə dilənçiləri…
Toyuqlar dilənir hində,
Qaq-qaq ilə dən istəyir…
Qaçqınlar da gündə-gündə
Əl açıb vətən istəyir…
Görəndə gözüm qaralır,
Bu sayaq dilənçiləri…
Vətəndə vətənsiz qalıb
Yurd-ocaq dilənçiləri…
Ac qonşular əsr-əsr
Boğazımıza dirəniblər.

Zaman-zaman, əsr-əsr
Bizdən torpaq diləniblər.
Görünməyib bu dünyada,
Belə yolçu dilənçilər…
Satqın, vəhşi, haramzadə,
Namərd, qonşu dilənçilər…
İnsanlıqda payları yox,
Bu yırtıcı dəllalların…
Dilənməkdə tayları yox,
Sülənməkdə oxşarları…
Onlar buqələmunlar tək
Min kərə cildin dəyişib…
İşləri düşəndə mələk,
Dişləri qızanda vəhşi…
Onlar bizə bəla gəlib,
Dalayırlar bizi çoxdan…
Yox onların bərabəri,
Xainlikdə, alçaqlıqda…

V

Sizədir xitabım, sözüm,
Bu günə qalardı vətən.
Çox qorxağın, təpərsizin,
Azca arı olsa idi…
Bac alardım gülənlərdən,
İxtiyarım olsa idi?...
Nə var ki, deyib-gülməli,
Ortada ölüm, qan-durur?
Nakam şəhid qəbirləri,
Yadı da yaxır,yandırır…
Şəhidlərin dərdi, ahı,
Dünyanı alıb başına.
Dözmək olmur ya rəbb daha,
Anaların göz yaşına…
Təsəlli tapıram hərdən,
Böyük təsəllidir,bəli…
Nə zamandır cəbhələrdən
Ki tabut, ölü gəlməyir…
Hərçənd ki, çoxdan ölmüşük,
Amma dəfn eləyən yoxdur…
İçimizə gömülmüşük,
Bir fatihə deyən yoxdur…
Gecə-gündüz qanlar axır,
Yaramızdan su yerinə…
Biz düşməni çağırırıq,
Sülh hərbinə, duelinə…
Deyirik ki, quldur, yağı
Bəlkə də yatdı haqq sözə…

Rəhmə gəlib Qarabağı,
Bəlkə qaytardılar bizə?..
Bəlkə nağıl görəcəyik?
Gözümüzü göyə dikib
Birdə baxıb görəcəyik,
Bizim yerlər bizimkidir.
Dəyişibdir qarı düşmən,
Qusur yaladıqlarını…
Geriyə qaytarır düşmən,
Çapıb taladıqlarını…
Güya canavar yağılar,
Mürvətə,insafa gəlib…
İnanmaram bu nağıla
Lap haqdan cavabı gələ…

VI

Düzü düzə qoşmaq olar,
Belə yalan olan yerdə?..
İnsafdan danışmaq olar,
Bu qədər qan olan yerdə?..
Yetər dözdüyümüz, yetər,
Ya ölüb, ya qalmalıyıq…
Farşistlərin mərhəməti,
Bizə daha gərək deyil…
Qarabatı, o cənnəti,
Biz can verib almalıyıq…
Yoxsa bizə yolçu payı,
Məzlum payı gərək deyil…
Atalarım, babalarım,
Torpağı da pay alarlar?
Şəhidlər qınayar bizi,
Dayanarlar üzümüzə…
Bir yandan da özümüzü
Qırdırarıq özümüzə…
Talan salırıq üstəlik,
Hər şey talan olan yerdə?
Başçı olmaq istəyirik,
Başsızlıq baş alan yerdə…

VII

Xəstələr tavansız, tabsız,
Əlillər saysız-hesabsız…
Dərmanlar qan qiymətinə,
İnsansa hər şeydən ucuz,
Arpa-saman qiymətinə…
Ölüb dotulmaq olmayır,
Neçə milyon qiymətinə…

Heç yaxın durmaq olmayır,
Bir adi don qiymətinə.
Uzunqulağın dəyəri,
Çatıb ceyran qiymətinə…
Dolların qalxıb dəyəri,
Keçib Quran qiymətini…
Ciblər bom-boş, ruhlar ölü,
Əsəblər tarım çəkilib,
Hay deyirsən, hay verən yox,
Huy verirsən, huy verən yox,
Heç bir dəstə göy verən yox,
Bir vicdanın qiymətinə…
Şər olub xeyr, xeyr olub şər,
Qoyun, keçi qiymətinə,
Keəi qoyun qiymətinə…
Bir kilo ət verməyirlər,
Nizaminin qiymətinə…
Füzulinin qiymətinə
Can satırlar, baş satıblar,
Yurd-yuva, dağ-daş satıblar,
Mənsəb, rütbə qiymətinə…
Yoxmu xəbəri millətin,
Düşüb kütlə qiymətinə…

VIII

Hardasan qeyrətim, harda?
Bu qaragünlü diyarda,
Arsızlıq ənənə olur…
Mədələr yanır acından,
Bu qədər dərd-qəm içində,
Bu qədər təntənə olar?..
Kül üfürüm gözlərinə,
Tacirimiz, nazirimiz,
Neçə yerdə özlərinə,
Bank, bağ-bahat, ev düzəldir…
Dağılıb cah-cəlalımız,
Amma çox-çox ziyalımız
Özünə yubiley düzəldir,
Abidə, muzey düzəldir.
Eyş-işrət, kef düzəldir…
Bəzisi əlvan geyimdə,
Süzür şanlı yubileyində…
Nə qədər baxar, eşidən,
Yeməklər neçə çeşiddə,
Sağlıqlar neçə mərtəbə,
Nitq eyləyən neçə həpənd,
Yarınmalar, alçalmalar,
Haray, küylə, alçalmalar…
Qarışıb xanımlar, bəylər

Oyun çıxarır təlxəklər…
O qədər böyükdür şadlıq,
Möminlər içirlər hətta…
Qədəhlər musiqi çalır,
Hətta lal dillər açılır,
Ac baxır, canı üzülür,
Ağzının suy u süzülür…
Düşünür, bu nədir, allah,
Bu bizim ölkədir, allah?
Ac-yalavaclar ölkəsi,
Bu qaçaqaçlar ölkəsi…
Alovlar, odlar ölkəsi,
Saysız şəhidlər ölkəsi…
Millət naçar, fağır, yazıq,
Biri varlı, mini kasıb,
Biri razı, yüzü küskün ,
Pisi kefdə,düzü miskin…
Solum evsiz, sağım evsiz,
Milyondan artığım evsiz…
Bəs bu bayram nədir, allah,
Bəlkə yad ölkədir, allah?..
Gəlmələr düşünər baxsa,
Qələbə günüdür yoxsa,
Qarabağ alınıb bəlkə,
Şadlanır qəhrəman ölkə.
Bəlkə xəbərsizdi cahan,
Süqut eləyib Yerevan?..
Yox, yox, belə şənliklərə,
Əsla hüququmuz yoxdur…
Əzməyincə düşmənləri,
Sevinmək duyğumuz yoxdur…
Nə ölməyə, yaşamağa,
Hələ hüququmuz yoxdur…
Hətta papaq daşımağa,
Belə hüququmuz yoxdur…
Çoxu hazırın naziri,
Öz xalqının əzazili,
Rüşvətxoru, müftəxoru,
Qeyrəti boş, cibi dolu…
İqtidarım olsa idi,
İxtiyarım olsa idi,
Neçə-neçə nazirliyi,
Bağlayardım, dondurardım.
İşığını söndürərdim,
Yüzlərlə ölü canları,
Haram yeyib qusanları,
Döyüşlərə göndərərdim.
Saray-saray otaqları,
O daçaları, bağları,

Didərginlərə verərdim…
İxtiyar olsaydı məndə,
Ləğv edərdim bircə gündə
Çox-çox çürük nazirliyi…
Yaradardım bu ölkədə,
Ər, kişilik nazirliyi…

IX

İqtidarım olsa idi,
İxtiyarım olsa idi,
Mən o taya ötürərdim
Bu taydakı ağrıları.
Mən bu taya gətirərdim
O taydakı oğulları.
Deyərdim ki, belə olmaz
Hardasız, qan qardaşlarım?!
Geyərdilər hərbi libas,
Girərdilər savaşlara…
Bu qədər qardaşı olan,
Söylə, meydanda tək qalar?
Qardaş qardaşına görə
Hansı gündə gərək olar?!
Çox qırıb kəsdilər bizi,
Biclər, biəsillər, qardaş,
Təkləyib əzdilər bizi,
Hələ də əzirlər, qardaş!
Babamız Xətai hanı,
Bu tay od, alov içində.
O tayın üzülüb canı,
O tayda girov içində.
O birləşdirdi xalqını,
Ad qoydu adlar içində…
Heyif, tez getdi, xalqını
Yedilər qurdlar içindən.
Axır bizi ayırdılar,
O bölgüdən, aman qardaş.
Hicran ilə doyurdular
Yadlaşdıq, o vaxtdan, qardaş…
Parça-parça oldu ölkə,
Səsimiz Allaha çatdı,
Nə günə qalmışıq gör ki,
Guya gələcəklər yadlar
Uzaq, yaxın ölkələrdən:
Kömək duracaqlar bizə?!
Nə torpaq vermişik əldən,
Geri alacaqlar bizə?!
Yadlar gərəkdir nəyimə,
Sən mənə gərəksən, qardaş?!..

Bəs sən mənim köməyimə,
Haçan gələcəksən, qardaş?!

X

Baltaların sapı bizdən,
Sapların baltası bizdən…
Soruşuram yaxşımızdan,
Soruşuram pisimizdən,
Çox qədim Dərbəndimizdən,
Çox ulu Təbrizimizdən,
Kim ayırdı bizi bizdən?
Həm balta, həm də sap hazır,
O da bizdən, bu da bizdən…
Bizə cəllad nəyə lazım,
Cəlladımız özümüzdən…

XI

Qaçqındır çöl, bayır, küçə,
Qaçqındır şəhərim, kəndim…
Üstəlik iki ildəcə
Qaçdı iki prezidentim.
Qaçqın doğulmuşuq, nədi,
O daim bizə yoldaşdı…
Biri cumdu Kələkiyə,
Biri Moskvaya qaçdı.
Özün hifz et, bizi tanrı,
Başçı qorxaq olan yerdə?!
Xalqın can qoruyanları,
Can qeydinə qalan yerdə?

XII

Saysızdır  nanəcib müzür?
Haradan törəyir, onlar?..
İnanmıram, vallah, bizim,
Qandan törəyiblər onlar?..
Bu yad qandır bizə hopub,
Qan mərəzi yaman işdi…
Neçin xainlər, xoflular,
Daim payımıza düşdü?
Bir vətən böyüdüb bizi,
Bu eşq hər eşqdən uludur…
Satqının vətən sevgisi,
Yalançıdır, qorxuludur…
Üzdər sevirlər vətəni,
İçdən yeyirlər vətəni…

Başına oyun açırlar,
Dar günündə qoyub qaçırlar…
Qaçırlar oğrular təki,
Qaçan yad oğludu daha…
Bu qaçqınlıq olmadı ki,
Bu satqınlıq oldu daha…
O, dünən hökmran idi,
Bir sahibi fərman idi,
Deyirdi mənəm ixtiyar,
Mənəm bu millətin şefi…
Əlində idi ordular,
Birdə ki, xalqın taleyi…
Göz görə açıq-açığa,
Satdı Şuşanı, Laçını…
Qanını sordu xalqının,
Yenə də xalqdan dəm vurur…
İçdən çox vurdu xalqını,
İndi yad ölkədən vurur…
O da baş oldu ötəri,
Güya bizi şad elədi…
Soydu, çapdı səni, məni,
Aləmi bərbad elədi…
Dağıtdı doğma vətəni,
Özgəni imdad elədi…
Qaçqı milyon dollar ilə,
Haram-haram pullar ilə.
Özünə evlər tikdirdi,
Özünə yollar çəkdirdi,
Yad yeri abad elədi…

XIII

Boş-boş namus, qeyrət deyən,
Qeyrətsiz qaçqınlarımız…
Milləti qaçqın eyləyən,
Millətsiz qaçqınlarımız…
Əsl övlad dar məqamda,
Durar xalqın qabağında…
Lap öz güllə payını da
Alar xalqın qabağında…
Soyulsa da diri-diri,
Suçu, gunahı çox isə,
Boynuna ölüm kəndirin
Salar xalqın qabağında…
Qəlbində qara yox isə,
Qəlbini ikiyə bölüb,
Yarar xalqın qabağında…
Özünə kişi deyən kəs,
Gedib yalvarmaz, əyilməz,

Özgə xalqın hüzurunda,
Kənar xalqın qabağında…

XIV

Şair, bir az dərin düşün,
Sarsılmasın eşqin, gücün,
Gör ki, kim sərdardı, şair…
Olmasaydı büstbütün,
Ölkə dağılardı şair…
Xalqımız qalmışdı darda,
O gəldi çox bəlalardan.
Bu eli qurtardı şair…
Şair, bu nə qəmli haldır,
Başını yuxarı qaldır.
El bəlaları düşəndə,
Həm nalə çəkəndi şair.
Həm də çətin, ağır gündə,
Bağbantək millət içində.
Ümidlər əkəndi şair…
Sən ümidə sığın ancaq,
Ümiddir var-yoxun ancaq.
Sən bədbin, naçar yaşasan,
Qeyrət, namus ölə bilər…
Mərdliyin nəhəng daşsan,
Bu el, ulus ölə bilər.
Şair bimar olan yerdə…
Əssə də min tufan, külək,
Ümidlərim sönə bilməz…
Lap dünya üstümə gələ,
Millət ölər, sına bilməz.
Basılmaz igidlik, ərlik,
Hamımız var olan yerdə…
Heç vaxt ayağa düşmərik,
Şan-şərəf, ar olan yerdə…
Vahid, bütöv bir xalq kimi,
Yada hasar olan yerdə…
Hamımız var olan yerdə…
Şimal cənub olan yerdə.
Cənub şimal olan yerdə.
Ümidimiz, inamımız,
Güvəncimiz, gümanımız,
Heydər öndər olan yerdə,
Heydər rəhbər olan yerdə!

1990-1995

Anamızın matəminə buraxmadılar,
Bacımızın toyu oldu- gedə bilmədik.
Yüz yol şəxsi işimizi varaqladılar,
Təqsirimiz, günahımız nədi-bilmədik.

Burda ata gözlərini yumdu əbədi,
Orda oğul gedib görə bilmədi yası…
Oğul nədir, quş bu yana səkə bilmədi,
Ordan bu nə yoldu ki-qaş-göz arası.

Fədailər güllələndi, şəhidlər öldü,
Cənub yandı, şimal yandı-nəşələndilər.
Bir millətin məni öldü, mənliyi öldü,
İki yerə parçalandı-nəşələndilər…

Ruhlar getdi, eşqlər getdi, mənalar getdi,
İllər keçdi ömrümüzə qəm səpə-səpə…
O tərəfdən bölük-bölük sonalar getdi,
Bu tərəfdə göllərimiz tutmadı xəbər…

Yad çəkmələr tapdaladı ana torpağı,
Çəpər-çəpər, ağac-ağac bölüşdürdülər.
O tərəfi bu tərəflə etdilər yağı,
Bu qardaşı o qardaşla vuruşdurdular.

Nə gördülər-ilan kimi çəkdilər dəmə,
Çox yerlərdən qaralayıb sildilər bizi.
Bu qanunlar, qadağalar imiş demə,
Sonra qanlı məftillərə böldülər bizi.

Yüz cür bəzək düzəltdilər zahirdən, üzdən,
İçəridən qarət edib soydular bizi…
Bir də gördük ayrılmışıq öz kökümüzdən,
Bir də gördük itirmişik kimliyimizi…

Bir də gördük, yalan dönüb həqiqət olub,
Bir də gördük, yadlar kimi söhbət edirik…
Bir də gördük, millət ayrı bir millət olub,
Bir də gördük, yavaş-yavaş məhvə gedirik…

Bir də gördük,qızlarımız miskinləşiblər,
Bir də gördük,bizdən deyil gəlinlərimiz…
Bir də gördük, yollarımız özgələşiblər,
Yad ciblərə axıb gedir gəlinlərimiz…

Bir də gördük, öz adını dəyişir çoxu,

Təbliğ edir yad yuxunu, yad ədasını…
Bir də gördük analar yad balalar doğur,
Bir də gördük, oğul danır öz atasını…

Burda çara baş əyirlər, şaha o yanda,
Bəzisi də nə ondandır, nə bundandılar.
Bir də gördük bu sathasat yarışlarında,
Bizimkilər öncüldülər, çempiondular…

Bağlayıblar xalq qəlbinə gedən yolları,
Görə-görə ağ üstündən qara çəkirlər.
Haqq danışan, birlik deyən ər oğulları,
Burda tutub, orda isə dara çəkirlər.

Bir də gördük, adi quru söz olub vətən,
Başımızda təkcə onun sevdası qalıb…
Sarı payız ağacı tək sozalıb vətən,
Budaqları sınıb düşüb, gövdəsi qalıb.

Gördük çoxu öz-özünü düşünür ancaq,
Məslək pula, vəzifəyə qurban verilir.
Bir də gördük xalq olubdu əldə oyuncaq,
Onu tarac edənlərə ənam verilir.

Gecə-gündüz qardaş-bacı haraylı olduq,
Nə ağrılar, nə acılar gördü bu torpaq…
Röyalarda ta o taylı, bu taylı olduq,
Röyalarda gördük daha birdi bu torpaq…

Bu ikili tale ilə barışdıq daha,
Bu millətin hər bir şeyi oldu yarımçıq.
Parçalandı yeri, göyü, adı, allahı,
Dirisi heç, ölüsü də öldü yarımçıq…

Yarı əsdi şimal-cənub küləyimiz də,
Toy elədik, yas saxladıq –yarımçıq oldu…
Düz ikiyə ayırdılar ürəyimizi ,
Bölündükcə, üzüldükcə yarımcan olduq…

Daha olduq yarı mərhum, yarı da azad,
Bir vətəndə iki vətən qürbət olarmı?
Düz deyiblər, dad yarımçıq əlindən, min dad,
Heç yarımçıq millətdən də millət olarmı?

Açıldılar ərzin zülmət yolları belə,
Bəşər oğlu düz allahın evinə uçdu,
Hətta qarı düşmənlər də verdi əl-ələ,
Təkcə bizim taleyimiz düyünə düşdü…

O qitədən bu qitəyə gəlib getdilər,
Bütün uzaq məsafələr yaxınlaşdılar…
Hətta ağlar qaralarla dostluq etdilər,
Çox tayfalar, əsabələr yaxınlaşdılar…

Hətta vəhşi heyvanlar dha insafa gəldi,
İsnişdilər azimanlar, qurdlar, tülkülər.
Hətta təzə dostlar kimi əl-ələ verdi,
Bir-birini qılınclayan ellər, ölkələr…

Cənub çıxdı yerin-göyün cazibəsindən,
Günahımız, qüsurumuz nədi-bilmədik.
Sən buna bax, lap az qala iki əsrdə,
Bir qarışqa gedən yolu gedə bilmədik…

Gedəmmədik qatar oldu, təyyarə oldu,
Beş qarış yol tilsimlərə düşdü elə bil.
Təbriz ərzin ən əlçatmaz şəhəri oldu,
Təbriz ayrı planetə köçdü elə bil…

2

Təbriz nədir, Naxçıvana sərhəd qoydular,
Mərənd nədir, Bilasuvara gedə bilmədik.
Aramıza yüz qadağa, yüz sgd qoydular,
Günahımız, təqsirrimiz nədi-bilmədik…

Xiyabani o tərəfdə silah götürdü,
Onu ölüm yatağında dağ elədilər.
Pişəvari bu tərəfə pənah gətirdi,
Burda onu hiylə ilə yox elədilər.

O tərəfdə Füruddini tutub asdılar,
Bu tərəfdə Biriyanı məhkum etdilər.
Sərhədlərə say-hesabsız qoşun basdılar,
Gündən-günə məftilləri möhkəm etdilər…

Hətta suya, hətta göyə sərhəd çəkdilər,
Ayırdılar dil-ağızsız dərəni, dağı.
Ağacları qopararaq tirlər əkdilər,
Yer altına, yer üstünə atdılar lağım…

Qoymadılar bu tərəfə bir arı qona,
Xətkeş kimi düzəltdilər əyri xətləri.
Adicə bir yarpağın da xışıltısına
Saatlarla durub hürdü sərhəd itləri…

O tərəfdən bir durbinlə bizə baxdılar,
Bu tərəfin durbinləri yüz adda oldu.

O tərəfin çəpərləri köhnə taxtadan,
Bu tərəfin çəpərləri poladdan oldu…

Bir keçilməz sıldırıma, qayaya döndü,
Bu torpağın baş yolları, ulu yolları.
Düz ortadan haçalandı, iki bölündü,
At yolları, qurd yolları, quru yolları.

Siçovullar donub qaldı zülmət dehikdə,
Qartallara göy olmazdı süzə ilahi.
İllər boyu ayıq-sayıq durub keşikdə,
Bizi durub qorudular bizdən, ilahi…

O taydakı qardaşına məktub yazanın,
Kağızına, markasına əmma qoydular.
Bir yol Təbriz radiosuna qulaq asanın
Tamam yeddi arxasına əmma qoydular.

-Sən iclasda pis apardın o günü özünü,
mərənd, Şahbuz sözlərini yrəkdən dedin.
Nəyə isə eyham vurdun Cənub sözüylə,
Həm də qardaş kəlməsini çox bərkdən dedin.

-Olmaya sən itirmisən tamam ağını,
Sən ünsürsən, sən düşmənsən, milli qalıqsan.
Öz dilində özün açdın paxırını,
Bundan belə Sibirliksən, Kalımalıqsan…

Gündə dartıb apardılar sorğu-sualla,
Döyüb- söyüb, əzab verib saldılar əldən
Göndərdilər sürü-sürü soyuq şimala,
Guya xalqı qurtardılar millətçiliklərdən.

Azərbaycan bir açıqca zindana döndü,
Millətçilər kim idi ki, Cavid əfəndi.
Namərdləri sağ qaldılar, mərdləri .ldü,
Müşfiq, Cavad, Abbas Mirzə, Ruhulla Ülvi…

Hətta böyük Nərimana qulp qoydular,
Kim azacıq boy göstərdi, boyu vuruldu.
Bizim vətən sevgimizə qoruq qoydular,
Bizim vətən mərarımız qorxulu oldu…

**3.**

Qırx altında ümidlərin çırağı yandı,
Xəzəl olmuş bağımızda güllər açdı.
Birləşməyə iynə boyda güman yarandı,
Bir-birinə həsrət qalan qollar açıldı.

Bir balaca gözümüzün yaşını sildik,
Elə sandıq biz istəyən zamana gəldi…
Heç olmasa azda olsa Təbrizi gördük,
Elə bil ki, dinə gəldik, imana gəldik…

Heç olmasa bir azacıqMərəndə baxdıq,
Ərdəbilə ayağımız dəydi balaca…
Savalana zirvələrə girəndə baxdıq,
Dumanına papağımız dəydi balaca…

Bir azacıq ruhumuzda tərpəniş oldu,
Bir az qəflət yuxusundan oyandı xalqım…
Heç olmasa beş günlüyə azad quş oldu,
Odlar görmüş həm o yanlı, bu yanlı xalqım…

Heç olmasa əhval tutub danışa bildik,
Öz doğmaca qardahımla bir lisanda biz.
Heç olmasa gəzə bildik, dolaşa bildik,
Bu dünyanın cənnət bağı Gülüstanda biz…

Bütün aləm xəbərdardı fərağımızdan,
Beş günlüyə bu fəraqın çıxdıq yasından.
Heç olmasa çat-çat olmuş dodağımızla,
Axır gedib ğpə bildik Ərk qalasından.

Xətainin ruhu coşdu, Qurbani güldü,
Dirilər də, ölülər də cana gəldilər.
Heç olmasa axır Culfa Culfanı gördü,
Astaradan Astaraya salam verdilər.

Allahsız da əllərini qaldırdı göyə,
Dedi:-bunu gəl, çox görmə sən bizə, Allah…
Heç olmasa, heç olmasa beşcə günlüyə,
Böyük bülbül cəh-cəh vurdu Təbrizdə, Allah…

Heç olmasa, heç olmasa, ah, heç olmasa…
-Dedilər yox, sizlər hara, birləşmək hara?...
Yenə körpə ümidlərə çəkildi hasar,
Bu sonuncu cəhdimiz də dəydi daşlara…

Yenə girdi ortalığa fəsad, şər, hiylə,
Yenə düşdü aramıza hicran, qəm, küsü,
Stalinin, Mikoyanın fitnəsi ilə
Qovladılar, çıxartdılar o taydan bizi.

Çıxartdılar, qovladılar özgələr təki,
Yuxarıdan hökm gəldi, sən hökmə bir bax…
Bilə-bilə qoymadılar, qoymadılar ki,

Bütbv vahid millət olaq, bir yerdə olaq…

Qorxuludur hər millətin bütövü, tamı,
Millət batır, millət itir parçalananda…
Bilə-bilə qoymadılar, qoyardılarmı
Möhtəşəm bir dövlət olsun Azərbaycanda?

Onda, axı, özgələri cılız görünər,
Niyə, axı, Azərbaycan olsun o boyda?..
Qoca Şərqin qapısında nəhəngə dönə,
Bir ucu Dərbənddə dursun, Bir ucu Xoyda…

Qoymaq olmaz pərvazlansın bir ölkə kimi,
Başqaları unudulsun kölgədə qalsın.
Qoy ikiyə parçalansın əvvəlki kimi,
Hər parçası bir dövlətdə, ölkədə qalsın…

Niyə, niyə Azərbaycan bir olsun, axı,
O birləşsə güclü olar, xətalı olar…
O Qafqazda ələ alar hegemonluğu,
Hətta onun BMT-də adamı olar…

O birləşsə qalxar, axı, dirilər, axı,
Qoy yenə də əvvəlki tək getsin yuxuya…
O birləşsə çoxlarına olar göz dağı,
O birləşsə çoxlarına meydan oxuyar…

Birləşməyə qoymaq olmaz Azərbaycanı,
Nahaq yerə bölməyiblər onu qədimlər.
Şah ilə çar, çar ilə şah o zaman, canım,
Nə ediblər düz ediblər, doğru ediblər…

…Böyük rəhbər əl gəzdirdi bığına bu dəm,
Haramzada cəsusları düşdülər işə…
Cənub- şimalçalxalandı, dəyişdi aləm,
Yenə hicran vüsal ilə gəldi döş-döşə…

Bığlarına əl gəzdirdi «sevimli» rəhbər,
Azərbaycan viran oldu yenə təzədən…
Beriyanın cəsusları yelə döndülər,
Yüyürdülər Moskvadan ta Təbrizəcən…

O yanda şah qırıb tökdü, bu yanda rəhbər,
O yanda göz görə-görə, bu yanda pünhan…
Bəlkə də mən yanılıram, bəlkə də səhvəm,
Mən ki, azca ayırmıram rəhbəri şahdan…

İkisi də cəllad olub, qantökən olub,
Formaları ayrı olub, məzmunu eyni.

Bu dünyada say-hesabsız hökmran olub,
Hamısıda bir-birinin davamı, eyni…

Bir-birinin əllərinə su töküb onlar,
Bir-birinə oxşayıblar əkizlər kimi…
İndi odlu cəhənnəmdə kül olub onlar,
Evlər yıxan, qanlar tökən iblislər kimi…

Bığlarına əl gəzdirdi sevimli rəhbər,
Keçirtdilər hamımızı qıl körpüsündən…
Böyüyə də kiçiyə də əl gəzdirdilər,
Çoxu hətta şübhələndi öz kölgəsindən…

Markaryanla,topuridzelər meydan suladı,
Yenə xalqı xəlbirləyib ələklədilər.
Kimlərə ki, dördgöz azca barmaq buladı,
Birbaş dəniz qırağına sürüklədilər…

Əllərinə imkan keçdi yenə «yanların»,
Yenə onlar «hifz elədi» millətimizi…
Baltanın da sapı bizim, özü onların,
Bax, beləcə ləkələdik millətimizi…

Bax, beləcə özümüzə kəsildik qənim,
Olduq misgin, fağır, yazıq, qorxaq, təpərsiz…
Biz ta kənar düşmənləri neynirik, canım,
Öz «doğmaca» düşmənimiz saysız, qədərsiz…

Bəs eyləyər hələ ayrı millətlərə də,
Biz özümüz həm ov olduq, həm silah olduq.
Özümüz həm qoruq olduq, həm də ki, bərə,
Özümüz həm nişan, həm də nişangah olduq…

Azərbaycan tirac oldu, öldü, dirildi,
Lap az qala öz adı da çıxdı yadından…
Ən mötəbər satqınlara ənam verildi,
Onlar hər gün nitq elədi millət adından…

Yadlar yenə bu ölkəyə durdular yiyə,
Gecə-gündüz malım, mülküm, varım daşındı.
Öz dilində xalq sözünü deyə bilməyən,
Od yağdırdı, at oynatdı xalqın başında…

Bircə kərə bu torpaqda hava udmayan
Kəslər gəlib bu torpağın darğası oldu.
Azərbaycan kəlməsini dili tutmayan
Azərbaycan millətinin ağası oldu.

Gəncə adı dəyişildi, ar oldu bizə,

Nizamilər, məhsətilər qəşş elədilər.
Beyləqanda bircə tikan əkməyən kəsə,
Beyləqanı başdan-başa bəxş elədilər…

Məscidləri dağıtdılar traktor ilə,
Qədim, ulu abidələr viranə oldu.
Stalinin kitabları ta bundan belə
Bizim xalqın dini oldu, quranı oldu.

Dəyişdilər dəfni, yası, adəti, toyu,
Səsim, ynym, hay-harayım qaldı içimdə.
Qədim Novruz bayramımız-familim, soyum,
İllər ilə həbs edildi xalqın içində.

Familimdən diksimdim də hərdən elə bil,
Amma qəlbə qürurlandım Novruz gələndə.
Hamı gizli bayram etdi Novruzu hər il,
Plov asdı, xonça tutdu bu əziz gündə…

Bir yandan da dağıtdılar tariximizi,
Əsər yazıb nəşr etdilər hey qalaq-qalaq.
Neçə-neçə kitablardan sildilər bizi,
Neçə-neçə millətə etdilər yamaq…

Yazdılar ki, kor olmuşuq inqilabacan,
Quru yurdda böyümüşük buraya qədər.
Bundan belə bağımızda çiçəklər açar,
Bundan belə bizimkidir gələcək zəfər…

Bir rəhbərə sağ ol deyək günəş çıxanda,
Gərək ona yaşa deyək səhər gələndə.
Ona, ona minnətdarıq pambıq yığanda,
Ona, ona minnətdarıq güllələnəndə.

O günəşdir, o səhərdir, ulduzdur, aydır,
Odur əsl xilaskarı bu elin, yurdun,
Guya bizim rəhbərimiz o olmasaydı,
Nə Nizami doğulardı, nə Dədə Qorqud.

Nə çayımız su verərdi, nə də arxımız,
Nə ətimiz dad verərdi, nə də yağımız.
Nə önümüz görünərdi, nə də arxamız,
Nə solumuz bilinərdi, nə də sağımız.

Ona dua etməliyik hər saat, hər gün,
Cəh-cəh vuran bülbül üçün, açan gül üçün.
Ona, ona minnətdarıq Koroğlu üçün,
Kəpəz üçün, Göyçay üçün, Maral göl üçün.

Bəli, ona minnətdarıq, biz ona təkcə
Bir gecədə minlər ilə qeybə çıxançün.
Bəli, ona minnətdarıq, biz ona təkcə
Bu «şən», «azad», bu yarımcan Azərbaycançün.

**4.**

Şəhriyarın yubileyinə buraxmadılar,
Səhənd öldü hüzuruna gedə bilmədik.
Yüz yol şəxsi işimizi varaqladılar,
Günahımız, təqsirimiz nədi,-bilmədik…

Yzeyir bəy gözlərini yumdu əbədi,
Uzaq-uzaq ellər gəlib gördü bu yası.
O tərəfdən bir quş belə səkə bilmədi,
Biz də kimi qanlı tutduq-yazıq Arazı.

Biz də əsl günahları unudub elə,
Durub düşdük gecə-gündüz bir çayın üstə.
Göz yumarıq bu taydakı vətənsizlərə,
Yıxdıq bütün günahları o tayın üstə…

Guya tamam ac-yalavac İrandır ora,
Burdakılar qəndə, bala batıb az qala.
Guya tamam xarabadır, virandır ora,
Burdakılar kommunizmə çatıb az qala…

Çox qalmayıb, lap az qalıb, neçə gyn qalıb,
Üzəcəyik başdan-başa süd gölündə biz.
Yatırdılar tərəf dolu laylalar çalıb,
Şüar ilə yuxuladıq, qalxdıq gündə biz.

Şüar, şüar tin başında, addım başında
Şüar ilə çay içdilər, qazan asdılar.
Meşələrdən, səhralardan, dağlar başından
Xərabələr üzərində şüar asdılar.

Ulu rəhbər şüarın kökü, zəngini,
Ulu rəhbər şerlərdə, tərcümələrdə.
Şüarların ən şənini, ən qəşəngini
Zindanların üzərinə pərçimlədilər.

«ta çatıbdır ömrümüzün ən xoş çağları,
Lap az qalıb, kommunizmin kəndarındayıq»…
Dustaqlarsa şüarlara baxdı, ağladı,
Düşündülər, bəs biz kimin qandalındayıq?..

İnandı da bu hay-küyə hələ çox adam,
Bu boyda da yalan olmaz dedik hər halda.

Ha gözlədik- o böyük gün gəlib çıxmadı,
Gözləməkdən gözümüzün kökü saraldı.

«Lap az qalıb»-görünməyə illərə döndü,
hey uzandı dadsız, acı bağırsaq kimi.
Nə əvvəli, nə də bunun sonu göründü,
Camaatı aldatdılar bir uşaq kimi.

«Lap az qalıb» məsafəsi çox uzaq oldu,
İntizarla üzdük elə öz canımızı…
Üç qoyuna, beş qoyuna töysü qoyuldu,
Yun olmadı-apardılar yorğanımızı.

Ellərin də güzaranı qaldı allaha,
Necə yazım-qaradan da o yana rəng var?
Keçi neçə çəpiş doğub-aldılar saya,
Mülkədara tay tutdular kimdə inək var…

Əkinçini ayırdılar öz torpağından,
Torpaq oğlu torpağından uzağa düşdü.
Ümumi ev, ümumi yol, ümumi dükan,
Qədim Bakı bağları da ümumiləşdi.

-Bağ sahibi, bağını verir, yükünü yüklə,
-Bu bağ sənin bağın deyil, xalqındır daha…
O quyular, üzümlüklər, o əncilliklər,
O cənnətlər viran olub dağıldı daha.

Xalq deyildi bağ sahibi, zəhmətkeş insan?..
Arvadı da, uşağı da özüydü xalqın.
Bax, beləcə həyat çıxdı öz məcrasından,
Bax, beləcə ümidləri üzüldü xalqın.

-At sahibi, ver atını kolxoza hökmən,
Ümumidir geyim-keçim, çörək də, yağ da…
Bax, beləcə talan olduq ümumiliklə,
Qaldıq ətsiz, yağsız, qəndsiz əsrin bu vaxtı…

-Tor sahibi, ta Xəzər də ümumi oldu,
ta balıq da, ta kürə də ümiminindir.
Bəs kiminçün balıqçılar balıq tuturdu, dəryazımız var, balıqları görünmür indi…

Guya hər şey ümuminin əlinə keçdi,
Amma dərdlər, amma qəmlər oldu xüsusi.
Mvd-lə NKVD-lər xüsusiləşdi,
Zülm edənlər, həbs edənlər oldu xüsusi…

Bircə-bircə rəsmiləşdi bütün canilər,

Tuthatutlar, bashabaslar mindi qanuna.
Hər gün artan, balalayan dustaqxanalar
Keçdi mənfur Beriyanın ixtiyarına…

Oldu şəxsi mülkiyyəti, şəxsi dövləti,
Hökmdarlar nə karəydi onun yanında:..
Zindanları Sibirəcən uzandı getdi,
Əlləri də gecə-gündüz insan qanında.

Bütün qayda-qanunlarda oldu boş kağız,
Ölkə tamam, məcrasından uzağa düşdü.
Yazdıq, dünya yaradırıq bəysiz,ağasız,
Həqiqətdə hər kasıba beş ağa düşdü…

Yazdıq, cahan viranədir, tamam viranə,
O gərəkdir qüvvə ala, güc ala bizdən.
Hələ cənub sərhədləri dursun bir yana,
Sərhəd çəkdik dünya ilə öz aramızda…

Ta çoxları qapımızı açammadılar,
Nə kimsəyə əalam verdik, nə salam aldıq.
Bir ölkəni başdan-başa açarladılar,
Baş açarı Stalinin cibində qaldı…

Dedik, gahan daha bizdən başlayır, bizdən
Bircə gilə həyat yoxdur bizdən o yana.
Bahar kimi çiçəklidir xəzəlimiz də,
Hətta günəş çox soyuqdur bizdən o yana.

Bizsiz solub-saralacaq ərzin qalanı,
Nə qış qışdır, nə yay yaydır bizdən o yana…
Bizə qədər nə yaranıb nahaq yaranıb,
Gərək heç nə olmayaydı bizdən o yana…

Gündə-gündə yamanlayıb söydük dünyanı,
Bircə gilə vecinə almadı dünya.
Adətiylə hərlədi öz dəyirmanını,
Öz işindən, öz gücündən qalmadı dünya.

Bizləri də bala-bala vurdu dişinə,
Bizləri də əzdi, sıxdı, silkələdi o.
O-dünyadır, vardı dünya, olacaq yenə,
Öz xalqları, millətləri, ölkələriylə…

O bizə də qəh-qəh çəkdi, bizə də güldü,
Möhkəm-möhkəm ipimizi eşdi bu dünya…
Gözümüzü açıb gördük, bir də nə gördük,
Baxıb gördük ta bizdən də keçdi bu dünya…

**5.**

Bu yay bizi heç Şuşaya buraxmadılar,
Orda Vaqif poeziya gynləri idi.
Ağdamdaca bizə tanklar yaraqladılar,
Bu nə qədər ağlamalı, gülməli idi.

Silahlanmış hərbiçilər bələdçi oldu,
Təhlükənin, səksəkənin keçdik cənginə.
Burdan Şuşa qalasına qırx ağac yoldu,
Yol kəsmişdi ermənilər-ərəbzəngilər…

Deyin, adam durub kimə şikayət etsin,
Bu boyda da ağır bəla, pis gün olarmı?
Vətəninə əsgər səni müşayət etsin,
Şair üçün bundan böyük niskil olarmı?

Ay əsgərlər, necə edək, siz deyin barı,
Bir tərəfdən torpağına silah daşına.
Bir yandan da çox sevdiyin vətən daşları
Yad əllərdə güllə olub yağsın başına…

Nəsə bizə dəymədilər, qaldıq qazanca,
Rəhm elədi bizə vətən daşları məncə…
Kaş əllərim quruyaydı bunu yazınga,
Kaş gözlərim tutulaydı bunu görüncə…

Hava boyu vertalyotlar gəzirdi tək-tək,
Göy yolları açıq idi Şuşaya yalnız.
Az qalırdı yarıb çıxa sinəmi ürək,
Qayıdırdım o dağlardan ruhsuz, inamsız…

Qayıdırdım dağlar kimi dalğın, mükəddar,
Yol bağlıydı Xankəndinə, Kərgicahana…
Neçə kərə bu torpağı bölüşdürərlər,
Neçə kərə təpik dəyər Azərbaycana…

Bəxtimizi neçə kərə acılayarlar,
Soyumuzu ona-buna edərlər calaq…
Neçə kərə bu milləti parçalayarlar,
Öz doğmaca torpağından edərlər calay…

Bir olsa da əsli, nəsli, rişəsi, kökü,
Həqiqətdən, nəciblikdən mayası ola.
Neçə kərə bir yalını bölərlər iki,
Onun neçə göz dikəni, yiyəsi olar?...

Neçə kərə nemətini yeyib doyarlar,
Daraşarlar onun cənnət guşələrinə?..

Neçə kərə dənizinə qoruq qoyarlar,
Neçə kərə doğrayarlar meşələrini?..

Dönür geri bəd illərin dumanı yoxsa,
Astaraya döndərirlər Şuşanı yoxsa.
Ya Türkmənçay dərdlərini təzələyirlər?
Yoxsa Dağlıq Qarabağı Xoy eləyirlər?

Nə tufanlar gəldi keçdi üzərimizdən,
Aylar, illər ağır-ağır tərpəndi getdi.
Baxa-baxa qopardılar Təbrizi bizdən,
Baxa-baxa bir də gördük Dərbənd də getdi.

Yersiz gəldi, yersiz daha yükünü yüklə,
Başımıza nələr gələr, nələr bilmədik…
Kəmərlini kilər o vaxt böldülər iki,
Gədəbəydən kim pay verdi-xəbər bilmədik…

**6.**

Dava təzə qurtarmışdı… dərədə, düzdə,
Yerdə-göydə hələ barıt qoxusu vardı.
Hələ xofu getməmişdi ürəyimizdən,
Canımızda hələ onun qorxusu vardı…

Hələ axıb gəlirdilər «qara kağızlar»,
Poçtalyonlar hamısını gətirməmişdi…
Övladları qayıtmayan ana yazıqlar,
Hələ tamam ümidini itirməmişdi.

Əsgərlərin əynindəydi hərbi köynəyi,
Patrondaşda bağlayanlar var idi tək-tək…
Kartoçkayla verirdilər hələ çörəyi,
İndi əti, yağı, qəndi verdikləri tək…

Hələ çox-çox dərindəydi davanın kökü,
Ağrıları dolaşırdı damarda-qanda.
Hələ faşist əsirləri göz yaşı töküb,
Təzə-təzə gedirdilər Azərbaycandan…

Bizimkilər Almaniyadan dönürdü geri,
Yenə doğma yurdlarına tapınırdılar.
Evlərinə çatar-çatmaz o bədbəxtləri,
Heyvan kimi boğazlayıb aparırdılar.

Öz doğmaca torpağında həbs edirdilər,
Yad torpaqdan əsirlikdən qayıdanları.
Guya onlar vətəninə qəsb edibdilər,

Yaşamağa haqqı yoxdur əsla onların.

Milyon-milyon ömür yedi yırtıcı dava,
Gör nə qədər günahsızın qanı töküldü.
Guya düşmən az qırmışdı bizi Xudaya,
Bir yandan da öz əlimiz qırıb tökürdü…

Qanımızla qurtarmışdıq bəşəri dardan,
Amma içimizdə gedirdi dava.
İrəvanda, Zəngəzurda, Zəngibasarda,
Vedimizdə,Göyçəmizdə gedirdi dava…

Yox, bu dava daha pisdi, inanın buna,
Yox, davada düşmən ilə döyüşür insan.
Burda qonşu basıb səni yük qatarına,
Çıxarırdı öz halalca torpağımızdan…

Min hiyləylə tədbir töküb qovlayırdılar,
Guya qərib əzizləri qayıdar geri…
Bölük-bölük, sürü-sürü qovlayırdılar,
Ulu rəhbər guya buna göstəriş verib…

Lap az qala günahkara döndərib bizi,
Alırdılar ixtiyarı öz əllərinə.
Gözəl-gözəl yaylaqlardan endirib bizi,
Tökürdülər odlu Muğan düzənlərinə…

Deyirdilər, başlı başın saxlasın daha,
Bu şoranlıq düzləri hara, o dablar hara?!
Bircə qurtum bulaq suyu ömürdən baha,
Bircə udum dağ havası gəlməz xəyala…

Necə oldu o süzmələr, qaymaqlar yağlar,
Köçkünlərə görün necə od vurdular?
Bircə-bircə ölürdülər yazıq uşaqlar,
Qızdırmaya, yatalağa tutulurdular.

Yaşlılarda qırılırdı dərdsiz, əlacsız,
Bu da bir cür qətl olurdu, edam olurdu.
Orda qədim qəbiristanlar qalırdı başsız,
Burda təzə məzarlıqlar peyda olurdu…

Burda təzə başdaşları doğulurdular,
Qalanırdı, yüklənirdi qəm qəmin üstə.
«İrəvanda xal qalmadı»…oxuyardılar,
Xal nədir ki, Yerəvanda nə qaldı bizdən?..

«İrəvanda xal qalmadı»qədim İrəvan,
Xanlıqlardı bir zamanlar başdan-başa o.

Çoxu bizcə danışardı axıcı, rəvan,
Mehribandı dost, tanışa, yar-yoldaşa o…

Bağçaları xalı kimi toxuyardılar,
Dağa-daşa səs düşərdi təranəmizdən.
«İrəvanda xal qalmadı»oxuyardılar,
İrəvanda xal qalmadı nə qaldı bizdən?..

Gənclərimiz əhdi peyman bağlayardılar,
Baxıb həsəd aparardı pislər, xəbislər…
«İrəvanda xal qalmadı»-çağlayardılar,
İrəvanda xal qalmadı, qəm qaldı bizdən?..

İrəvanda xal qalmadı, əbədi qaldı
Orda ulu əcdadların ruhu, qəbiri…
Orda min-min arzumuzun məbədi qaldı,
Qaldı bizim ömrümüzün izi, ləpiri…

İrəvanda xal qalmadı,əbədi qaldı
Xatirəmiz, niskilimiz, gözümüz orda…
Aramızda başı qarlı dağlar ucaldı,
Bir-birinə yağı oldu dostlar axırda…

**7.**

Məni dağlar öz qoynundan buraxmayırdı,
Deyirdilər, demək sən də atırsan bizi.
Anam isə hey boynumu qucaqlayırdı,
Tutulurdu, kövrəlirdi, dolurdu gözü…

İlk dəfəydi ayrılırdım mən ondan, axı,
Cin ürkərdi köhnə, taxta çamadanımdan.
Hələ ana uşağıydım, ana uşağı,
Yüküm nimdaş-ayaqqabım, şərfim, papağım…

Şer ilə nəfəs alır qanadlanırdım,
Poeziya məcnunuydum,dəlisi idim.
Xəyallarım Düratlarım,Qıratlarımdı,
Çox sehrli bir aləmə tələsiyirdim…

Qırx səkkizdə axır məndə şəhərli oldum,
Pedməktəbdə tanış olduq elə o zaman…
İlk baxışdan görən kimi ona vuruldum,
Mən Xızıdan gəlmiş idim, o İrəvandan…

O şəhərli qızı idi, mən dağlar oğlu,
O inciydi, zərif idi, mən yonulmamış.
İlk zəng oldu, hamı birdən sinifə doldu,
Yadlar durub bir-biriylə oldular tanış…

O axırda gəlib çıxdı,gördüm ki, tanrı,
Yerişini itiribdir utandığından.
Tez yığışdı dövrəsinə Bakı qızları,
Hərə bir şey sual edib, soruşdu ondan…

O, qızların hüzurunda çaşdı, duruxdu,
Bir sadəlöhv, bir günahsız uşaqdı sanki…
Qara saçlar ilahidən buruq-buruqdu,
Ala gözlər bir sehirli bulaqdı sanki.

Mən anamın gözlərindən başqa dünyada,
Heç bir zaman o cür şəfaf göz görməmişdim…
Kəndimizdə qızlar vardı namuslu, sadə,
Amma heç vaxt bu həyatda qız görməmişdim…

Görməmişdim, yəqin şeç vaxt görməyəcəkdim,
Həyatımın axırına, sonuna kimi…
İllər boyu mənə yandı, qayğımı çəkdi,
Bir vəfalı ömür dostu, bir ana kimi…

Sonra bildim qaçqındılar, tavansızdılar,
Bizə qonşu olanların ovudu onlar.
Sonra bildim yurdsuzdu onlar, ünvansızdılar,
Sonra bildim İrəvandan qovulub onlar…

Bir dəhşətli heyran hissi üarandı məndə,
Elə bil ki, azıb qaldım duman içində.
Pedaqoji məktəb varmış ana dilində,
Bağlayıblar, dağıdıblar bir an içində.

Mən sonralar başa düşdüm düzü bunları,
Tutularmış hər kimsənin cınqırı çıxsa…

Ulu rəhbər rəhm eləyib özü onlara,
Sürürlərmiş hamısını Sibirə yoxsa.

Sonra bildim yüz minəcən azərbaycanlı,
Qədim, ulu torpağından olub didərgin,
Mən sonralar bu dəhşəti anladım, qandım,
Səfurayla evimizə köçdü bu dərd də…

Sonra gördüm, sonra bildim ötdükcə zaman,
Kirayədə yaşayırlar Mirzəağada.
Ailədə altı qız var, tək bircə oğlan,
Qaldıqları quşxanada ev ürək dağıdır.

Stol altda, pəncərədə yatır körpələr,
Ər-arvad da bir-birini görmürlər əsla.

Krantlarda ayda, ildə bir yol su gələr,
Tarakanlar ədab-ərkan bilmirlər əsla.

…Olurmuşlar İrəvanın düz ortasında,
Dörd tərəfdə Azərbaycan məhəllələri…
Köçürtdülər elə günün günortasında,
Köçürtdülər-necə gəldi buna əlləri.

Sonra gördüm altı qızın hamısı göyçək,
Sonra gördüm altı qızın hamısı xallı.
İrəvanda xal qalmadı, de mənə görək,
İrəvanda xal qalmadı, onda nə qaldı?

Ataları atam oldu-Hüseyn kişi,
Ermənicə qurtarmışdı məktəbi yazıq…
Sanardım ki, peyğəmbərin burnundan düşüb,
Aqranomdu… qəlbi varlı, cibləri kasıb…

İrəvanda min dil ilə aldatmışdılar,
Demişdilər…Bakıya get gözləyir evin.
Bakıda da başına min oyun açdılar,
Gündə bir cür cəfəng sözlər, yalanlar deyib.

Zülm çəkdilər xırda qızlar, körpə cücələr,
Üstləri yorğan görmədi, başları yastıq.
Bir gözüylə yazıq kişi uzun gecələr,
Rəhbərlərə elə ümid naməsi yazdı.

Birisi də sayıb cavab vermədi ona,
48-dən aylar ötüb, sənələr keçdi.
Yenə bizim Güllü xanım ev verdi ona,
Güc-bəlayla min doqquz yüz altmış üçdə.

Yazıq kişi nə yaxşı ki, ev görə bildi,
Heç olmasa həyatının qoca çağında…
Əbədilik mənzilində uyuyur indi,
Böyük qızı Səfuranın qonşuluğunda.

Anaları anam oldu-Səriyyə ana,
Özü də tünd seyid idi Mirabbas qızı.
Səxavətli tanrı hər şey vermişdi ona,
Gözəl idi, boy-buxunu,qaməti, gözü…

Nəcibliyi, insanlığı qədərsiz, saysız,
Daş qəlbinin dəyməz idi qəlbinə belə…
Sözü, mehri, məhəbbəti rəngsiz, qalaysız,
Nur dolardı ayaqları toxunan yerə.

Qızlar hamı çəkmidilər analarına,

Səfuraydı ilk övladı, canı-ciyəri,
Ana eyzən bala idi, bala da ana,
Sanardın ki, köhnə çinar təzə göyərir.

Yağı düşmən kəsilsə də zəmanə ona,
Hərdən-birdən qımışdı o, gözləri güldü.
Heç olmasa toy elədi balalarına,
Heç olmasa oğul evi, qız evi gördü.

Tanrı bir vaxt öz əliylə hördüklərini,
Öz əliylə viran qoydu,tanrını gör bir.
Bir zamanlar səxavətlə verdiklərini,
Peşiman olub ondan aldı geriyə bir-bir…

Yumaq kimi əyirdilər sərt illər onu,
Laxlatdılar qamətini sanki qəsd ilə…
Bir vaxt gözəl qiyafədə görənlər onu,
İndiysə görsəydilər tanımazdılar.

Yorulmuşdu keçmişlərin sonası idi,
Kürəyində qocalıq tək yük daşıyırdı.
On beş nəvə, yeddi övlad anası idi
Dörd divarın arasında tək yaşayırdı.

Nə etmişəm eşqin ilə etmişəm ancaq,
Gör ki, neçə aydır, ildir, sənədir, xalqım…
Allahımsan, ilahimsən dünya durunca,
İlk xitabım, son sözüm də sənədi, xalqım…

**8.**

Adın ilə bu dünyaya doğulmuşam mən,
Adın ilə bu dünyaya göz yumacağam…
Südün ilə, xəmrin ilə yoğrulmuşam mən,
Sənsən ancaq bu dünyada tək umacağım…

Sən daimi nicat yolum, sənsən son dayaq,
Sən Leylisən, bir Məcnun tək həsrətindəyəm.
Yalnız səni birləşdirmək arzusundayam,
Yalnız səni birləşdirmək həsrətindəyəm…

Sənsiz mənə bütün dünya nəfəssiz, soyuq,
Lalam, karam sən içimdə qurulmayınca.
Nə yaşamaq, nə də ölmək ixtiyarım yox,
İkiləşmiş Azərbaycan bir olmayınca.

Yetər, qəflət yuxusuna getməyin yetər,
Yetər, sən də qalxmalısan, ayılmalısan.
Alır bir-bir öz haqqını xalqlar, ölkələr,

Sən də xalqlar arasında sayılmalısan.

Haqqı asan verməyirlər, döyüşmək gərək,
Döyüş, vuruş daha növbən çatıbdı, xalqım…
Deyirlər ki, o ayılmaz, yatıbdı bərk-bərk,
Ölən vaxtı ayılacaq yatıbdı xalqım.

Bu sözləri nifrətimlə lənətləyirəm,
Bu sözlərdə qəzəb də var, həqiqət də var.
Yenə sənə qalx deyirəm, oyan deyirəm,
Oyanıbdır ən balaca ölkələr, xalqlar.

Daha bizim yelkənləri yelləyir külək,
Nə zamandı bütün dillər kilidli idi.
Yetmiş ildi millət demək, xalq adı çəkmək,
Əsl mərdlik, qəhrəmanlıq, igidlik idi.

Bu əsəri azca əvvəl yazsaydım əgər,
Tutardılar bir adicə sözümdən məni.
Varaqlara kibrit atıb od tökərdilər,
Salardılar camaatın gözündən məni.

Eh, indi də bəlkə onu buraxmadılar,
Köhnə, qorxunc zərrəbinlər işləyir hələ.
Qorxa-qorxa oxudular varaqladılar,
Bəd illərdən miras qalan şübhələr ilə.

Bu sətirlər amma mütləq doğulmalıydı,
Qopmalıydı gözlərimdən, bəbəklərimdən.
Ürəyimdən kağızlara dağılmalıydı,
Qətrə-qətrə çıxmalıydı iliklərimdən.

Misra-misra, vergül-vergül, sözbəsöz, xətt-xətt,
Onlar mütləq söz açmalı, doğulmalıydı.
Çatmalıydı millətimə, xalqıma mütləq,
Heç olmasa xalq qəlbimdə dərc olmalıydı.

-Diqqət, diqqət… alman xalqı bəyanat verir,
Bütün ərzin ekranları göstərir bu dəm.
Tarix özü bu birliyə zəmanət verir,
Mən də bərkdən əl çalıram, alqış deyirəm.

-İki Berlin bir məcrada axır, çağlayır,
Axır insan dəryaları insanın üstə,
Bir yandan da ruhum əsir, könlüm ağlayır,
Elə bil ki, duz səpirlər yaramın üstə.

Mən baxıram bu üzlərə sevinc içində,
Bir gör necə qucaqlaşır almanla alman.

Elə bil ki,yüz-yüz ocaq yanır içimdə,
Bəs sən nə vaxt qardaşına qovuşacaqsan?..

Qırx dörd ilə dözmədilər almanlar amma,
Bəs sən, əsr yarım keçib necə dözürsən?
Uyuyuram, anam Təbriz girir yuxuma,
İkiləşmiş Astaramız durur gözümdə.

Parçalanmış Culfa çökür sinəmə bərk-bərk,
O tay, bu tay möhkəm-möhkəm tutur yaxamdan.
Kür quruyur, sal odlanır, solur gül-çiçək,
Savalana od tökülür sinə dağımdan.

Nəqədər ki, parçalanmış bir diyarım var,
Gülməyəcək göz doyunca, ürək doyunca…
Nə yaşamaq, nə də ölmək ixtiyarım var-
İkiləşmiş Azərbaycan bir olmayınca…

1988-1989.